Xalqın qəzeti!

# Xalq qəzeti

№ 98 (31067) 6 iyun 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan dövlətinin yüksək qayğısı ölkə idmanına dünya şöhrəti qazandırır



Beynəlxalq yarışlarda idmançılarımız 2 mindən çox medal, 600-dən çox qızıl medal qazanıblar. Bu, bir daha onu göstərir ki, idmanın inkişafı Azərbaycanda uğurla gedir. Çünki idmanın inkişafına göstərilən diqqət, aparılan dövlət siyasəti, əlbəttə ki, ildən-ilə daha yaxşı nəticələrə gətirib çıxarır.

Hər dəfə bizim idmançılarımız Dövlət bayrağını beynəlxalq yarışlarda qaldıranda, əlbəttə ki, hər birimiz qürur hissi keçiririk. Son 5 il ərzində bizim bayrağımız qalib ölkənin bayrağı kimi beynəlxalq arenalarda qaldırılır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Prezident İlham Əliyev Avropa çempionu olan minifutbol üzrə Azərbaycan millisini təbrik edib






Prezident İlham Əliyev minifutbol üzrə Avropa çempionatının qalibi olan Azərbaycan milli komandasını təbrik edib.

Bununla bağlı dövlətimizin başçısının sosial şəbəkə hesablarında paylaşım edilib.

“2022-ci ildə Avropa çempionu, 2025-ci ildə dünya çempionu olmuş Azərbaycan minifutbol millisi ölkəmizin idman tarixinə daha bir parlaq səhifə yazaraq növbəti dəfə Avropa çempionu oldu. Bu qələbənin komanda idman növündə qazanılması ikiqat sevindiricidir.

Komandamızı bu möhtəşəm qələbə münasibətilə səmimi-qəlbdən təbrik edir, millimizə yeni-yeni uğurlar arzulayıram”, – deyə paylaşımda bildirilib.

## Birinci vitse-prezident Mehriban Əliyeva minifutbol üzrə Azərbaycan millisini təbrik edib



İyunun 5-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva minifutbol üzrə Avropa çempionatının qalibi olan Azərbaycan milli komandasını təbrik edib.

Bununla bağlı Birinci vitse-prezidentin rəsmi instaqram hesabında paylaşım edilib.

“Avropa çempionatının qalibi olan Azərbaycan minifutbol yığmasını təbrik edir, milli yığmamızın bütün üzvlərinə möhkəm cansağlığı, güc, enerji və yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!”, - deyə paylaşımda bildirilib.

## Müstəqil siyasətin qlobal uğur düsturu



Səhifə ⇨ 3

## Bakı ekoloji diplomatiya mərkəzidir



Səhifə ⇨ 6

## Azərbaycan və Avrasiya İqtisadi İttifaqı



Səhifə ⇨ 3

## Hay seçici ağıla, yoxsa nağıla səs verəcək?



Səhifə ⇨ 4

## İkili standartların kölgəsində qalan həqiqətlər



Səhifə ⇨ 5

## Məcburi köçkünlüyə son qoymuş Böyük Qayıdış






Səhifə ⇨ 8

## “Made in Azerbaijan” Odlar yurdunun qüdrət və şöhrət nişanıdır




Səhifə ⇨ 8

# Su təsərrüfatı və meliorasiya işçilərinin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**2-ci dərəcəli "Əmək" ordeni ilə**

Quliyev Zakir Bəybala oğlu
Məmmədov Etibar Kərim oğlu

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Bəşirov Yaşar Miskin oğlu
Əliyev Siyah Əli oğlu
Fərzəliyev Mehrəli Məmməd oğlu
Qafarlı Adil Rzaquli oğlu
Nəsirov Əlizadə Vahid oğlu
Seyidov Mirkamil Miriş oğlu

**"Tərəqqi" medalı ilə**

Allahverdiyev Hüseyn Məmməd oğlu
Aşumova Nərminə Nazim qızı
Əhədi Yusif Məmmədağa oğlu
Əliyev Səxavət Qədimalı oğlu
Əliyev Taleh Həbulla oğlu
Həmidov Akif Dəyyam oğlu
Xanverdiyev İntiqam Yunus oğlu
Qasımov Zahid Süleyman oğlu
Qoçəliyev Vüsal Aslan oğlu
Paşayev Mehdi Paşa oğlu
Səfərov Emil Qanbay oğlu
Səmədov Vasif Abid oğlu
Vəliyev Yaşar Həsən oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Rüstəmov Oktay Musa oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2026-cı il**

# Azərbaycan Minifutbol Federasiyasına maliyyə dəstəyi göstərilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan milli yığma komandasının 2026-cı il minifutbol üzrə Avropa çempionu olması ilə əlaqədar Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Minifutbol Federasiyasına 1,0 (bir) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2026-cı il**

# Milli Məclisin CNN-in yalanı ilə bağlı bəyanatı

**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyası CNN-in məqsədyönlü informasiya təxribatına dair bəyanat yayıb.**

2026-cı il iyunun 5-də CNN media şirkəti "İsrail İran müharibəsi zamanı region üzrə gizli şəbəkənin bir hissəsi olaraq Azərbaycana qoşun göndərdi" başlıqlı məqaləsində adları açıqlanmayan mənbələrə istinad edərək Azərbaycana qarşı informasiya təxribatına yol verib.

Komissiya bu məlumatın Yaxın Şərqdə sülh prosesinə, habelə Azərbaycanın milli maraqlarına və beynəlxalq nüfuzuna xələl gətirmək məqsədilə yayıldığını və dezinformasiya kampaniyasının bir hissəsi olduğunu bəyan edir. Məqalə müəlliflərinin sonda daim Azərbaycanın əleyhinə olan mövqeyi ilə seçilən və vaxtilə "Soros Fondu"nun maliyyələşdirdiyi media layihələrində fəaliyyət göstərən şəxsə müraciət etməsi isə məsələnin haradan qaynaqlandığını ehtimal etməyə əsas verir.

Müvafiq dövlət qurumlarımız tərəfindən də dəfələrlə bəyan edildiyi kimi, ölkəmizdə heç bir xarici dövlətin hərbi qüvvələri (qoşunları) və ya bazaları yoxdur və Azərbaycanın ərazisindən üçüncü dövlətlərə qarşı hansısa qeyri-dost fəaliyyətlərin aparılması mümkün deyil. Komissiya CNN-i bu məqalənin əsassızlığı barədə açıqlama verməyə və ya iddialarını sübut edəcək faktları ictimaiyyətə təqdim etməyə çağırır.

***XQ***

# XİN böhtançı yalana düzəliş tələb edir

**İyunun 5-də "CNN World" xəbər kanalının internet səhifəsində dərc olunmuş məqalədə Azərbaycan ərazisinin, guya, İrana qarşı hərbi və ya kəşfiyyat əməliyyatları üçün istifadə edilməsi, guya, İsrailə məxsus qüvvələrin Azərbaycan ərazisində yerləşdirilməsi barədə əks olunmuş iddialar tamamilə əsassızdır və onları qətiyyətlə rədd edirik.**



Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin "CNN World"də dərc olunmuş məqalədə Azərbaycanla bağlı əsassız iddialara dair şərhində yer alıb.

Bildirilib ki, sözügedən məqalədə yer alan iddialar Azərbaycan tərəfindən dəfələrlə təkzib edilib və bu mövqe CNN-in sorğusuna cavab olaraq əvvəlcədən redaksiyaya rəsmi qaydada təqdim edilib.

Heç bir tutarlı sübut ortaya qoyulmadan, anonim mənbələrə əsaslanan və Azərbaycanın rəsmi mövqeyini nəzərə almayan iddiaların yayımlanması jurnalistikanın obyektivlik, qərəzsizlik və peşəkar etika prinsipləri ilə ziddiyyət təşkil edir.

Dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan ərazisinin hər hansı üçüncü dövlətə qarşı hərbi əməliyyatlar, kəşfiyyat fəaliyyəti və ya digər düşmən xarakterli məqsədlər üçün istifadə olunması barədə iddiaların heç bir əsası yoxdur. Ölkəmiz bu kimi fəaliyyətlərə heç vaxt icazə verməyib və verməyəcək.

"Azərbaycan regionda sülhün, sabitliyin və mehriban qonşuluq münasibətlərinin təşviqinə sadiqdir. Bu kimi əsassız və heç bir sübuta əsaslanmayan iddialar növbəti dezinformasiya cəhdidir. CNN-dən əsassız iddiaların yayıldığı bu məqalənin təkzib edilməsini gözləyirik", – deyə şərhdə qeyd edilib.

***XQ***

# "CNN təkzib verməli və üzr istəməlidir!"

**"İyunun 5-də CNN özünün uydurduğu "mənbələrə" istinad edərək İsrailin İranla apardığı müharibə zamanı, guya, Azərbaycan ərazisindən istifadə etməsi ilə bağlı iddiaların yer aldığı material yayımlayıb. Dünyanın tanınmış transmilli media şirkətinin heç bir fakta istinad etmədən açıq-aşkar yalan məlumat tirajlamasını məqsədli şəkildə həyata keçirilmiş, kobud informasiya təxribatı hesab edirik". Bu fikirlər Medianın İnkişafı Agentliyinin açıqlamasında yer alıb.**

Bildirilib ki, dezinformasiya yaymaqla media etikasının dəyərlərinə və xəbərdə balansın qorunması kimi peşəkar jurnalistikanın təməl prinsiplərinə məhəl qoymayan CNN özünün reputasiyasını ləkələməklə yanaşı, həm də hibrid müharibənin propaqanda aləti kimi çıxış edib.

CNN-in yaydığı dezinformasiya Azərbaycana və bütünlükdə regional təhlükəsizliyə qarşı yönəlmiş siyasi təxribatdır. Bu məlumatın yayılması beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaqla yanaşı, regional sabitliyə və dövlətlərarası münasibətlərə zərbə vurmağa, regionda gərginlik yaratmağa hesablanıb.

Dəfələrlə ən yüksək rəsmi səviyyədə bəyan edilib ki, Azərbaycan Respublikası ərazisindən heç bir halda İran İslam Respublikasına qarşı istifadə olunmayıb və bu qəbildən olan uydurma, qərəzli məlumatlar kobud informasiya manipulyasiyasıdır.

"Regional təhlükəsizliyi təhdid edən, media etikası və jurnalist peşəkarlığı prinsiplərinə zidd formada məlumat yayaraq ictimai rəyi çaşdırmağa çalışan CNN-dən təkzib verməsini və Azərbaycandan üzr istəməsini tələb edirik", - deyə açıqlamada qeyd olunub.

***XQ***

# Xəzərdə su niyə azalır?

**Bakıda 5 İyun Ümumdünya Ətraf Mühit Günü çərçivəsində Xəzər dənizinin səviyyəsinin azalması və regional fəaliyyət üzrə elmi-analitik müzakirə keçirilib.**




Ekologiya və Təbii Sərvətlər Nazirliyi, BMT-nin Ətraf Mühit Proqramı və Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası Katibliyinin birgə təşkil etdiyi məclisdə ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev Xəzər dənizində müşahidə olunan səviyyə azalmasının yaratdığı ekoloji, sosial və iqtisadi risklərə diqqət çəkib, bu istiqamətdə elmi əsaslı yanaşmaların, məlumat mübadiləsinin əhəmiyyətini vurğulayıb.

Panel müzakirələrində dövlət qurumlarının nümayəndələri, ekspertlər, elmi-tədqiqat institutlarının mütəxəssisləri, eləcə də beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər. Müzakirələr zamanı Xəzər dənizində səviyyə dəyişikliklərinin səbəbləri, iqlim dəyişmələrinin təsirləri və regional əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# 2026-cı il Ümumdünya Ətraf Mühit Günü ilə bağlı müraciət

**Hörmətli iştirakçılar,**

Hamınızı Ümumdünya Ətraf Mühit Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanın regionda ilk dəfə olaraq bu qlobal tədbirə ev sahibliyi etməsi mühüm hadisədir. Bu, Azərbaycanın beynəlxalq səviyyədə ətraf mühitin mühafizəsi ilə bağlı maarifləndirmənin artırılması sahəsində fəal roluna və planetimizi qorumaq naminə kollektiv səylərə verdiyi töhfəsinə yüksək qiymətin göstəricisidir.

XXI əsrdə ətraf mühitin mühafizəsi beynəlxalq ictimaiyyətin ortaq məsuliyyətidir. İqlim dəyişmələrinin ildən-ilə artan dağıdıcı fəsadları, təbii sərvətlərin, o cümlədən su ehtiyatlarının sürətlə tükənməsi, biomüxtəlifliyin azalması, torpaqların deqradasiyası, çirklənmə və kəskin istilər bir-biri ilə əlaqəli və təxirəsalınmaz tədbirlər tələb edən proseslərdir.

Planetimizin üzləşdiyi ekoloji problemlər təkcə ekosistemlərə deyil, həm də dayanıqlı inkişafa, insan sağlamlığına, həyat şəraitinə və ölkələrin tərəqqisinə ciddi təsir göstərir. Gələcək nəsillərin rifahı bu gün bizim bu çağırışların öhdəsindən gəlmək bacarığımızdan asılıdır.

Biz Azərbaycanda bu öhdəliyə tam məsuliyyətlə yanaşır və ətraf mühitin mühafizəsi sahəsində genişmiqyaslı layihələr həyata keçiririk.

Bu gün ölkə ərazisində həm daşqınların, həm də quraqlığın artdığını müşahidə edirik. Su qıtlığı təkcə Azərbaycan üçün deyil, bütün region üçün ciddi narahatlıq doğuran məsələdir. Xəzər dənizinin səviyyəsinin son iki yüzillik ərzində qeydə alınan tarixi minimum səviyyəyə yaxınlaşması problemin ciddiliyinin bariz göstəricisidir.

Təmiz ətraf mühit və "yaşıl artım" hədəfi 2030-cu ilə qədər Azərbaycanın sosial-iqtisadi inkişafına dair beş əsas milli prioritetdən biri kimi müəyyən edilmişdir. Bu prioritetə uyğun olaraq, yaşıllıqların və meşə sahələrinin artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi və tullantıların idarə olunması məqsədilə institusional və infrastruktur yaradılması üçün məqsədyönlü səylər göstərilir.

Biomüxtəlifliyin qorunması məqsədilə Azərbaycanda xüsusi mühafizə olunan təbiət əraziləri genişləndirilir. Bir çox relikt, həmçinin regional və yerli endemik flora növləri ilə zəngin, nadir meşə massivi olan Hirkan meşələri Azərbaycanın UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş ilk təbiət ərazisidir.

Əfsuslar olsun ki, təxminən 30 il ərzində işğal altında olan ərazilərimiz ekosidə və urbisidə məruz qalmış və bu da həmin ərazilərdə ekoloji tarazlığın pozulmasına səbəb olmuşdu. Bundan əlavə, işğal olunmuş ərazilərdə basdırılmış çoxsaylı minalar bu gün də ciddi ekoloji ziyan vurmaqda davam edir.

Ərazilərimizin işğaldan azad edilməsindən dərhal sonra Azərbaycan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma və bərpa işlərinə başlamışdı. "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyalarına uyğun olaraq infrastrukturun yenidən qurulması, yaşıl enerji layihələrinin həyata keçirilməsi və müasir texnologiyaların tətbiqi yerli ekosistemin bərpasına töhfə verəcək.

Eyni zamanda, yaşıl enerji zonaları elan edilmiş Qarabağ və Şərqi Zəngəzur günəş, külək və su elektrik resursları da daxil olmaqla geniş bərpaolunan enerji potensialına malikdir. Yaşıl enerjinin inkişaf etdirilməsi Azərbaycanın dövlət siyasətinin prioritetləri sırasındadır.

Hörmətli iştirakçılar,

"Təbiətdən ilhamlanaraq. İqlim naminə. Gələcəyimiz naminə" qlobal çağırış adı altında keçirilən builki Ümumdünya Ətraf Mühit Günü iqlim fəaliyyəti və təbiət arasında qarşılıqlı əlaqənin gücləndirilməsinə təcili ehtiyac olduğunu vurğulayır.

Bu gün iqlim böhranının sərhəd tanımayan fəsadları beynəlxalq əməkdaşlığın gücləndirilməsini zəruri edir. Azərbaycan COP29-a sədrliyi dövründə iqlim diplomatiyası və çoxtərəfli dialoq üçün mühüm platforma təmin etmiş, inkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasında körpü qurmaqla qlobal həmrəyliyi daha da gücləndirmişdi. Azərbaycanın COP mirasını təşkil edən "Bakı sıçrayışı" tarixi qərarlarla yadda qaldı.

COP29-dan bu günədək iqlim liderliyimiz davam etmiş və Azərbaycan Ümumdünya Şəhərsalma Forumunun tarixində ən genişmiqyaslı, sayca 13-cü sessiyasına ev sahibliyi etmişdi. Tədbir "Bakı Fəaliyyətə Çağırış" sənədinin qəbul edilməsi ilə nəticələnmişdir. Sənəddə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə və hər kəs üçün dayanıqlı, əlçatan və iqlimə davamlı mənzil təminatı üçün konkret addımların atılmasına zərurət olduğu vurğulanır.

Azərbaycan gələcək nəsillərə yaşıl və dayanıqlı bir dünya miras qoymaq məqsədilə çoxtərəfli əməkdaşlığın bundan sonra da təşviq edərək qlobal ekoloji gündəliyin irəlilədilməsində fəal rol oynamağa davam edəcək.

Tədbirin işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 5 iyun 2026-cı il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə Portuqaliya xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Sizə şəxsi rifah arzulayır, Azərbaycan xalqına tərəqqi və firavanlıq bağlı xoş diləklərimi bildirirəm.

Ölkənizin bütün vətəndaşları və dostları üçün çox əhəmiyyətli olan bu gündə Portuqaliyanın dövlətlərimizi və xalqlarımızı birləşdirən ikitərəfli dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə sadiqliyini bir daha vurğulayıram. Portuqaliyanın Bakıda və Azərbaycanın Lissabonda səfirliyinin açılmasının bu məqsədə mühüm töhfə verəcəyinə ümidvar olduğumu qeyd edirəm.

Cənab Prezident, səmimi təbriklərimi bir daha təkrarlayaraq, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Antoniu Joze SEQURU,***
***Portuqaliya Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

İcazə verin, Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə vətəndaşlarımız adından və öz adımdan Sizə səmimi təbriklərimi, ölkənizə və xalqınıza tərəqqi, xoşbəxtlik və rifah arzularımı çatdırım.

Əmin olduğumu bildirirəm ki, qarşıdakı dövrdə siyasi və iqtisadi əlaqələrimizi daha da möhkəmləndirməyə, həmçinin təhsil, mədəniyyət, turizm və enerji sahələrində əməkdaşlığı genişləndirməyə yönəlmiş birgə təşəbbüslər vasitəsilə ikitərəfli münasibətləri inkişaf etdirməyə davam edəcəyik.

Dünyanın üzləşdiyi geosiyasi çətinliklər dövründə beynəlxalq təşkilatlarda iştirakımızla qlobal sülhə və sabitliyə birgə töhfə verəcəyimizə qəti şəkildə inanıram.

Zati-aliləri, bu inamla və Sizin ölkəmizə səfər etməyiniz arzusu ilə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Qordana Silyanovska-DAVKOVA,***
***Şimali Makedoniya Respublikasının Prezidenti***

***

**Cənab Prezident!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına Monqolustan xalqı adından səmimi təbriklərimi çatdırıram.

Məmnuniyyətlə qeyd edirəm ki, Monqolustan ilə Azərbaycan arasında qarşılıqlı hörmətə, ortaq tarixi, mədəni dəyərlərə əsaslanan ənənəvi dostluq münasibətləri və əməkdaşlıq birgə səylərimizlə genişlənməkdə davam edir.

Zati-aliləri, ölkələrimiz arasındakı münasibətləri əhəmiyyətli iqtisadi əməkdaşlıqla daha da dərinləşdirmək, uzunmüddətli inkişaf siyasətimizdə müəyyən edilmiş prioritet sahələr çərçivəsində əlaqələri genişləndirmək, həmçinin hərtərəfli davamlı inkişafın təşviqində beynəlxalq birliyin səylərinə birgə töhfələr vermək üçün Sizinlə hər zaman işləməyə hazıram.

Cənab Prezident, Sizə və sevimli ailənizə möhkəm cansağlığı, rifah, dost Azərbaycan xalqına isə firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Uxnaagiyn XURELSUX,***
***Monqolustanın Prezidenti***

***

**Zati-aliləri!**

Dost ölkənizin Müstəqillik Gününün növbəti ildönümü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram. Fürsətdən istifadə edərək, dost ölkələrimiz və xalqlarımız arasında mövcud olan möhkəm əlaqələrin davamlı şəkildə inkişaf etməsini arzulayıram.

Zati-aliləri, Sizə uzun ömür, cansağlığı, Azərbaycan Respublikasına və onun dost xalqına davamlı tərəqqi və rifah arzularımı bildirirəm.

**Dərin hörmətlə,**

***Şeyx Məşəl əl-Əhməd əl-Cabir əl-SABAH,***
***Küveyt Dövlətinin Əmiri***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi, xalqınıza davamlı tərəqqi və firavanlıq arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Tam əminəm ki, Azərbaycan ilə Livan arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə gələcəkdə daha da möhkəmlənəcək və inkişaf edəcək.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Nəvaf SALAM,***
***Livan Respublikasının Baş naziri***

# Müstəqil siyasətin qlobal uğur düsturu

## *Bakının yeni dünya düzənində təşəbbüskar rolu yüksəlir*

**Rusiyanın Ukraynaya qarşı müharibəsi, İran ətrafındakı gərginlik, Yaxın Şərqdəki münaqişələr və qlobal enerji bazarlarındakı qeyri-sabitlik alternativ enerji və nəqliyyat marşrutlarına ehtiyacı artırıb. Yeni reallıq fonunda Azərbaycan öz coğrafi mövqeyini və enerji resurslarını, sadəcə, iqtisadi üstünlük kimi deyil, strateji geosiyasi alət kimi gücləndirib. Hazırda Bakı enerji təhlükəsizliyi, beynəlxalq tranzit baxımından Avropa ilə Asiya arasında etibarlı körpü rolunu oynayır. Bu barədə ABŞ-ın nüfuzlu nəşrlərindən olan "The Washington Times" qəzeti yazıb.**



Qəzetin diqqət çəkdiyi əsas məqamlardan biri Azərbaycanın son illər dəyişən geosiyasi şəraitdən maksimum faydalanmağı bacarmasıdır. Bu baxışa görə Bakı, həm enerji təhlükəsizliyi arxitekturasında sabitlik elementi, həm də Şərq–Qərb və Şimal–Cənub marşrutlarının kəsişməsində yerləşən strateji qovşaqdır.

Nəşrin məlumatına görə, Vaşinqtonun Azərbaycana marağı təsadüfi deyil. ABŞ Prezidenti Donald Tramp administrasiyası Bakı ilə münasibətləri keyfiyyətcə yeni və daha yüksək mərhələyə çıxarmaq xəttini götürüb. 2025-ci ilin avqustunda Vaşinqton Sülh Sammiti çərçivəsində Prezident İlham Əliyevin Ağ Evdə Donald Trampla keçirdiyi görüş ikitərəfli münasibətlərdə dönüş nöqtəsi olub. Həmin görüş iki ölkə arasında uzunmüddətli strateji kursun yenidən müəyyənləşdirib. Bu yaxınlaşmanın ən mühüm regional nəticəs ABŞ-ın birbaşa şahidliyi ilə Azərbaycan və Ermənistan arasında sülh sənədinin paraflanmasıdır. "Euronews"un bəhs etdiyi kimi, bu, sülh platformasının bir hissəsi olaraq ABŞ Azərbaycanı Ermənistan ərazisindən keçməklə Naxçıvanla bağlayacaq TRIPP layihəsinə və regional dəhlizlərin inkişafına birbaşa dəstək verib.

ABŞ Prezidenti Donald Trampın Bakıya ünvanladığı rəsmi təbrik məktublarında qeyd edildiyi kimi, iki ölkə münasibətləri canlandırmaq üçün ardıcıl addımlar atır. Bunun bariz nümunəsi cari ilin fevral ayında ABŞ Vitse-prezidenti Ceyms Devid Vens və Prezident İlham Əliyev tərəfindən Bakıda imzalanmış Strateji Tərəfdaşlıq Xartiyası və yaradılmış Strateji İşçi Qrupudur. Bu sənəd əlaqələrə güclü institusional xarakter qazandırıb. Eyni zamanda, Bakı ilə Vaşinqton arasında hərbi əməkdaşlığa qoyulmuş məhdudiyyətlərin aradan qaldırılması istiqamətində atılan addımlar ABŞ-ın regiona yanaşmasında köklü keyfiyyət dəyişikliyini göstərir. Paralel olaraq, ABŞ qanunvericiliyində uzun illər qüvvədə olan və münasibətlərdə gərginlik yaradan 907-ci düzəlişin faktiki olaraq məhdudlaşdırılması və tamamilə ləğvi istiqamətində Vaşinqtonun atdığı addımlar ikitərəfli əlaqələrdəki son hüquqi baryerləri də aradan qaldırır. Bu isə hər iki dövləti daha böyük investisiya və müdafiə tərəfdaşlığı mərhələsinə keçirir.

* * *

ABŞ dövlət katibinin köməkçisi Kaleb Orrun Bakıya səfəri zamanı əldə olunan razılaşmalar, xüsusilə kritik minerallar və nadir torpaq elementlərinin tədarükü ilə bağlı əməkdaşlıq Qərbin Azərbaycanla münasibətlərində yeni istiqamətin formalaşdığını göstərir. Müasir texnologiyalar, müdafiə sənayesi və "yaşıl enerji" layihələri üçün vacib hesab edilən resurslar gələcəkdə Azərbaycanı qlobal təchizat zəncirinin daha mühüm halqasına çevirəcək. Bu tərəfdaşlıq, həm də süni intellekt, kibertəhlükəsizlik və kritik faydalı qazıntıların tədarük zənciri kimi yeni sahələri əhatə edir.

Azərbaycanın artan beynəlxalq nüfuzunun əsas dayaqlarından biri də onun enerji sektorudur. "The Washington Times"ın təhlilinə görə, Azərbaycan qazını Avropaya nəql edən Cənub Qaz Dəhlizi qitənin enerji xəritəsində strateji mövqe qazanıb. Bu meqalayihə Avropaya tədarük marşrutlarının şaxələndirilməsinə xidmət edir, qitənin xarici asılılığının, xüsusilə də Rusiyadan asılılığın azaldılmasına birbaşa töhfə verir. Bununla yanaşı, rəsmi Bakının müasir enerji siyasəti təkcə regional neft-qaz sektoru ilə məhdudlaşmır. Ölkəmiz son illərdə bərpaolunan enerji sahəsində də fundamental addımlar atmaqdadır. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti tərəfindən həyata keçirilən iri külək enerjisi layihələri, həmçinin Birləşmiş Ərəb Əmirliklərinin "ADNOC" və "Masdar" şirkətlərinin milyardlarla dollarlıq investisiyaları bunun bariz təsdiqidir.

Bu təşəbbüslər daxili bazarda alternativ mənbələrin payını artırmaqla yanaşı, ixrac üçün əlavə qaz həcmlərinin sərbəstləşməsinə şərait yaradır. Başqa sözlə, "yaşıl enerji" Azərbaycanın ənənəvi enerji potensialını zəiflətmir, əksinə, onu daha da gücləndirir. Milli Məclisin deputatı Məzahir Əfəndiyev bununla bağlı bildirib ki, Azərbaycan bu gün qlobal iqtisadiyyatda enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır və beynəlxalq enerji zəncirinin vacib iştirakçısı kimi çıxış edir. Onun sözlərinə görə, ölkənin qaz təchiz etdiyi dövlətlərin sayının ildən-ilə artması, xüsusilə də Avropa İttifaqına üzv ölkələrin çoxluq təşkil etməsi Azərbaycanın Avropa üçün əvəzolunmaz tərəfdaş olduğunu bir daha sübut edir.

Bakıda keçirilən Beynəlxalq Enerji Həftəsi də ölkənin qlobal gündəmdəki çəkisini növbəti dəfə nümayiş etdirib. ABŞ, Çin, Yaponiya, Avropa və Körfəz dövlətlərinin nümayəndə heyətləri də daxil olmaqla, 45-dən çox ölkə rəsmilərinin eyni platformada təmsil olunması Bakının beynəlxalq enerji diplomatiyasının mühüm mərkəzlərindən birinə çevrildiyini təsdiqləyir. Tədbir çərçivəsində irihəcmli sazişlərin imzalanması və aparıcı qlobal korporasiyaların Azərbaycan bazarına artan marağı ölkənin yüksək investisiya cəlbediciliyindən xəbər verir.

O da məlumdur ki, Azərbaycan yalnız xarici kapital qəbul edən deyil, həm də fəal şəkildə kapital ixrac edən ölkəyə çevrilib. 30 il əvvəl respublika öz iqtisadiyyatını bərpa etmək üçün xarici investorları cəlb edirdisə, bu gün Bakı Yaxın Şərq, Afrika və Mərkəzi Asiyadakı iri investisiya layihələrinin əsas tərəfdaşlarından biridir. Bu kontekstdə SOCAR-ın beynəlxalq fəaliyyəti və xarici bazarlardakı mövqelərinin genişlənməsi milli iqtisadi imkanların yeni mərhələyə qədəm qoyduğunu göstərir.

* * *

Güclü nəqliyyat-logistika potensialı Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirir. Ənənəvi şimal marşrutlarından yan keçən Orta Dəhlizin aktuallaşması, Çinlə Avropa arasında quru ticarət dövriyyəsinin artması və alternativ tranzit yollarına olan ümumi tələbat ölkənin strateji üstünlüklərini zirvəyə daşıyıb. Beləliklə, Azərbaycan Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən əsas qlobal qovşağa çevrilib. "The Washington Times" bu barədə məlumat verib.

Beləliklə, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin mühüm dayağı, Asiya ilə Avropanı birləşdirən strateji nəqliyyat kəsişməsi və Qərbin regiondakı etibarlı tərəfdaşı rolunu qəti şəkildə möhkəmləndirib. Qlobal tədarük zəncirlərinin və ticarət marşrutlarının yenidən qurulduğu müasir dövrdə Bakının geosiyasi çəkisi durmadan artır. Cari proseslər sübut edir ki, Azərbaycan öz təbii resurslarının verdiyi iqtisadi üstünlükləri uğurla uzunmüddətli geosiyasi və strateji dividendlərə çevirir. Bu isə yaxın illərdə ölkənin beynəlxalq arenadakı mövqeyini gücləndirəcək.

Bu proses coğrafi mövqenin strateji dəyəri, enerji resurslarının qlobal bazarlardakı həlledici rolu və rəsmi Bakının çevik diplomatik manevr qabiliyyətinin vəhdəti nəticəsində formalaşan uğur düsturudur. Azərbaycan artıq regional tranzit ölkəsi çərçivəsini aşaraq, Avrasiya miqyasında geosiyasi balans yaradan və strateji axınları yönləndirən mühüm qlobal aktora çevrilib.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan və Avrasiya İqtisadi İttifaqı

## *Rusiyalı nazir müavini Mixail Qaluzinin açıqlamasına sözardı*

**Əslində, Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzinin Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda dilə gətirdiyi fikirlər təəccüblüdür. Ona görə ki, indiyədək Rusiyanın Azərbaycanın Avrasiya İqtisadi İttifaqı ilə yaxınlaşmasına kömək niyyəti açıqlanmayıb. Axı məntiq olmalıdır. Məntiq isə budur ki, rəsmi Bakı mövcud istiqamətdə hansısa kömək istəməyib.**



Bəli, Azərbaycan Kremlin patronajlığı altında fəaliyyət göstərən quruma yaxınlaşmaq məramını ifadə etməyib. Məsələ onda deyil ki, belə bir məram, ümumən, heç vaxt olmayıb. Söhbət sırf yaxınlaşmaqdan gedirsə, bu prosesin ayrı-ayrı elementləri müşahidə olunub. Yəni Azərbaycan rəhbərliyi müxtəlif dövrlərdə Aİİ-yə dair mövqeyini ifadə edərkən vurğulayıb ki, ölkəmiz qurumla əməkdaşlığa, prinsip etibarilə, qarşı deyil, lakin xarici iqtisadi əlaqələri hansısa inteqrasiya blokuna üzvlüklə məhdudlaşdırmır. Dəfələrlə o da bildirilib ki, Azərbaycan həm Avropa, həm Türk dünyası, həm də postsovet məkanı ilə balanslaşdırılmış iqtisadi əlaqələr qurmağın tərəfdarıdır.

O da məlumdur ki, 2018–2024-cü illərdə Rusiya və Aİİ rəsmiləri bir neçə dəfə Azərbaycanın ittifaqa qoşulmasının arzuolunan olduğunu bəyan etsələr də, rəsmi Bakı bu çağırışlara qəti müsbət və ya mənfi cavab verməyərək məsafəli davranıb. Prezident İlham Əliyev müxtəlif çıxışlarında Azərbaycanın bir çox ölkələrlə ikitərəfli formatda səmərəli iqtisadi əməkdaşlıq qurduğunu və mövcud modeldən razılığını qeyd edib. Nəzərə alaq ki, Aİİ-nin bəzi üzvləri, xüsusən, Rusiya, Qazaxıstan və Belarusla geniş ticarət-iqtisadi əlaqələr saxlayırıq. Yəni ittifaqa qoşulmadan da bunları gerçəkləşdirməyimiz mümkündür.

Daha bir məqamı vurğulayaq. Zaman-zaman Aİİ-yə qoşulmaq məsələsi müzakirə olunarkən, Azərbaycan belə bir arqument irəli sürüb ki, ittifaqın üzvü olan Ermənistan ilə həll olunmamış siyasi məsələlər mövcuddur. Söhbət erməni işğalı ilə bağlı məsələlərdən gedib ki, artıq həmin dövr geridə qalıb. Bakının İrəvanla yekun sülh müqaviləsi olmasa da, indi başlıca məqam heç bu da deyil. Əsas nüans Aİİ-nin Ermənistanın özü üçün problemə çevrilməsidir və mövzuya qayıdacağıq. Hələlik isə...

Əlqərəz, Rusiyanın Azərbaycanın Aİİ ilə yaxınlaşmasına hərtərəfli dəstək verməyə hazır olduğunu bəyan edən M.Qaluzin hesab edib ki, bu, ümumi Avrasiya məkanında artıq formalaşmış iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə xidmət edər. Onun fikrincə, belə bir yaxınlaşma Azərbaycan iqtisadiyyatı üçün də müsbət nəticələr verər. Çünki ölkə vahid mal bazarının üstünlüklərindən yararlanmaq imkanı əldə edər, həmçinin nəqliyyat, xidmətlər və investisiyalar sahəsində əməkdaşlığını genişləndirmək imkanı qazanar. Ən başlıcası isə nazir müavini vurğulayıb: "Biz Azərbaycanı Avrasiya İnkişaf Bankının səhmdarları sırasında görmək istərdik və hesab edirik ki, belə bir addım respublikada iri layihələrin bankın vəsaiti hesabına maliyyələşdirilməsinə yol aça bilər".

Demək istəmirik ki, Avrasiya İnkişaf Bankının (AİB) ölkəmizdəki hansısa layihəni maliyyələşdirməsinə ehtiyac yoxdur. Azərbaycana can atan xarici investorların, o cümlədən bankların, kifayət qədər, çoxluğunu, habelə, öz vəsaitimizin də yetərli olduğunu bildirib cənab Qaluzinin fikirlərinin xoş məramını heçə endirmək məqsədindən uzağıq. Nəzakət xatirinə nazir müavininə təşəkkürümüzü bildiririk. Hətta sözügedən bankın Azərbaycanın Aİİ ilə indiki yaxınlığı şəraitində də ölkəmizdəki layihələrə dəstəyinin nəzərdən keçirilməsinin mümkünlüyünü söyləmək olar. Yəqin cənab Qaluzin onu nəzərdə tutmur ki, AİB-in dəstəyi üçün mütləq Azərbaycanın Aİİ-yə üzvlüyü lazımdır...

Bildirdiyimiz kimi, Azərbaycan Aİİ məkanına daxil olan ölkələrlə sıx əməkdaşlığa malikdir. Bu məkanın ölkələrindən biri də Ermənistandır ki, onunla əlaqələrimiz müsbətə doğru gedir və mövcud tendensiyanın formalaşmasında nə Rusiyanın, nə də onun hakim rol oynadığı təşkilatın hansısa rolu var. Bakı və İrəvan sülh yolundadırlar və bu yol hər iki tərəfin şüurlu seçimidir. O zaman Ermənistanın Aİİ ilə əlaqələrinə keçid alaq. Yəni üzərinə qayıdacağımızı dediyimiz mövzudan söz açaq.

Bəli, Ermənistan Aİİ-də rəsmən təmsil olunur. Ancaq belə bir meyil var ki, parlament seçkiləri öncəsi gərginlik dövrünü yaşayan ölkə üçün əlavə gərginlik mənbəyi məhz bu qurumdur. Daha doğrusu, Aİİ-yə üzvlük və ondan gələn dividend hazırda Ermənistan üçün, bir növ, siyasi şantaj predmetinə çevrilib. Nə üçün? Çünki Rusiya İrəvanın təşkilatdakı təmsilçiliyini ikincinin Avropa İttifaqına qoşulmaq məqsədinə qarşı qoyur. Təxminən belə: Ermənistanın Aİİ xətti ilə qazancı böyükdür, Aİ-dən əldə edəcəkləri isə qeyri-müəyyəndir. Ayının min oyunu bir armudun başındadır. Vurğu onun üzərindədir ki, qeyri-müəyyən platformaya doğru yön alan erməni iqtidarı seçki qalibi ola bilməz, yaxud olmasın.

Əlbəttə, sonuncu diqqətə çatdırdığımız məqam açıq şəkildə bildirilmir. Ancaq mövzuya dair ayrı-ayrı deyimlərin hay elektoratına təsir yükü daşıdığı məlumdur. Sadə ermənilərə dolayısıyla çatdırılır ki, real gəlir platforması olan Aİİ-ni deyil, Aİ-ni üstün tutan siyasi düşərgəni dəstəkləsə, gələcəkdə yaşam gəlirlərindən məhrum duruma düşəcək. Yəqin, elə buna görədir ki, Baş nazir Nikol Paşinyan və komandasının üzvləri seçkiqabağı təbliğat çıxışlarında tutarlı alternativlər açıqlayır və beləliklə, siyasi şantajlara boyun əyməyəcəklərini ortaya qoyurlar. Alternativlərdən söz düşmüşkən, onların sırasında Azərbaycan da var. Məsələn, erməni iqtidarı Rusiya qazını Azərbaycan qazı ilə əvəzləməyin mümkünlüyü barədə söz açır. M.Qaluzinin ölkəmizin Aİİ ilə yaxınlaşması mövzusundan danışması həm də buna görə təəccüblüdür. Həm də istər-istəməz düşünməyə vadar edir. Bəlkə Rusiyada kimlərsə Aİİ-dəki Ermənistan itkisini Azərbaycanla kompensasiya etməyi düşünəcək qədər "irəli gedir"?

Əslində, suallar çoxdur və ümid edək ki, onların geniş anlamda səslənməsinə ehtiyac qalmayacaq. Eləcə də Qaluzinin açıqlamasından subliminal nəticələr çıxarmağa. Hərçənd, nəticə çıxaranlar var. Çünki Aİİ ümumi Avrasiya iqtisadi məkanı yox, daha çox Rusiyanın siyasi platformasıdır. O platforma ki, oradakı dövlətlərin, belə demək mümkünsə, dividend və mənfəət payının formalaşması sırf Aİİ-də təmsilçiliyin hesabına deyil.

Tutalım, Qazaxıstanı götürək. Qazaxıstan dünyaya açıqdır və bu status beynəlxalq aləmlə ikitərəfli münasibətlər trayektoriyasına əsaslanır, nəinki Aİİ üzvlüyünə. Yəni sabah ölkə milli maraq və mənafelərinin diktəsindən asılı olaraq davranacaq və heç bir maneə tanımayacaq. Buna qarşı hansısa mexanizm varmı? Yoxdur. Axı Qazaxıstanın Çin kimi real inteqrasiya məkanı da mövcuddur. Ermənistana qarşı isə mexanizmlər işə salınır. Erməni "tırları" Rusiya ilə sərhəddə gözləyirlər. O "tırlar" ki, üzlərini çevirib Avropaya doğru yön alsalar, yük yerlərindəki məhsul "köhnə qitə"nin yalnız bir ölkəsindəki marketlərə çatacaq. Aydındır ki, Ermənistanın Avropa bazarını təmin edəcək qədər nə əriyi, nə də konyakı ola bilər. Ancaq ölkənin ərik və konyak satışından qazanması mümkündür. Eləcə də digər məhsullardan. O məhsullar ki, onlar üçün ən yaxın bazar Azərbaycan və Türkiyədir.

Göründüyü kimi, Aİİ müstəvisi baxımından ortada normal iqtisadi münasibət amili yox, böyük ölçüdə siyasi element var və Ermənistan nümunəsində bu element nəzərə çarpır. Biz Azərbaycanda yetişdirilən pomidorun da siyasi məsələlər səbəbindən Rusiya sərhədini "keçə bilmədiyinin" şahidi az olmamışıq. Guya Aİİ-də yer alsaydıq, belə bir durumla üzləşməzdik?

Bütün bunlara görə də Qaluzinin Aİİ və Azərbaycan mövzusundan söz açması təəccüblüdür. Görəsən, indiyədək formalaşmış iqtisadi əlaqələrimizi quruma yaxın olmaqla necə daha da möhkəmləndirəcəyik? Yaxud Aİİ ilə yaxınlaşmaqla ölkəmizin iqtisadiyyatı üçün hansı müsbət nəticələr yaranacaq? Azərbaycanın Aİİ-nin vahid mal bazarının üstünlüklərindən faydalanması necə olacaq? İndi Ermənistanın yararlandığı kimimi? Dedik axı suallar çoxdur. Hətta daha çox. Hələlik bu qədər.

***Ə.CAHANGİROĞLU***
***X Q***

**Zəfərimizlə başa çatan İkinci Qarabağ müharibəsindən sonra ikinci dəfə seçki məntəqəsinə dəvət olunan erməni elektoratı sabah, həqiqətən də, çətin tarixi seçimlə üz-üzədir. Beş il əvvəl müharibədə məğlub olmuş baş nazirə məhz sülh istəyi ilə səsini verən vətəndaşların öz seçimini təkrar edəcəkləri gözlənilsə də, hadisələrin kənar qüvvələrin prosesə müdaxiləsi nəticəsində idarəolunmaz xaosa sürüklənəcəyini proqnozlaşdıranlar da var. Hakimiyyətin siyasi seçimi isə birmənalıdır: Ermənistan Avropa İttifaqına daxil olmağı hədəfləyir və ABŞ ilə Cənubi Qafqazda vacib nəqliyyat dəhlizi olacaq "Tramp yolu"nun açılmasına razılıq verib.**

# Hay seçici ağıla, yoxsa nağıla səs verəcək?

## *Ermənistanın gələcək taleyini sabah qutudan kimin çıxacağı həll edəcək*

Bundan başqa, rəsmi İrəvan Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq üçün konkret addımlar atıb. Buna görə də 2026-cı il parlament seçkiləri təkcə iqtidar üçün deyil, həm də xalq üçün geosiyasi seçim anıdır. Bu anı şərtləndirən əsas sual isə hərb, yoxsa sülhdür? Seçki qutusundan hansı cavab çıxacaq? Proqnozlar özünü doğrultmasa, nə baş verəcək? Suallarımıza cavabı ölkənin tanınmış siyasi ekspertlərinin iştirakı ilə aramağa qərar verdik.



***

**Milli Məclisin deputatı Cavanşir Feyziyev** Ermənistanda ictimai-siyasi vəziyyəti yaxından izlədiyini, seçkiqabağı təbliğat dövründə kifayət qədər kənar müdaxilələrin baş verdiyini bildirdi: "Xüsusilə Rusiya həm rəsmi Kreml səviyyəsində, həm də hakimiyyətyönlü media vasitəsilə Ermənistandakı proseslərə kobud müdaxilə edib və bunu hələ də davam etdirir. Amma hesab edirəm ki, Moskvanın bu cəhdləri Ermənistandakı rusiyayönümlü siyasi qüvvələrə öz tərəfdarlarının sayını artırmaq şansını yaratmır. Paşinyan hökuməti vaxtaşırı olaraq Rusiyadan dəstək alan siyasi qüvvələri ifşa edir və nəticədə onların seçki reytinqi getdikcə azalır. Məsələn, hələ seçkilərə 3 ay qalmış aparılan rəy sorğusunda Paşinyanın reytinqi 30 faiz təşkil edirdisə, indiki sorğular bu rəqəmin 60 faizdən yuxarı olduğunu göstərir. Paşinyanın rəhbərlik etdiyi "Mülki müqavilə" partiyasının seçkilərdə qalib gələcəyini indidən söyləmək mümkündür".

Hazırda Paşinyan tərəfdarlarının, sadəcə, digər rəqiblərdən daha çox səs toplamaq üçün yox, yeni parlamentdə konstitusion çoxluğa nail olmaq uğrunda çalışdıqlarına diqqət çəkən deputat onların seçkilərdə konstitusion çoxluğu əldə etməyə və şəriksiz hökumət qurmağa şanslı olduqlarını dedi: "Əgər bu baş verərsə, Ermənistanda həyata keçməli olan islahatların yolu açılmış olacaq. Belə bir vəziyyət Azərbaycanla sülh sazişinin bağlanmasına da müsbət təsirini göstərəcək.

Əminəm ki, yeni hökumət bu il həm də konstitusiya islahatlarını həyata keçirəcək və bu, bölgədə dövlətlərarası diplomatik və siyasi-iqtisadi münasibətlərin canlanmasına gətirib çıxaracaq. Proseslər təkcə bölgə miqyasında deyil, bütövlükdə, Avrasiya miqyasında siyasi və iqtisadi-ticari trendlərdə özünü göstərəcək".

***

**Türkiyənin Erciyes Universitetinin professoru, ermənişünas alim Qafar Çaxmaqlı** Ermənistanda parlament seç-



kiləri öncəsi dönəmin kifayət qədər gərginliklə müşayiət olunduğunu qeyd etdi: "Əslində, bu seçkilərə referendum havası verən xüsusiyyətlər var. Onu müharibə və sülh tərəfdarlarının, Qərbə inteqrasiya etmək istəyənlərlə rusiyayönümlülərin mübarizəsi kimi də dəyərləndirmək olar. Seçkiqabağı dövrdə açıq göründü ki, iki qüvvə arasında kəskin mübarizə gedir. Seçicilər də hardasa, ikiyə bölünmüş vəziyyətdədirlər. Rusiya seçkiyə göndərdiyi "üçbaşlı" müxalifətə – Samvel Karapetyan, Robert Koçaryan və Qagik Tsarukyanın fraksiyalarına açıq dəstək verir və Ermənistandan Rusiyaya göndərilən bir çox mallara sanksiyalar tətbiq edir ki, bu yolla erməni seçicilərinə təsir göstərsin. Təsadüfi deyil ki, seçkilərə iki gün qalmış Rusiya Prezidenti Vladimir Putin Ermənistanın Avrasiya İqtisadi İttifaqı ilə Avropa İttifaqı arasında seçim etməli olduğunu bir daha dilə gətirdi və bunu tez etməsini istədi".

Kremlin Ermənistanın Azərbaycanla sülh müqaviləsi prosesinə müdaxilə cəhdlərinə toxunan Q.Çaxmaqlı bu sənədin artıq ABŞ-da paraflandığını və dialoqun vasitəçilərsiz davam etdiyini söylədi: "Azərbaycanla Ermənistan sülh sazişinin bəndlərini heç kimin iradəsi olmadan razılaşdırıblar. Onların yeni platformaya ehtiyacları yoxdur. Bəli, Rusiya növbəti dəfə prosesə müdaxilə etmək üçün səy göstərməkdədir, amma bunlar faydasız cəhdlərdir. Moskva təsir dairəsindən çıxmış Ermənistanda və ümumən Cənibi Qafqazda sözü keçən dövlət görüntüsü yaratmaq istəyir. Rusiya nəzəri cəhətdən Ermənistandakı seçkilərdə hakimiyyət dəyişikliyinə ümid edə bilər. Amma artıq Paşinyan hakimiyyətinin məğlub olacağı mümkün görünmür. Son günlər aparılan rəy sorğularında Paşinyanın partiyası böyük fərqlə öndədir və seçkiqabağı təşviqat kampaniyaları onu göstərir ki, ona dəstək vermək sülhə dəstək vermək anlamına gəlir və erməni xalqı bunun nə demək olduğunu anlayır".

Alim hesab edir ki, daha çox casusluq fəaliyyəti ilə məşğul olduğunu ortaya qoyan eks-prezident Robert Koçaryan Ermənistanı vətəndaş qarşıdurmasına sürükləməyə çalışır: "Bu isə o deməkdir ki, Ermənistanı yenidən Rusiyanın boyunduruğuna qaytaracaq, Azərbaycanla sülh prosesini arxa plana keçirib, yeni şovinist ideyalarla ortaya çıxacaqlar. Ermənistanda budəfəki seçkilər tarixi seçkilərdir və buna yalnız ölkədaxili siyasi tədbir kimi baxılmamalıdır. Seçkilərdə Paşinyan qələbə çalacağı təqdirdə bölgədə sabitliyin təmin olunmasına daha bir addım yaxınlaşacağıq".

***

Problemlər yaşayan ölkələrdə seçkilərin də problemli kampaniyalarla müşayiət olunduğuna, bu zəmində Ermənistanın istisna təşkil etmədiyinə diqqət çəkən **siyasi icmalçı Tofiq Abbasov** elektoratın



seçiminə çeşidli vasitələrlə təsir göstərmək cəhdlərini xüsusi olaraq vurğuladı: "Burada söhbət iki istiqamətdən – Şərq və Qərbdən gedir. Eyni zamanda, hərb və sülh arasında seçim məsələsi də var. Hipotetik baxımdan fərz etsək ki, revanşistlər seçkini udub hakimiyyətə gəlsələr belə, bundan sonra heç bir halda Azərbaycana qarşı müharibə gündəmini irəli sürə bilməzlər. Bu reallığı onların özləri də yaxşı anlayırlar. Karapetyan, Koçaryan və digər müxalif namizədlərin arxasınca gedən qüvvələrin iddaları heç bir əsasa söykənmir. Onlar Ermənistanın üzləşdiyi bütün çətinliklərin günahkarı kimi Nikol Paşinyanı göstərirlər. Halbuki siyasi rəqiblər kimi sıravi ermənilər də buraxılan səhvlərdə indiki hökumətdən daha çox əvvəlkilərin təqsirkar olduğunu yaxşı bilirlər. Yəni əsas günahkarlar qeyri-qanuni yolla hakimiyyətə yiyələnmiş revanşist separatçı prezidentlər – Robert Koçaryan və Serj Sarkisyandır. Onların başçılıq etdiyi Ermənistanın seçdiyi paradiqmalar yanlış idi".

Ermənilərin iki əsrlik saxta ideologiyasının tabutuna mismarları vurmaqla bölgədə reallığı kökündən dəyişən Azərbaycanın bir daha geriyə dönüşə imkan verməyəcəyi şəksizdir. Siyasi icmalçı bunu birmənalı olaraq vurğuladı: "Regionda təsir rıçaqlarının hamısı Azərbaycanın əlindədir. Bəli, indi İrəvan seçim qarşısındadır: ya Qərb, ya da Şərq! Düşünürəm ki, Paşinyan hakimiyyətini qoruyacaq və onun Rusiya ilə qarşıdurma planları siyasi-texnoloji gedişdir. Sadəcə olaraq, parlament müxalifətinin başında rusiyayönümlü Qagik Tsarukyanın durması iqtidara da sərf edən variantdır".

***

**Mövzunu XQ-yə şərh edən politoloq Asif Nərimanlının** qənaətincə, Ermənistan elektoratı 7 iyunda Nikol Paşinyan, yaxud Robert Koçaryan və Samvel Karapetyanın timsalında siyasətçilər yox, sülh və mühari-



bə arasında seçim edəcək və bunu Ermənistanın gələcək mövcudluğunu müəyyən edəcək həlledici an hesab etmək olar: "Nikol Paşinyanın liderlik etdiyi hakim komanda seçkiyə sülh proqramı ilə gedir, Koçaryan və Karapetyanın ətrafındakı revanşistlər isə müharibə proqramından çıxış edirlər. Onların Azərbaycanla sülh razılaşmalarını yenidən nəzərdən keçirmək istəkləri yeni müharibənin başlanmasına zəmin hazırlaya bilər. Bu baxımdan, erməni seçicilər partiyaları, yaxud liderləri yox, sülh və müharibəni, ümumilikdə millət və dövlət olaraq öz gələcəklərini seçəcəklər. Bu seçkilər həm də Cənubi Qafqazda Qərb və Rusiya arasında davam edən geosiyasi mübarizədə güc balansını müəyyən edəcək".

Rusiyanın revanşistlərə dəstək verməklə seçkidən sonra bölgədəki mövqelərini qorumağa, Paşinyanı dəstəkləyən Qərb isə Ermənistanda və bu ölkə üzərindən regionda yeni mövqelər qazanmağa çalışdıqlarını dilə gətirən siyasi icmalçı Ermənistandakı seçkilərin bu qədər gərgin atmosferdə keçməsinin səbəbi kimi geosiyasi maraqların kəsişdiyi coğrafiya ilə izah etdi. A.Nərimanlı ümumi vəziyyətin analizinin seçkidə Paşinyan komandasının şanslarının daha çox olduğunu deməyə əsas verdiyini proqnozlaşdırdı: "Mövcud iqtidar hakimiyyətdə qalacağı təqdirdə, regionda təməli atılmış sülh gündəliyi davam edəcək, əks təqdirdə, müharibə riski yenidən aktuallaşa bilər ki, bu da Ermənistanın dövlət kimi mövcudluğunu sual altına salacaq".

***İmran BƏDİRXANLI***
***XQ***

# Paşinyanın "Minsk qrupu" etirafı

## *Qarabağ münaqişəsi "böyük güclər"in Qafqaz marağına xidmət edirdi*

**Keçmiş Qarabağ münaqişəsinin həlli məqsədilə yaradılmış ATƏT-in Minsk qrupunun, xüsusilə onun həmsədri olan 3 ölkənin – Rusiya, Fransa və ABŞ-ın bu prosesdəki rolu ölkəmizi heç zaman qane etməyib. Həmsədr ölkələr həmişə Ermənistanın mövqeyindən çıxış ediblər, rəsmi İrəvan kimi onlar da status-kvonun qorunub saxlanılmasına çalışıblar.**

Minsk qrupunun həmsədrləri 1992-ci ildən 2020-ci ilədək münaqişənin həlli məqsədilə 3 təkliflər toplusu ("paket həll", "mərhələli həll" və "ümumi dövlət") hazırlayıb. Bunlardan ilk 2 təklif Ermənistan tərəfindən, son təklif isə Azərbaycan tərəfindən qəbul edilməyib. Onların fəaliyyətində çatışmayan başlıca məqam ədalət hissinin yoxluğu idi.

İkinci Qarabağ müharibəsinin başa çatmasından bir neçə il sonra tarixin zibilliyinə atılan Minsk qrupunun, qeyd etdiyimiz kimi, hər zaman ermənipərəst mövqe sərgiləməsinə rəğmən qrup hazırda Ermənistan hakimiyyəti tərəfindən də vaxtaşırı tənqid olunur. Ermənistanın məzuniyyətdə olan baş naziri, hazırda hakim "Mülki müqavilə" partiyasının deputatlığa namizədlərinin proporsional siyahısına rəhbərlik edən Nikol Paşinyan iyunun 4-də İctimai Televiziyada keçirilən seçkiqabağı debatlar zamanı bildirib ki, Minsk qrupu həmsədr ölkələrin Qarabağ münaqişəsinin həllinə imkan verməməsi üçün yaradılmışdı. O, bunu həll olunmamış münaqişənin müxtəlif dövrlərdə həmin ölkələrin maraqlarına uyğun olması ilə əlaqələndirib: "ATƏT-in Minsk qrupu münaqişənin həll olunmaması, Ermənistanın və bütövlükdə, Cənubi Qafqazın bu tələdən çıxa bilməməsi üçün yaradılmışdı".

Paşinyanın açıqlaması Ermənistanda da, regionda da diqqət və marağa səbəb olub. O hesab edir ki, bu mexanizm Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün deyil, əksinə, onun uzun illər dondurulmuş vəziyyətdə saxlanılması üçün formalaşdırılmışdı. Bu yanaşma emosional siyasi bəyanat kimi görünə bilər. Lakin son 30 ilin nəticələrinə nəzər saldıqda Paşinyanın fikirlərində müəyyən məntiqin olduğunu görmək mümkündür.

Qarabağ münaqişəsi dünyanın ən uzunömürlü münaqişələrindən biri idi. 1988-ci ilin fevralında bölgənin dağlıq hissəsində – keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi şəhəri olan Xankəndidə erməni separatçılarının çıxışları ilə başlayan, 1992-ci ilin əvvəlindən iki ölkə arasında tammiqyaslı müharibəyə çevrilən qarşıdurma minlərlə insanın həyatına təsir göstərdi, yüz minlərlə insanı öz yurd-yuvasından didərgin saldı və regionun inkişaf imkanlarını ciddi şəkildə məhdudlaşdırdı. Vasitəçilərin əsas missiyası tərəfləri kompromisə yaxınlaşdırmaq və həll prosesini irəli aparmaq idi. Ancaq uzun illər aparılan danışıqların yekununda ortaya konkret nəticənin çıxmaması Minsk qrupunun fəaliyyətinin səmərəliliyi ilə bağlı sualları daha da artırdı.

Əslində, münaqişənin həll olunmamış vəziyyətdə qalması nə Azərbaycanın, nə də Ermənistanın maraqlarına cavab verirdi. Azərbaycan öz ərazi bütövlüyünün pozulması, böyük humanitar fəlakətlə – qaçqın və məcburi köçkün problemi ilə üzləşmişdi. Ermənistan isə uzunmüddətli blokada, bağlı sərhədlər və regional layihələrdən kənarda qalmağın yaratdığı iqtisadi və siyasi məhdudiyyətlərlə yaşayırdı. Hər iki ölkə ciddi resurslarını təhlükəsizlik məsələlərinə yönəltməyə məcbur olur, qarşılıqlı etimadsızlıq isə Cənubi Qafqazda əməkdaşlıq imkanlarını minimuma endirirdi.

Bu vəziyyətdən fayda əldə edənlər isə əsasən regiondan kənarda yerləşən böyük güclər idi. Həll olunmamış münaqişə onlara həm Bakı, həm də İrəvan üzərində əlavə təsir imkanları yaradırdı. Münaqişə mövcud olduqca, tərəflər beynəlxalq vasitəçilərin dəstəyinə ehtiyac duyur, bu isə xarici aktorların bölgədəki siyasi çəkisini artırırdı. Çox maraqlıdır ki, Minsk qrupunun həmsədrləri olan ABŞ, Rusiya və Fransa bir çox məsələlərdə bir-biri ilə rəqabət aparsalar da, Qarabağ münaqişəsi ətrafında formalaşmış status-kvonun uzun müddət dəyişməməsi onların maraqlarının üst-üstə düşdüyü məqam idi. Müxtəlif dövrlərdə fərqli təşəbbüslər irəli sürülsə də, onların heç biri son nəticəyə gətirib çıxarmadı. Nəticədə danışıqlar prosesi illərlə davam edən, lakin konkret nəticə verməyən bir mexanizmə çevrildi. Xüsusilə diqqətçəkən məqam ondan ibarətdir ki, 2020-ci ildə baş verən İkinci Qarabağ müharibəsi və sonrakı hadisələr regionda tamamilə yeni reallıq yaratdı. Onilliklər ərzində həll olunmayan məsələlərin böyük hissəsi məhz həmin proseslərin nəticəsində dəyişdi. Bu fakt da bir çox müşahidəçilərdə belə qənaət formalaşdırdı ki, əvvəlki vasitəçilik mexanizmləri münaqişənin aradan qaldırılması istiqamətində kifayət qədər təsirli olmayıb.

Paşinyanın açıqlamasının diqqətçəkən tərəflərindən biri də Ermənistan rəhbərliyinin son illərdə keçmişə fərqli prizmadan baxmağa başlamasıdır. Bir vaxtlar Ermənistan siyasi dairələrində Minsk qrupuna böyük ümidlər bəslənirdisə, indi həmin mexanizmin fəaliyyətinə daha tənqidi münasibət nümayiş etdirilir. Bu dəyişiklik təkcə siyasi mövqe dəyişikliyi deyil, həm də regionda yaranmış yeni geosiyasi şəraitin nəticəsidir.

Bu gün həm Azərbaycan, həm də Ermənistan üçün əsas məsələ keçmiş münaqişənin yaratdığı problemləri aradan




qaldırmaq, sərhədlərin müəyyənləşdirilməsi, nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası və sülh sazişinin imzalanması istiqamətində irəliləməkdir. Regionun gələcəyi yeni qarşıdurmalarda deyil, əməkdaşlıq imkanlarının genişləndirilməsində görünür. Məhz bu baxımdan Paşinyanın Minsk qrupu ilə bağlı səsləndirdiyi fikirlər təkcə keçmişə verilən qiymət deyil. Bu, həm də uzun illər davam edən və nəticə verməyən vasitəçilik modelinə yönəlmiş siyasi mesajdır. Son 30 ilin təcrübəsi göstərdi ki, münaqişənin uzanması tərəflərə yalnız itkilər gətirib. Əvəzində bölgədən kənar güclər təsir imkanlarını qoruyub saxlayıblar. Buna görə də Paşinyanın diqqət çəkdiyi məqam, müəyyən mənada region xalqlarının illərlə yaşadığı reallığın etirafı kimi də qiymətləndirilə bilər. Cənubi Qafqazın davamlı sabitliyə nail olması üçün isə keçmişin uğursuz təcrübələrindən nəticə çıxarmaq və problemlərin həllini kənar güclərin maraqlarına deyil, region ölkələrinin ehtiyaclarına uyğun şəkildə qurmaq vacib görünür.

**Politoloq Ramiyə Məmmədova XQ-yə açıqlamasında bildirdi ki,** Paşinyanın ATƏT-in keçmiş Minsk qrupu ilə bağlı səsləndirdiyi fikirlər təsadüfi deyil və son illər Ermənistanda formalaşan yeni yanaşmanın davamı kimi qiymətləndirilməlidir. Onun sözlərinə görə, uzun illər ərzində fəaliyyət göstərən vasitəçilik mexanizminin yekun nəticələrinə baxdıqda, münaqişənin həllinə deyil, idarə olunan vəziyyətdə saxlanılmasına üstünlük verildiyi barədə qənaətlərin yaranması təbiidir. Ekspert qeyd etdi ki, vasitəçi ölkələr müxtəlif dövrlərdə sülh təşəbbüsləri ilə çıxış etsələr də, prosesin yekun mərhələyə çatdırılması istiqamətində kifayət qədər siyasi iradə nümayiş etdirməyiblər: "Nəticədə danışıqlar illərlə davam etdi, lakin əsas məsələlər açıq qaldı. Bu isə həm Azərbaycanda, həm də Ermənistanda vasitəçilik institutlarına inamın zəifləməsinə səbəb oldu".



R.Məmmədova vurğuladı ki, bu gün regionda tamamilə yeni reallıq formalaşıb və keçmiş mexanizmlərin fəaliyyətinə daha tənqidi yanaşılması təbiidir. Onun qənaətinə görə, Cənubi Qafqazın gələcəyi artıq uzunmüddətli geosiyasi rəqabət meydanı olmaqda deyil, ölkələrin birbaşa dialoq və qarşılıqlı maraqlar əsasında münasibətlər qurmasındadır. Paşinyanın son açıqlaması da məhz bu dəyişən baxışın siyasi ifadəsi kimi dəyərləndirilə bilər.

***Səxavət HƏMİD***
***XQ***

# Milli Məclisin iclası



## *Parlamentin növbədənkənar sessiyasında önəmli qanun layihələri müzakirə edildi*

**İyunun 5-də Milli Məclisin növbədənkənar sessiyası keçirildi. Sessiya parlamentin sədri Sahibə Qafarovanın hesabat xarakterli giriş nitqi ilə başladı. Spiker çıxışında deputatlara 1–3 iyun tarixlərində Serbiyaya işgüzar səfəri barədə məlumat verdi. O bildirdi ki, səfərin əsas məqsədi Parlamentlərarası İttifaqın Qadın Parlamentarilərin Qlobal Konfransında iştirak olub.**

Daha sonra bəzi deputatlar cari məsələlər ətrafında müxtəlif fikirlər səsləndirdilər. Millət vəkili Vüqar Bayramov qeyd etdi ki, "Bakı Enerji Həftəsi" çərçivəsində Azərbaycanla ABŞ arasında imzalanan 7,5 milyard dollarlıq anlaşmalar iki ölkə münasibətlərinin enerji əməkdaşlığından strateji texnoloji tərəfdaşlığa keçdiyini göstərir. Onun sözlərinə görə, Azərbaycan bu həftə regionun ən böyük enerji platformalarından biri olan Bakı Enerji Həftəsinə ev sahibliyi edib və tədbirdə səsləndirilən mesajlar ölkənin yeni iqtisadi prioritetlərini ortaya qoyub: "İmzalanan 7,5 milyard dollarlıq müqavilələr göstərir ki, münasibətlər artıq yalnız enerji sektorunu əhatə etmir. Burada yüksək texnologiyalar, innovasiya, rəqəmsal iqtisadiyyat və süni intellekt istiqamətləri də ön plana çıxır. Bu ilin ilk rübündə Azərbaycanla ABŞ arasında ticarət dövriyyəsi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,2 dəfə artaraq 296 milyon dollara yüksəlib. Bu, strateji tərəfdaşlığın iqtisadi əlaqələrə də təsir etdiyini göstərir".

Deputat Əziz Ələkbərli çıxışında tarixi toponimlərin qorunması və onların düzgün adlandırılmasının hüquqi tərəflərinə toxundu. O, bəzi coğrafi adların saxtalaşdırılmış formada işlədilməsinin heç bir hüquqi əsası olmadığını bildirərək, bu məsələyə yenidən baxılmasını tələb etdi: "Belə toponimlərdən biri İrəvan, digəri isə Tiflis şəhərlərinin



adlarıdır. Bütün elmi ədəbiyyatlarda ümumi şəkildə deyilir ki, 1936-cı ildə İrəvan şəhərinin adı dəyişdirilərək Yerevan qoyulub. Mən Azərbaycan tarixşünaslığında bu məsələyə dəqiqlik gətirmək istəyirəm". Deputat media nümayəndələrinə müraciət edərək tarixi toponimlərin istifadəsinə daha çox diqqət yetirməyə çağırdı: "1936-cı il avqustun 17-də SSRİ Mərkəzi İcraiyyə Komitəsinin qəbul etdiyi "Yaşayış məntəqələrinin adlarının düzgün yazılışı haqqında" qərarı bu gün media nümayəndələrinə paylayacağam və onlardan toponimlərimizin qərarda təsbit olunan variantda yazılışına əməl etməyi xahiş edirəm. Gəlin bütün müstəvilərdə dilimizin saflığını qoruyaq".

***

Çıxışların ardınca gündəlikdə duran məsələlərin müzakirəsinə keçid edildi. İlk olaraq "Diplomatik xidmət haqqında" layihə üçüncü oxunuşa təqdim edildi. Layihəyə əsasən, diplomatlara pensiyaya çıxarkən ya son 24 ayda, ya da istənilən ardıcıl 60 ayda aldıqları orta aylıq maaş əsasında hesablanan məbləğin 6 misli həcmində birdəfəlik ödəniş veriləcək. Həmçinin, diplomatik xidmətə müddətli həqiqi hərbi və ya alternativ xidmətə çağırılma ilə xitam verildikdə əməkdaşa orta aylıq dövlət məvacibinin 3 misli həcmində müavinət ödəniləcək. Aparılan müzakirələrdən sonra layihə səsverməyə qoyularaq sonuncu oxunuşdan da uğurla keçdi.

Paralel olaraq, "Dövlət qulluğu haqqında" qanuna dəyişiklik layihəsi birinci oxunuşda qəbul edildi. Azərbaycandakı struktur və idarəetmə islahatlarının tərkib hissəsi olaraq Naxçıvanda idarəçilik modelini təkmilləşdirmək məqsədilə hazırlanan layihəyə əsasən, Naxçıvan Muxtar Respublikasında (MR) Prezidentin səlahiyyətli nümayəndəliyi 1-ci kateqoriya dövlət orqanı statusu alacaq. Bu qurum birbaşa dövlət başçısına tabe olan və onun təyin etdiyi səlahiyyətli nümayəndə tərəfindən idarə edilən, Naxçıvan ərazisində Prezidentin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanıdır. Yeni dəyişikliklərlə səlahiyyətli nümayəndə və onun müavinləri inzibati vəzifələr təsnifatından çıxarıldığı üçün "Dövlət qulluğu haqqında" qanun artıq onlara şamil olunmayacaq və onların əməyinin ödəniş pilləsi xidmət illəri nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcək; nümayəndənin köməkçisi vəzifəsi isə üçüncü təsnifat vəzifələr siyahısına daxil ediləcək.

Cinayət-Prosessual Məcəlləsinə təklif edilən düzəlişlərə əsasən, böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məlumat daxil olduğu vaxtdan məhkəməyədək sadələşdirilmiş icraatın açılma müddəti 24 saatdan 48 saata qədər uzadılır. Eyni zamanda, bu icraat şəklində təhqiqatın aparılma müddəti də 10 gündən 30 günə qaldırılır. Sənəddə diqqətçəkən digər məqam qanunvericiliyin bəzi maddələrindəki "şikayət" sözünün "məlumat" ifadəsi ilə əvəzlənməsidir ki, bu da vətəndaşların niyyətinin hər zaman şikayət yox, sadəcə, baş vermiş hadisə barədə hüquq-mühafizə orqanlarını məlumatlandırmaq ola biləcəyi reallığı ilə əsaslandırıldı. Bundan başqa, hüquqi şəxslərin də cinayət hadisəsi barədə məlumat vermək imkanları nəzərə alınaraq, həm ilkin müraciət sənədlərində, həm də icraatın yekun protokolunda həmin şirkət və ya təşkilatın adının, ünvanının və VÖEN-inin göstərilməsi tələbi layihədə xüsusi yer alıb. Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İclasda müzakirəyə çıxarılan digər əhəmiyyətli sənəd – Cinayət-Prosessual Məcəlləsinə təklif olunan növbəti dəyişiklik layihəsi də birinci oxunuşda dəstəkləndi. Təklif olunan yeni düzəlişlərə əsasən, cinayət mühakimə icraatı çərçivəsində əmlak üzərinə həbs qoyulması barədə qərarlar artıq mülki mühakimə icraatında deyil, daha çevik və operativ həll imkanı yaradan məhkəmə nəzarəti qaydasında mübahisələndiriləcək ki, bu da gələcəkdə məhkəmə qərarlarının preyudisial (əvvəllər müəyyən edilmiş faktların birdəfəlik qəbul olunması) əhəmiyyəti ilə bağlı mübahisələrin qarşısını alacaq. Məcəlləyə əlavə edilən yeni maddə ilə təqsirləndirilən şəxs olmayan, lakin əmlakına həbs qoyulması ilə qanuni mənafeyinə toxunulan üçüncü şəxslər rəsmən cinayət prosesinin iştirakçısı statusunu alırlar. Bununla da həmin şəxslərə prosesə cəlb olunaraq öz hüquqlarını qorumaq üçün apellyasiya, kassasiya və əlavə kassasiya şikayətləri vermək hüququ tanınır.

Gündəlikdəki digər mövzu İnzibati Xətalar Məcəlləsinə düzəlişlər isə birbaşa yaşıllıqların mühafizəsi sahəsində nəzarətin gücləndirilməsindən bəhs edir. Yeni qaydalara əsasən, barəsində məlumatlandırma icraatı tətbiq edilən kolların kəsilməsi ilə bağlı yalan və ya təhrif olunmuş məlumat verən şəxsləri ciddi sanksiyalar gözləyir. Bu xətaya görə fiziki şəxslərin 500 manat, vəzifəli şəxslərin 3000 manat, hüquqi şəxslərin isə 5000 manat miqdarında cərimə olunması müəyyənləşdirildi. Qanun layihəsi müzakirələrdən sonra səsə qoyularaq ikinci oxunuşda qəbul edildi. Bununla da parlamentin növbədənkənar sessiyası başa çatdı.

***Tacir SADIQOV***
***XQ***

# İkili standartların kölgəsində qalan həqiqətlər

## *Regional münaqişələrin həllində beynəlxalq vasitəçilərin şübhəli rolu*

**Cənubi Qafqaz regionunda cərəyan edən son siyasi proseslər, Ermənistanda 7 iyun tarixində keçirilməsi planlaşdırılan parlament seçkiləri ərəfəsində Qərbin nümayiş etdirdiyi mövqe beynəlxalq qurumların riyakarlığını bariz şəkildə nümayiş etdirir. Demokratik təsisatların fəaliyyətini tənzimləyən beynəlxalq missiyaların tərəfkeşliyi, daxili siyasi proseslərə açıq müdaxilələr və pozuntulara qarşı sərgilənən sükut qlobal geosiyasi maraqlara xidmət edən amil olduğunu təsdiqləyir. Ermənistandakı vəziyyət hakimiyyətin bütün inzibati resursları səfərbər etdiyini aşkar şəkildə göstərir.**




Dövlət aparatının, hüquq-mühafizə orqanlarının və maliyyə rıçaqlarının hakim partiyanın xeyrinə istifadə olunması seçki rəqabətinin bərabər şərtlərlə aparılmadığına dəlalət edir. Siyasi rəqiblərin sıxışdırılması, müxalif namizədlərin fəaliyyətinə süni maneələrin yaradılması və dövlət büdcəsindən maliyyələşən layihələrin bilavasitə təbliğat məqsədilə yönləndirilməsi ölkədəki real mənzərəni xarakterizə edən amillərdəndir. Normal şəraitdə Qərbin müvafiq institutları belə halları dərhal kəskin tənqid atəşinə tutar, hesabatlarında demokratik geriləmə kimi qiymətləndirərdi. Lakin ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, Avropa Şurası Parlament Assambleyası və Avropa Parlamentinin seçki missiyaları Ermənistan rəhbərliyinin qanunsuz addımlarına qarşı lal sükut nümayiş etdirirlər. Həmin təşkilatların hesabatlarında Ermənistanın "demokratiya adası" kimi qələmə verilməsi cəhdləri, əslində, siyasi konyunkturaya uyğun olaraq reallığın təhrif edilməsindən başqa şey deyil.

***

Seçki kampaniyası dövründə diqqətçəkən əsas neqativ tendensiya seçicilərin səslərinin maddi vəsait müqabilində satın alınması təcrübəsidir. Regional səviyyədə səsvermə hüququ olan vətəndaşların səsini əldə etmək üçün təklif olunan məbləğ 10 – 25 dollar arasında dəyişir. Maraqlı məqam ondan ibarətdir ki, qanunsuz maliyyələşmə prosesini rəqabətdə olan tərəflərin hər ikisi həyata keçirir. Qərb dövlətləri yerlərdə səs toplamaq, rəyi manipulyasiya etmək məqsədilə Ermənistandakı qeyri-hökumət təşkilatlarına irihəcmli qrantlar və maliyyə yardımları paylayır. Paralel olaraq, Rusiyaya yaxınlığı ilə tanınan biznesmen Samvel Karapetyan da eyni metoddan istifadə edərək rəhbərlik etdiyi siyasi qüvvənin mövqelərini möhkəmləndirməyə çalışır. İki qütb arasında yeganə fərq səsvermə rüşvətinin paylanma formasındadır. Tərəflərdən üstün olan Qərb qanadı lazımi maliyyəni avro ilə, Rusiyayönümlü qanad isə rublla təqdim edir.

Seçici səslərinin pulla satın alınması sahəsində maliyyə transaksiyalarının həyata keçirilmə yolları hər iki geosiyasi qütbün daxili seçki prosesinə təsir göstərmək üçün oxşar üsullardan yararlandığını təsdiqləyir. "Güclü Ermənistan" partiyasının rəhbərliyi tərəfindən həyata keçirilən layihələr xeyriyyəçilik adı altında vətəndaşlara maddi yardımların təqdim edilməsi və hətta Rusiya bank kartları vasitəsilə maliyyə köçürmələrinin planlaşdırılması faktları istintaq materiallarında yer alıb. Lakin ədalətli məhkəmə prinsipinə uyğun qiymətləndirmə aparmaq əvəzinə, rəsmi qurumların yalnız rəqib tərəfə sərt tətbiqlər etməsi prosesin qərəzliliyini nümayiş etdirir. Qərb fondlarından gələn maliyyə axınlarının şəffaflığı heç vaxt ciddi yoxlanılmır, əksinə, həmin vəsaitlər daxili siyasi mühitdə legitim dəstək kimi qəbul olunur.

Siyasi arenada təzyiq metodlarının tətbiqi Ermənistan hakimiyyətinin seçkiqabağı dövrdə tez-tez müraciət etdiyi üsullardandır. Hökumət rəqib namizədlərə və fəal seçicilərə qarşı inzibati cəza tədbirlərindən geniş şəkildə yararlanır. Müxalifət partiyalarının funksionerlərinin əsassız ittihamlarla həbs edilməsi, səsvermə prosesində iştirak etmək niyyətində olan müxalifyönümlü şəxslərin fəaliyyətlərinin məhdudlaşdırılması ölkədə qorxu mühitinin formalaşmasına xidmət edir. Hökumət müxtəlif dövlət müəssisələrində çalışan işçilərə hədə-qorxu gələrək, onları hakim partiyanın namizədini dəstəkləməyə məcbur edir. Beynəlxalq müşahidəçilər digər Şərq tərəfdaşlığı ölkələrində baş verən ən kiçik inzibati təzyiqi belə qlobal qalmaqala çevirdikləri halda, İrəvanın daxili siyasi repressiyalarına kar və kor kimidirlər.

***

Xaricdən səsverməyə gələn vətəndaşlara qarşı tətbiq edilən inzibati metodlar isə seçki tarixinin ən qeyri-adi təzyiq üsullarındandır. Rusiya Federasiyası ərazisində müvəqqəti və ya daimi yaşayan, seçkilərdə iştirak etmək niyyəti ilə Ermənistana qayıdan çoxsaylı vətəndaşlar İrəvanın Zvartnots beynəlxalq hava limanında hərbi polis tərəfindən saxlanılır. Həmin şəxslərə sərhəd nəzarətindən keçən kimi dərhal 25 günlük hərbi toplanışa cəlbedilmə haqqında rəsmi çağırış vərəqələri təqdim olunur. Eyni qayda quru sərhəd məntəqələrində də tətbiq edilir. Hərbi uçota alınma və dərhal ordu sıralarına toplanışa göndərilmə təhlükəsi xaricdən gələn seçicilərin səsvermədə sərbəst iştirakına mane olmaq məqsədilə qabaqcadan planlaşdırılan siyasi hədə-qorxu vasitəsidir. Bu üsulla hakim partiya Rusiyadan gələn və müxalifət partiyalarını dəstəkləmək ehtimalı yüksək olan seçici kütləsinin ölkəyə daxil olmasının qarşısını almağa çalışır. Hərbi mükəlləfiyyətdən boyunqaçırma ittihamı ilə cinayət məsuliyyətinə cəlbedilmə hədəsi vətəndaşları qorxutmaq və onların səsvermə prosesində iştirakına mane olmaq üçün istifadə edilir.

Seçki kampaniyasına beynəlxalq müdaxilənin ən bariz nümunələrindən digəri Qərb dairələrinin müəyyən namizədin lehinə açıq şəkildə təbliğat aparmasıdır. 4 may tarixində İrəvanda keçirilən Avropa Siyasi Platformasının 8-ci Zirvə toplantısı məhz indiki iqtidarın mövqelərini gücləndirməyə xidmət etdi. Avropanın aparıcı dövlət rəhbərlərinin seçkilərə qısa müddət qalmış Ermənistan paytaxtına toplaşması, qlobal media qarşısında rəhbərliyə verilən ortaq dəstək bəyanatları daxili auditoriyaya yönələn aşkar mesaj xarakteri daşıyırdı. Beynəlxalq tədbirin məhz səsvermə ərəfəsində İrəvanda təşkil olunması siyasi nöqteyi-nəzərdən təsadüfi hesab edilə bilməz. Həmin addım Qərbin hazırkı Ermənistan hakimiyyəti üçün siyasi çətir rolunu oynadığını və fərqli qüvvələrin rəhbərliyə gəlməsini istəmədiyini göstərən bilavasitə müdaxilə faktıdır.

***

Qərbin demokratik institutlarının susqunluğu siyasi tərəfkeşliyin göstəricisidir. ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu kimi təşkilatlar digər postsovet ölkələrində keçirilən səsvermə proseslərini xırda detallarına qədər araşdırır, dərhal mənfi rəylər hazırlayır. Lakin Ermənistanda baş verən aşkar hüquq pozuntuları, səslərin pulla alınması halları, hava limanlarında seçicilərə hərbi polisin təzyiqi bu qurumların hesabatlarına daxil edilmir. AŞPA və Avropa Parlamentinin seçki missiyaları da analoji mövqedən çıxış edir. Onların təqdim etdiyi bəyanatlarda Ermənistanda seçki prosesinin "beynəlxalq standartlara uyğun gəldiyi" iddia olunur. Belə aşkar tərəfkeşlik göstərir ki, Qərbin qiymətləndirmə meyarları obyektiv hüquqi prinsiplərə deyil, geosiyasi müttəfiqlərin maraqlarına əsaslanır. Ermənistanda parlament seçkiləri ərəfəsində cərəyan edən hadisələr beynəlxalq münasibətlər sistemindəki geosiyasi riyakarlığın kədərli mənzərəsini tamamlayır. Qərb dövlətləri və onların nəzarətində olan seçki missiyaları Ermənistan daxilindəki inzibati təzyiqləri, səslərin pulla satın alınmasını, müxalifət fəallarının həbsini və hava limanlarında seçicilərə qarşı tətbiq edilən hərbi polisin zorakılığını tamamilə görməzdən gəlir. Avropa Siyasi Platformasının 8-ci Zirvə toplantısının məhz seçki ərəfəsində İrəvanda təşkil edilməsi Qərbin daxili siyasətə bilavasitə müdaxilə etdiyini təsdiqləyir. Digər tərəfdən, Şimal qonşunun daxili siyasi prosesləri təsir altında saxlamaq cəhdləri qarşıdurmanı daha da gərginləşdirir. Beləliklə, ikitərəfli təzyiqlər fonunda azad seçki prinsipləri tamamilə sıradan çıxıb. Qərbin demokratik nəzarət mexanizmlərinin sərgilədiyi qərəzli mövqe göstərir ki, demokratiya beynəlxalq münasibətlərdə yalnız qlobal güclərin maraqlarını təmin edən vasitədir. Siyasi praqmatizmin sivil dəyərləri üstələməsi Cənubi Qafqazda real inkişafa və sabitliyə xidmət etmir, əksinə, gələcək qarşıdurmalar üçün zəmin hazırlayır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Bakı ekoloji diplomatiya mərkəzidir

**Qlobal iqlim dəyişikliyi ilə mübarizənin ön cəbhəsinə keçən Azərbaycan beynəlxalq ekoloji diplomatiyanın mərkəzinə çevrilməkdədir. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) ilə sıx tərəfdaşlıq çərçivəsində Bakının Ümumdünya Ətraf Mühit Gününə (WED) ev sahibliyi etməsi bu uğurlu yolun növbəti parlaq səhifəsidir. Təbiətin harayına səs vermək, planetimizi qorumaq üçün paytaxtımız yenidən bəşəriyyətin ortaq düşüncə platformasına çevrilir.**




real əməllərlə sübut olunan strategiyadır. “Ağıllı kənd” və “Ağıllı şəhər” layihələri alternativ enerji mənbələrindən istifadə, tullantıların idarə edilməsi müasir standartlara uyğun qurulur. Kəlbəcər və Laçındakı hidroelektrik stansiyalar (HES), Cəbrayıldakı günəş enerjisi layihələri bölgəni tamamilə ekoloji təmiz enerji ilə təmin etmək hədəfinə xidmət edir. İşğaldan azad edilmiş ərazilərdə yüzlərlə hektar sahədə yeni meşə zolaqları salınır, çayların ekoloji mühiti bərpa olunur.

### Bakı “Yaşıl paytaxt”a çevrilir

Ümumdünya Ətraf Mühit Gününə ev sahibliyi edən Bakı, bu gün həm də öz daxili ekoloji simasını sürətlə dəyişir. Reallaşdırılan irimiqyaslı layihələrlə ölkəmiz yeni nəfəs alır. Böyükşor gölünün bərpası kimi lahiyələrlə reabilitasiyanın növbəti mərhələləri icra olunur, yeni parklar salınır. Şəhər nəqliyyatında elektrikli avtobusların (elektrobusların) payı sürətlə artırılır, mikromobillik (velosiped və skuter yolları) təşviq edilir. “Yaşıl marafon” və ağacəkmə kimi aksiyalar, yürüşlər reallaşdırılır. Bütün bunlar Azərbaycanın gələcək nəsillərə daha təmiz, daha yaşıl və yaşana bilən bir dünya qoymaq fəlsəfəsinin təzahürüdür.

### COP29-dan WUF13-ə – qlobal təşəbbüslərin mərkəzi

Azərbaycanın son dövrlərdə qazandığı ən böyük diplomatik və ekoloji uğurlardan biri, şübhəsiz ki, COP29 kimi mötəbər bir iqlim sammitinə ev sahibliyi etməsi oldu. Bu nəhəng tədbir Bakını qlobal yaşıl siyasətin ürəyinə çevirdi. COP29 planetin iqlim böhranı ilə mübarizə tarixinə konkret və tarixi uğurlarla adını yazdırdı: Bakı sammitinin ən böyük qlobal tarixi uğuru iqlim maliyyəsi üzrə əldə edilən konsensus oldu.

İnkişaf etməkdə olan və iqlim dəyişikliyindən ən çox əziyyət çəkən ölkələrə dəstək məqsədilə 2035-ci ilə qədər 300 milyard dollar həcmində qlobal iqlim maliyyəsinin səfərbər olunması barədə tarixi razılaşma məhz Bakıda əldə edildi. Lakin ölkəmiz bununla da kifayətlənmədi. Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) uğurlu ev sahibliyimiz bir daha bütün dünyanı əmin etdi ki, ölkəmiz bu məsuliyyəti missiyanı sona qədər, uğurla daşıyacaq. Bakıda 57 mindən çox iştirakçını birləşdirən bu forum, ölkəmizin həm paytaxt, həm də regionlar səviyyəsində şəhərsalma strategiyasını kökündən gücləndirdi.

Forumda tarixi sənəd – “Bakı Fəaliyyət Çağırışı” məhz Bakıda qəbul olundu. Dünyada kəskinləşən yaşayış sahəsi böhranına qarşı yönələn bu çağırış, təhlükəsiz, dayanıqlı və iqlim dəyişikliyinə davamlı mənzil təminatını qlobal inklüziv inkişafın hərəkətverici qüvvəsi elan etdi.

### Qarabağ və Şərqi Zəngəzur: sıfır emissiyalı yaşıl zona

Azərbaycanın ekoloji strategiyasının ən qürurverici və genişmiqyaslı qolu işğaldan azad edilmiş torpaqlarımızda həyata keçirilir. 30 ilə yaxın müddətdə ekosidə məruz qalan, meşələri qırılan və su mənbələri çirkləndirilən Qarabağ və Şərqi Zəngəzur bu gün böyük bir ekoloji renesans dövrünü yaşayır. Dövlətimizin başçısı tərəfindən işğaldan azad edilmiş ərazilərin “Yaşıl enerji zonası” elan edilməsi

***Ekspert rəyi***



**Qorxmaz İBRAHİMLİ, “Biosfer” İctimai Birliyinin sədri, ekoloq**

Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) ilə tərəfdaşlıq çərçivəsində Bakıda Ümumdünya Ətraf Mühit Gününə (WED) ev sahibliyi etməsi ölkəmizin ekoloji gündəliyə verdiyi önəmin bariz göstəricisidir. Bu əlamətdar təşəbbüs Azərbaycanın ətraf mühitin qorunması, dayanıqlı inkişafın təşviqi və ekoloji maarifləndirmənin gücləndirilməsi istiqamətində beynəlxalq əməkdaşlığa açıq və məsuliyyətli mövqe nümayiş etdirdiyini bir daha ortaya qoyur.

Uzun illər ölkəmizin Sovet imperiyasının işğalı altında qalması, Qarabağ və Şərqi Zəngəzurun ermənilər tərəfindən qəsb edilməsi ölkə ərazisinin amansız istismarına səbəb olub. Məlum olduğu kimi, bu gün “Ağ şəhər” adlanan ərazi vaxtilə “Qara şəhər” kimi tanınırdı. Bunun üçün Azərbaycan dövləti böyük investisiyalar yatırıb, ərazinin sənaye tullantılarından və radioaktiv maddələrdən təmizlənməsi istiqamətində genişmiqyaslı işlər həyata keçirib. Bu gün də həmin fəaliyyət ardıcıl şəkildə davam etdirilir.

Bu problemin həlli məqsədilə Azərbaycan dövləti məişət tullantılarının emalı üzrə müasir zavodlar inşa edib və bunun nəticəsində xeyli miqdarda tullantının təkrar emalı mümkün olub. Lakin məsələ yalnız tullantıların yığılması və emalı ilə məhdudlaşmır. Eyni zamanda, ekoloji maarifləndirmənin gücləndirilməsi, dəniz və sahilboyu ərazilərin təmiz saxlanılması, park və bağlarda təmizlik mədəniyyətinin formalaşdırılması, “Təmiz şəhər” və “Təmiz dünya” kimi təşəbbüslərin təşviqi mühüm əhəmiyyət daşıyır.

Əlimizdəki tullantını düzgün yerə atmaq vərdişi evimizdə təmizliyə riayət etmək qədər təbii qəbul olunmalıdır. Bunun üçün insanların düşüncə tərzində ciddi dəyişikliklər baş verməlidir. Həyata keçirilən hər bir layihə bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Məişət tullantılarının çeşidlənməsi və təkrar emalı da vacib istiqamətlərdən biridir.

Ümid edirəm ki, gələcəkdə bu sahədə qanunvericilik bazası daha da təkmilləşdiriləcək. Xüsusilə istifadə olunmuş batareyaların ətraf mühitə atılması ciddi təhlükə yaradır. Saat, tərəzi və digər məişət avadanlıqlarında istifadə olunan batareyalar xüsusi qaydada toplanmalı və emala göndərilməlidir. Dünyanın bir çox ölkəsində bu istiqamətdə uğurlu təcrübə mövcuddur.

***Nurlu ABDALOV***
***XQ***

---

**Bu il “Abşeron” qaz-kondensat yatağının tammiqyaslı işlənməsinə başlanması planlaşdırılır. Artıq yatağın ikinci mərhələsi üzrə layihələndirmə işləri tamamlanıb. Bu fikirləri “TotalEnergies” şirkətinin Azərbaycan üzrə rəhbəri Emmanuel de Guillebon Bakı Enerji Forumunun “Yuxarı axın sektoru – Yeni üfüqlər” adlı sessiyasında çıxışı zamanı səsləndirib.**

# “Abşeron” yatağının tam işlənməsinə hazırlıq

## *Layihədə 12,7 milyon kubmetr qaz hasilatı nəzərdə tutulur*

İki il əvvəl istismara verilmiş “Abşeron” yatağının ilkin hasilat mərhələsinin uğurlu nəticələr verdiyini bildirən şirkət rəsmisinin sözlərinə görə, əldə edilən müsbət nəticələr ikinci mərhələyə başlamaq üçün lazım olan bütün məlumatları toplamağa və layihəyə başlamağa inam verib. Emmanuel de Guillebon qeyd edib ki, “TotalEnergies” son 3 ildə layihəsi adlandırıb. O, Bakı Enerji Forumu çərçivəsində keçirilən “Upstream – yeni perspektivlər” adlı sessiyada çıxışı zamanı deyib ki, yeni inkişaf layihələrindən danışarkən “Abşeron” layihəsini xüsusi qeyd etməmək mümkün deyil. Şirkət rəsmisinin sözlərinə görə, bu layihə çərçivəsində əsas məqsədlər ilk qazın hasilatını sürətləndir-



layihə üzrə tərəfdaşları olan SOCAR və XRG ilə birlikdə ikinci mərhələnin texniki-iqtisadi əsaslandırılması üzərində işləyib: “Hazırda bütün əsas müqavilələr üzrə tender mərhələsindəyik və ilin sonuna qədər layihənin icra mərhələsinə başlamağı planlaşdırırıq”.

Son illərdə aparılan seysmik tədqiqatların “Abşeron” yatağının daha yaxşı öyrənilməsinə imkan verdiyini bildirən “TotalEnergies”in Azərbaycan üzrə rəhbərinin sözlərinə görə, ikinci mərhələ çərçivəsində hər birinin gündəlik hasilat gücü 40 min barel neft ekvivalenti olan 3 yeni quyu qazılacaq. Ümumi hasilatın isə, təxminən, 70 faizini qaz, 30 faizini kondensat təşkil edəcək. Diqqətə çatdırılıb ki, layihə çərçivəsində quyular sahillə 140 kilometrlik sualtı boru xətti ilə birləşdiriləcək və hasilat platforması qurulmadan birbaşa sahilə nəql olunacaq.

Emmanuel de Guillebon onu da bildirib ki, şirkət boru kəməri və emal qurğularının tam yüklənməsini təmin etmək məqsədilə əlavə hasilat imkanlarını araşdırır. Bu məqsədlə hazırda tərəfdaşlar yataqda əlavə quyuların qazılması imkanlarını nəzərdən keçirir. “Abşeron” çox böyük yataqdır. SOCAR və XRG ilə birlikdə yeni imkanlar üzərində işləyirik. Yatağın şərq hissəsində əlavə potensial görürük”, – deyə o əlavə edib.

Sahildə qazın emalı və sıxılması üçün qurğular inşa ediləcəyini bildirən Emmanuel de Guillebon “Abşeron” qaz-kondensat yatağının ikinci mərhələsi çərçivəsində hasil olunacaq kondensatın emalına gəldikdə isə, bu məqsədlə “Şahdəniz” layihəsinin mövcud infrastrukturundan istifadə ediləcəyini söyləyib. Onun sözlərinə görə, şirkət yeni emal qurğusuna investisiya qoymaq əvəzinə mövcud infrastrukturdan istifadə edəcək: “Biz kondensatın tam emalını öz obyektimizdə həyata keçirməyəcəyik. Kondensat son emal üçün “Şahdəniz” terminalına göndəriləcək. Bu, layihələr arasında sinerji yaradır və kapital xərclərini azaldır”.

Ümumilikdə, “Abşeron” yatağının ikinci mərhələsi çərçivəsində yaradılacaq infrastruktur gündəlik, təxminən, 12,7 milyon kubmetr qaz və 40 min barel kondensat emal etmək gücündə olacaq. Qazın bir hissəsi Türkiyəyə ixrac olunacaq, kondensat isə sabitləşdirildikdən sonra Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinə yönəldiləcək.

SOCAR-ın vitse-prezidenti Babək Hüseynov da “Abşeron”u Azərbaycan üçün strateji əhəmiyyətə malik iri qaz-kondensat mək, yatağın son bərpa əmsalını artırmaq, işlənmə konsepsiyalarını sadələşdirmək və ən əsası kapital intizamını qorumaqdır.

“Abşeron” layihəsinin digər səhmdarı Birləşmiş Ərəb Əmirliklərinin XRG şirkətinin Azərbaycan üzrə rəhbəri Tolqa Demir yatağın tammiqyaslı işlənməsi üzrə yekun investisiya qərarının yaxın aylarda veriləcəyini bildirib. O, Bakı Enerji Forumunun “Qaz bazarları: infrastruktur, strategiya və geosiyasət” adlı sessiyasında deyib ki, XRG, SOCAR və TotalEnergies “Abşeron” layihəsinin birinci mərhələsi çərçivəsində birlikdə gündəlik, təxminən, 4 milyon kubmetr qaz və 12 min barel kondensat hasil edirlər. Yatağın tammiqyaslı işlənməsi üzrə yekun investisiya qərarının yaxın aylarda qəbul ediləcəyini söyləyən şirkət rəsmisinin sözlərinə görə, bu mərhələ üzrə ilk qazın 2029-cu ilin avqustunda əldə olunması nəzərdə tutulur.

Qeyd edək ki, Xəzər dənizində, “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan cənub-qərbdə, dənizin 500 metr dərinliyində yerləşən “Abşeron” yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 100 milyon tona yaxın kondensat həcmində qiymətləndirilir. Elə bu zənginliyinə görə də “Abşeron” yatağının bir neçə mərhələdə işlənməsi planlaşdırılır.

Yatağın işlənməsinin birinci mərhələsində ildə 1,5 milyard kubmetr qaz və 750 min ton kondensat hasilatı nəzərdə tutulur. Növbəti işlənmə mərhələsi çərçivəsində isə burada illik hasilatın 4,5 milyard kubmetrə qədər artırılacağı gözlənilir. Bütövlükdə isə, yatağın istismarı Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının ödənilməsi ilə yanaşı, ölkəmizin ixrac potensialının artmasına da əhəmiyyətli töhfə verəcək.

“Abşeron” yatağının birinci işlənmə mərhələsi çərçivəsində hasilata 2023-cü ilin iyul ayında başlanılıb. Hazırda burada qaz və kondensat layihənin operatoru olan JOCAP tərəfindən idarə edilən yeganə dərin dəniz quyusundan çıxarılır. Bu mərhələ çərçivəsində hasil edilən bütün qaz Azərbaycanın daxili bazarına yönəldilir. Hasilata başlandığı vaxtdan indiyədək isə “Abşeron” yatağından, ümumilikdə, 4,5 milyard kubmetrdən çox təbii qaz və 1,65 milyon tona yaxın qaz kondensatı hasil edilib. Layihə üzrə tərəfdaşlar SOCAR (35 faiz), “TotalEnergies” (35 faiz) və XRG (30 faiz) şirkətləridir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

---

# “İcbari sığorta bürosu”nun beynəlxalq uğuru

**“İcbari sığorta bürosu” Hüquqi Şəxslərin İttifaqı (İSB) beynəlxalq sığorta sektorunda mühüm əhəmiyyət daşıyan Beynəlxalq Sığorta Zəmanət Fondları Forumuna tamhüquqlu üzv qəbul edilib. Bu barədə qərar 2026-cı il mayın 26-da qurumun İdarəetmə Komitəsinin iclasında İSB-nin üzvlük müraciətinə baxıldıqdan sonra qəbul olunub.**

Xatırladaq ki, Beynəlxalq Sığorta Zəmanət Fondları Forumu dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən sığorta zəmanət fondlarını və analoji qurumları bir araya gətirən nüfuzlu beynəlxalq platformadır. ABŞ, Böyük Britaniya, Kanada, Cənubi Koreya, Almaniya, Fransa, Avstraliya, Qazaxıstan və Türkiyə kimi nüfuzlu ölkələrin aidiyyəti qurumlarının təmsil olunduğu qurumun əsas məqsədi sığortalıların, sığorta olunanların, faydalanan şəxslərin və zərərçəkmiş üçüncü şəxslərin maraqlarının qorunması sahəsində təcrübə mübadiləsini təşviq etmək, sığorta zəmanət mexanizmlərinin institusional və praktiki inkişafını dəstək vermək, habelə üzv qurumlar arasında əməkdaşlığı gücləndirməkdir.

Eyni zamanda, forum sığortaçıların öhdəliklərini icra edə bilmədiyi, maliyyə çətinliyi ilə üzləşdiyi və ya müflisləşdiyi hallarda tətbiq olunan kompensasiya və zəmanət mexanizmləri üzrə qabaqcıl beynəlxalq təcrübənin paylaşılmasına və bu sahədə yanaşmaların təkmilləşdirilməsinə töhfə verir.

Beynəlxalq Sığorta Zəmanət Fondları Forumuna üzvlük “İcbari sığorta bürosu” üçün mühüm strateji əhəmiyyət daşıyır. Bu, Azərbaycanın sığorta təşkilatının beynəlxalq səviyyədə tanınmasının növbəti göstəricisi olmaqla yanaşı, quruma qabaqcıl beynəlxalq təcrübəyə çıxış imkanları yaradacaq, sığorta zəmanət mexanizmlərinin inkişafı istiqamətində əməkdaşlığı genişləndirəcək və Azərbaycan sığorta sektorunun beynəlxalq təşkilatlarda təmsilçiliyini daha da gücləndirəcək.

Eyni zamanda, üzvlük çərçivəsində metodologiya, hüquqi və institusional yanaşmalar, habelə riskların idarə olunması sahələrində yeni əməkdaşlıq imkanlarının formalaşması gözlənilir. Bu isə ölkədə sığorta sisteminin dayanıqlılığının artırılmasına, habelə sığortalıların və zərərçəkmiş şəxslərin maraqlarının daha effektiv qorunmasına xidmət edəcək.

“İcbari sığorta bürosu” beynəlxalq tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsi və sığorta sektorunun davamlı inkişafı istiqamətində fəaliyyətini bundan sonra da ardıcıl şəkildə davam etdirəcək.

***XQ***

---

# Vergi daxilolmaları artıb

**Bu ilin yanvar–may ayları ərzində Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 7 milyard 825,3 milyon manatdan çox vergi daxil olub. Bu da nəzərdə tutulduğundan 130,3 milyon manat çoxdur.**

Dövlət Vergi Xidmətinin məlumatına əsasən, bu ilin ilk 5 ayında qeyri-neft-qaz sektorundan vergi daxilolmaları 6 milyard 187,7 milyon manat təşkil edib və büdcəyə proqnozdan əlavə 109,7 milyon manat vəsait ödənilib. 2025-ci ilin müvafiq dövrünə nisbətən bu sektordan vergi daxilolmaları 471,5 milyon manat və ya 8,2 faiz artıb.

***XQ***




---

# Macarıstanla bank əməkdaşlığı

**Azərbaycan Mərkəzi Bankı (AMB) ilə Macarıstan Mərkəzi Bankı (MMB) arasında Anlaşma Memorandumu imzalanıb.**

AMB-nin İdarə Heyətinin sədri Taleh Kazımov “X” sosial şəbəkəsindəki hesabında bildirib ki, imzalanma Bakıda keçirilən “Türk Dövlətləri Təşkilatına üzv ölkələrin mərkəzi banklarının Şurası”nın ikinci toplantısı çərçivəsində baş tutub: “Toplantı çərçivəsində MMB-nin sədri Mixali Varqa ilə rəhbərlik etdiyimiz qurumlar arasında qarşılıqlı etimada əsaslanan əlaqələrin daha da dərinləşdirilməsi məqsədilə Anlaşma Memorandumu imzaladıq.

Memorandum çərçivəsində, monetar siyasət, bank nəzarəti, kapital bazarı, sığorta sektoru, ödəniş sistemləri və maliyyə texnologiyaları sahəsində qarşılıqlı məlumat mübadiləsi aparılacaq. Görüşlər, seminarlar, təcrübə mübadiləsi, təlim proqramları və işgüzar səfərlər vasitəsilə texniki əməkdaşlıq dərinləşdiriləcək”, - deyə sədr qeyd edib.



***XQ***

# Tarixi yaddaşın Dərbənd saxlancı

## *Qədim şəhərdə Azərbaycan dünyası*



**Müasir dünyanın mürəkkəb geosiyasi reallıqları şəraitində dövlətlərarası münasibətlərin davamlılığı siyasi və iqtisadi maraqlarla yanaşı, həm də xalqları bir-birinə bağlayan ortaq tarix, mədəniyyət, mənəvi dəyərlər, eləcə də humanitar əlaqələrlə də möhkəmlənir. Məhz buna görə də müasir beynəlxalq münasibətlər sistemində humanitar diplomatiya, təhsil əməkdaşlığı və mədəni əlaqələr strateji önəm daşıyır.**

Bu baxımdan Azərbaycan ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında formalaşmış əlaqələr xüsusi diqqət çəkir. İki xalqı birləşdirən tarixi köklər, mədəni yaxınlıq və qarşılıqlı hörmət münasibətləri bu gün də öz aktuallığını qoruyur. Xüsusilə qədim Dərbənd şəhəri Azərbaycan xalqının tarixi yaddaşında mühüm yer tutur.

Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialında dövlət imtahanlarının keçirilməsi ilə əlaqədar bu yaxınlarda həmin şəhərdə olarkən bu fikir bir daha öz təsdiqini tapdı. Səfərin əsas məqsədi vurğuladığım kimi, akademik proseslə bağlı olsa da, orada iştirak etdiyimiz görüşlər və müşahidələr şəhərin hazırda da ölkəmizlə sıx mənəvi bağlarını qoruyub saxladığını göstərdi.

Dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Dərbənd əsrlər boyu Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm mədəniyyət və ticarət mərkəzi kimi tanınıb. Burada müxtəlif xalqların və sivilizasiyaların izləri qorunub saxlanılsa da, Azərbaycan dili, mədəniyyəti və milli-mənəvi dəyərləri şəhərin ictimai həyatında özünəməxsus yer tutur. Küçələrdə, ailə ənənələrində, tarixi abidələrdə və gündəlik ünsiyyətdə ortaq irsimizin izlərini görmək mümkündür. Buna görə də Dərbəndə səfər edən hər bir azərbaycanlı burada yalnız qədim bir şəhəri deyil, həm də ortaq tariximizin canlı səhifələrindən xəbər tutur.

### Əsrlərdən gələn dostluq ənənəsi

Azərbaycan – Dağıstan münasibətlərinin möhkəm təməli uzun illər ərzində formalaşmış qarşılıqlı etimad və dostluq ənənələrinə söykənir. Bu əlaqələrin inkişafında görkəmli dövlət xadimi Əziz Əliyevin xidmətləri xüsusi yer tutur. O, səmərəli fəaliyyəti ilə iki xalq arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə mühüm töhfə verməsi, adının Dağıstan xalqının yaddaşında bu gün də dərin hörmətlə anılması qeyd edilən fikrin bariz ifadəsidir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev də ölkəyə rəhbərlik etdiyi illərdə qonşu xalqlarla mehriban münasibətlərin inkişafına hər zaman mühüm önəm verib. Dahi şəxsiyyətin fəaliyyətində humanitar əməkdaşlığın, iqtisadi əlaqələrin və qarşılıqlı etimadın möhkəmləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi daim diqqət çəkib. Məsələn, Ulu öndərin təşəbbüsü ilə Bakı-Dərbənd istiqamətində nəqliyyat əlaqələrinin genişləndirilməsi, o cümlədən qatarların fəaliyyətə başlaması xalqlar arasında gediş-gəlişin asanlaşmasına, iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsinə xidmət edib.

Heydər Əliyevin Dağıstanın ictimai-siyasi xadimləri ilə formalaşdırdığı münasibətlər də tərəflər arasında dostluğun möhkəm mənəvi təməllər üzərində qurulduğunu şərtləndirib. 2003-cü ildə Quba Olimpiya İdman Kompleksinin açılışında Dağıstan nümayəndə heyətinin iştirakı iki region arasında dostluğun parlaq nümunələrindən biri kimi yadda qalıb. Həmin mərasimdə o dövrdə Azərbaycan Respublikasının baş naziri kimi fəaliyyət göstərən İlham Əliyevin iştirakı və çıxışı böyük siyasi əhəmiyyət daşıyıb. Cənab İlham Əliyev Azərbaycan və Dağıstan xalqlarının tarixən bir-birinə dərindən bağlı olduğunu vurğulayaraq, bu münasibətlərin gələcəkdə daha da inkişaf etdiriləcəyini xüsusi vurulayıb. Həmin vaxtdan ötən müddət ərzində bu regionlar arasında əlaqələr davamlı şəkildə möhkəmlənib, dostluq və qardaşlıq əlaqələri getdikcə güclənib.

Dərbənd səfərinin yaddaqalan məqamlarından biri Azərbaycan Dövlət İqtisad Universitetinin bu şəhərdə yerləşən filialında fəaliyyət göstərən Heydər Əliyev Muzeyi ilə tanışlıq oldu. Burada Ümummilli liderin zəngin siyasi fəaliyyətini əks etdirən eksponatlar və sənədlər xüsusilə diqqət çəkdi. Filialın rektoru Qurban Səidoviç Qurbanov muzey haqqında ətraflı məlumat verərək Heydər Əliyevin regionda sabitliyin, əməkdaşlığın və humanitar əlaqələrin inkişafına verdiyi töhfələrdən ətraflı danışdı. Ulu öndərin siyasi irsində təhsil, mədəniyyət və xalqlar arasında qarşılıqlı hörmət prinsiplərinin xüsusi yer tutduğunu xüsusi vurğulayan Qurban Qurbanov Heydər Əliyevin təkcə Azərbaycanın dövlətçilik tarixində deyil, bütövlükdə, regionun inkişafındakı mühüm xidmətlərini xatırlatdı.

Bildirildi ki, Heydər Əliyev siyasi fəaliyyətində qonşu xalqlarla dostluq, qarşılıqlı hörmət və humanitar əməkdaşlıq məsələlərinə hər zaman xüsusi yer verirdi. Onun formalaşdırdığı xarici siyasət konsepsiyası regional sabitlik, iqtisadi əməkdaşlıq, təhsil və mədəniyyət sahələrində sıx münasibətlər və qarşılıqlı etimad üzərində qurulurdu. Dövlətlərarası əlaqələrin davamlılığı yalnız rəsmi sənədlərlə deyil, xalqlar arasında yaranmış etimad mühiti ilə təmin edilirdi. Dərbənd şəhərinə isə bu etimadın canlı daşıyıcılarından biri kimi mühüm önəm verilirdi.

Yeri gəlmişkən, Dağıstan Respublikasına uzun illər rəhbərlik etmiş Səid Qurbanovun dahi şəxsiyyətlə səmimi dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətləri Azərbaycan – Dağıstan əlaqələrinin inkişafında mühüm rol oynayıb. Hər iki görkəmli dövlət xadimi regionda sabitliyin, mehriban qonşuluğun və xalqlar arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinə xüsusi əhəmiyyət veririb. Onların şəxsi əlaqələri Azərbaycan ilə Dağıstan arasında iqtisadi, humanitar və mədəni əməkdaşlığın genişlənməsinə əlverişli zəmin yaradıb.

### Regional əməkdaşlığın hədəfləri

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursunda regional əməkdaşlığın genişləndirilməsi mühüm yer tutur. Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan nəqliyyat, logistika, enerji və kommunikasiya layihələri region ölkələri arasında qarşılıqlı əlaqələri möhkəmləndirməklə yanaşı, sabitlik və əməkdaşlıq mühitini də gücləndirir.

Azərbaycan bu gün Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm geoiqtisadi mərkəzə çevrilib. Orta Dəhliz, Şimal-Cənub Nəqliyyat Marşrutu və digər beynəlxalq layihələr sayəsində ölkəmizin regional inteqrasiya fəaliyyəti ən yüksək səviyyəyə yüksəlib. Bu prosesdə humanitar əlaqələrin inkişafı da strateji prioritetlər sırasında yer alıb. Çünki iqtisadi inteqrasiyanın dayanıqlılığı, hər zaman, ilk növbədə, insanlar arasında qarşılıqlı anlaşma və etimaddan asılı olub.

Azərbaycanın multikulturalizm, mədəniyyətlərarası dialoq və beynəlxalq əməkdaşlıq sahəsində qazandığı uğurlar bu gün region üçün nümunə hesab olunur. Dərbənd kimi tarixi şəhərlərlə əlaqələrin davamlı olaraq möhkəmlənməsi də məhz bu siyasətin mühüm tərkib hissəsi kimi yüksək dəyərləndirilir. Bu isə müasir geosiyasi proseslər fonunda Azərbaycan – Dağıstan münasibətlərində aydın müşahidə olunan inkişafın regional sabitliyə və əməkdaşlığa verdiyi töhfə ilə əlaqələndirilir. Yeri gəlmişkən, bu münasibətlərə bu gün də iqtisadi, siyasi və humanitar sahələri əhatə edən çoxşaxəli əməkdaşlıq modeli kimi yanaşılır. Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə regional əməkdaşlıq siyasətinin uğurla reallaşması nəticəsində hazırda qonşu regionlarla əlaqələr getdikcə möhkəmlənir, nəqliyyat və iqtisadi inteqrasiya genişlənir, eləcə də humanitar sahədə qarşılıqlı etimad güclənir.

İqtisad Universitetinin Dərbənd filialı nümunəvi fəaliyyəti ilə təkcə regional ali məktəb statusunda deyil, həm də Azərbaycan ilə Dağıstan arasında elm, təhsil və humanitar inteqrasiyanın mühüm platforması kimi formalaşmasına müsbət təsir göstərir. Azərbaycanın xarici ölkədə fəaliyyət göstərən yeganə ali təhsil ocağı kimi Dərbənd filialının idarə olunmasında əsas yanaşma tədrisin keyfiyyətinin yüksəldilməsi, beynəlxalq akademik standartlara uyğunlaşdırılması və tələbələrin praktik biliklərinin artırılması ilə bağlıdır. Bu model təhsil prosesini sırf akademik çərçivədən çıxararaq onu regionlararası əməkdaşlığın strateji istiqamətinə çevirir.

Azərbaycan – Dağıstan münasibətlərinin inkişafında xüsusi xidmətləri olan şəxslərin fəaliyyəti ölkəmiz tərəfindən də daim yüksək qiymətləndirilir. Bu baxımdan Prezident İlham Əliyevin 1 iyun 2026-cı il tarixli sərəncamı xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında humanitar, o cümlədən təhsil sahəsində əlaqələrin inkişafında xidmətlərinə görə Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialının rektoru Qurban Qurbanovun ölkəmizin ali dövlət mükafatlarından biri olan "Dostluq" ordeni ilə təltif edilməsi bunun parlaq nümunəsidir. Bu yüksək mükafat təkcə bir şəxsin fəaliyyətinə verilən qiymət deyil, eyni zamanda, Azərbaycan – Dağıstan əməkdaşlığının strateji əhəmiyyətinin, humanitar diplomatiyanın və təhsil sahəsində qurulan səmərəli tərəfdaşlığın təsdiqidir.

Qurban Qurbanovun rəhbərliyi ilə sözügedən filial son illərdə regionda nüfuzlu ali təhsil ocaqlarından birinə çevrilərək, Azərbaycan təhsil modelinin, elmi düşüncəsinin və akademik ənənələrinin Dağıstanda uğurla təbliğinə əhəmiyyətli töhfələr verib. Bu fəaliyyət həm də xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edən mühüm humanitar missiya kimi qiymətləndirilib. Eyni zamanda, Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncam Azərbaycan ilə Dağıstan arasında formalaşmış qarşılıqlı etimadın, dostluğun və əməkdaşlığın yeni mərhələyə yüksəldiyindən xəbər verən mühüm siyasi və mənəvi hadisə kimi dəyərləndirilib.

Dərbənd filialı bu gün təkcə iqtisadçı kadrların hazırlanması ilə kifayətlənmir, həm də Azərbaycan iqtisadi düşüncəsinin, təhsil modelinin və idarəetmə təcrübəsinin Dağıstan regionunda yayılmasına müsbət təsir göstərir. Bu isə, öz növbəsində, humanitar diplomatiyanın real institusional nəticəyə çevrilməsi anlamına gəlir. Filialın fəaliyyəti təhsil sahəsində davamlı inkişafın inzibati idarəetməsi ilə məhdudlaşmır, eyni zamanda, regional ehtiyacların düzgün qiymətləndirilməsi və strateji baxışla mümkünlüyünü gerçəkləşdirir. Bu baxışın formalaşmasında rektor Qurban Qurbanovun rəhbərlik təcrübəsi və təşkilati yanaşması mühüm rol oynayır. Nəticə etibarilə, filial Azərbaycan–Dağıstan təhsil münasibətlərinin ən uğurlu nümunələrindən biri kimi regionda elm, təhsil və mədəni əməkdaşlığın dərinləşməsinə xidmət edir.

Müasir dövrdə təhsil diplomatiyası dövlətlər arasında münasibətlərin ən təsirli və uzunmüddətli istiqamətlərindən biri hesab olunur. Çünki siyasi qərarlar dəyişə, iqtisadi maraqlar transformasiya oluna bilər, lakin elm, təhsil və mədəniyyət vasitəsilə qurulan körpülər daha davamlı, etibarlı xarakter daşıyır. İqtisad Universitetinin Dərbənd filialının fəaliyyəti də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu təhsil müəssisəsi yalnız iqtisadçı kadrların hazırlanmasına xidmət etmir, eyni zamanda, Azərbaycan ilə Dağıstan arasında humanitar əməkdaşlığın inkişafına töhfə verir. Bu gün universitetlər təkcə bilik mərkəzləri deyil, həm də beynəlxalq əməkdaşlığın mühüm platformalarıdır. Elmi mübadilə, birgə tədqiqatlar, tələbə mobilliyi və innovasiya layihələri dövlətlərarası münasibətlərin yeni məzmun qazanmasına şərait yaradır.




### Azərbaycan ruhlu məktəb

Səfər çərçivəsində ən təsirli görüşlərdən biri də Dərbənd rayonunun Cemikənd qəsəbəsində yerləşən Heydər Əliyev adına orta məktəbdə keçirildi. Təhsil müəssisəsinin həyətində ucaldılan ümummilli lider Heydər Əliyevin büstünü ziyarət edərkən bir daha aydın oldu ki, bu böyük dövlət xadiminin irsi təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda yaşayan soydaşlarımız və dost xalqlar tərəfindən də böyük ehtiramla yaşadılır.

Məktəbin kollektivi ilə görüş zamanı burada Azərbaycan dilinə, ədəbiyyatına və milli-mənəvi dəyərlərimizə göstərilən diqqətin şahidi olduq. Xüsusilə məktəbdə fəaliyyət göstərən Azərbaycan dili və ədəbiyyatı sinfi böyük maraq doğurdu. Bu sinfin yaradılması Dərbənd bölgəsində yaşayan gənc nəslin ana dilini, ədəbiyyatını və mədəni irsini daha dərindən öyrənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Qeyd edilməlidir ki, belə təşəbbüslər Azərbaycanın elm və təhsil sahəsinə göstərdiyi diqqətin və ölkəmizin xaricdə yüksək səviyyədə təmsil olunmasının bariz ifadəsidir. Eyni zamanda, bu cür təşəbbüslər təkcə təhsil layihəsi deyil, həm də xalqlarımız arasında humanitar əməkdaşlığın və mədəni körpülərin möhkəmləndirilməsinə xidmət edən mühüm addımdır. Cemikənddə gördüklərimiz də dil və təhsilin milli kimliyin qorunmasının ən etibarlı vasitələrindən biri olduğunu bir daha sübut edir.

Azərbaycan dilinin məktəblərdə tədrisi, gənclərin milli-mədəni irsə bağlı ruhda yetişdirilməsi və ortaq dəyərlərin gələcək nəsillərə ötürülməsi regionlar arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edir. Bu məktəb, əslində, sadəcə təhsil müəssisəsi deyil, həm də Azərbaycan ilə Dağıstan arasında humanitar əlaqələrin canlı rəmzlərindən biri, ortaq tariximiz və ortaq gələcəyimizin təcəssümüdür.

Dərbəndə səfərimiz bizdə bir daha belə bir qənaət formalaşdırdı ki, dövlətlərarası münasibətlərin ən etibarlı dayağı xalqlar arasında mövcud olan etimad və qarşılıqlı hörmətdir. Təhsil, elm, mədəniyyət və humanitar əməkdaşlıq bu etimadın möhkəmlənməsinə xidmət edən əsas vasitələrdir. Bu gün Dərbənddən Bakıya uzanan yol coğrafi məsafə olmaqla bərabər, həm də ortaq tariximizin, mədəniyyətimizin, mənəvi dəyərlərimizin və gələcəyə dair ümumi baxışımızın ifadəsidir.

Azərbaycanın regional əməkdaşlıq siyasəti, Heydər Əliyev siyasi irsi və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyası göstərir ki, dostluq və əməkdaşlıq üzərində qurulan münasibətlər gələcəkdə də regionun sabitliyinə, rifahına və tərəqqisinə xidmət edəcək. Dərbənddən gələn əsas mesaj da məhz budur: tarix bizi birləşdirib, gələcək isə bu birliyi daha da gücləndirmək üçün yeni imkanlar yaradır.

Azərbaycan və Dağıstan xalqları arasında mövcud olan dostluq münasibətləri tarixi köklərə, ortaq mədəniyyətə və qarşılıqlı hörmətə əsaslanır. Bu münasibətlər təkcə keçmişin mirası deyil, həm də gələcəyin strateji xəttidir. Dərbənddən Bakıya, Qafqazın müxtəlif bölgələrinə uzanan bu dostluq körpüsü bu gün də möhkəmlənməkdədir və gələcək nəsillərə ötürüləcək ən mühüm dəyərlərdən biri kimi öz aktuallığını qoruyur.

***Elşan ƏHMƏDOV,***
***Dövlət İdarəçilik Akademiyasının dosenti***

# Sabirabadda mətbuat tarixi muzeyi

**"Kür-Araz" qəzeti redaksiyasında Sabirabadın mətbuat tarixini əks etdirən muzey yaradılıb.**

Qeyd edək ki, aran rayonununda yerli mətbuatın 100 ilə yaxın tarixi var. İlk ictimai-siyasi qəzet 1930-1962-ci illərdə "Pambıq cəbhəsində", 1962-ci ildən 1992-ci ilədək "Muğan", həmin tarixdən sonra "Suqovuşan" və nəhayət, 2020-ci ildən "Muğanın səsi" adı ilə çıxıb.

"Kür-Araz" qəzetinin redaksiyasında yerləşən muzeyin ekspozisiyasında toplanmış eksponatlar, sənədlər mətbuat tarixinin ötən dövrləri haqqında ətraflı bilgilər verir. Məsələn, ziyarətçilər öyrənirlər ki, "Muğan" qəzetinin həyatında 1969–1982-ci illər inkişaf dövrü olub. O dönəmdə Azərbaycan KP MK-nın 1-ci katibi olan ümummilli lider Heydər Əliyev hər mövsümdə Sabirabada səfər edir, pambıq tarlalarında, taxıl zəmilərində, heyvandarlıq komplekslərində əməkçilərlə görüşürdü. Pambıqçılıq rayonlarının zona müşavirələri də, adətən, Sabirabadda keçirilirdi. Bu hadisələr "Muğan" qəzetinin səhifələrində yer alan qiymətli materiallar olurdu. Həmin dövr günaşırı çıxan qəzetin tirajı 20 minə yüksəlmişdi. Ulu öndərin bütün tədbirlərində "Muğan"ın əməkdaşları yaxından iştirak edirdi. Bu gün rayonun Heydər Əliyev Mərkəzindəki şəkillərin böyük bir qismi məhz "Muğan" qəzetinin əvəzsiz xəzinəsindəndir. "Muğanın səsi"nin missiyasını yeni hüquqi statusda "Kür-Araz" qəzeti davam etdirir. Sabirabadda qovuşan iki böyük çayın adını daşıyan nəşr bu ildən fəaliyyətə başlayıb.

Mətbuat Muzeyi ideyası "Kür-Araz" qəzetinin təsisçisi və məsul redaktoru Elçin Nəsibin təşəbbüsü ilə gerçəkləşib. Burada "Ümummilli lider Heydər Əliyevin Sabirabada səfərləri". "Sabirabad mətbuatının klassikləri", "XX–XXI əsrlərdə Sabirabadda nəşr olunmuş mətbuat orqanları", "İzi qalan jurnalistlər" bölmələrində fotoşəkillər, müxtəlif illərdə dərc olunmuş qəzetlər, Sabirabad jurnalistlərinə aid kitablar, onların şəxsi əşyaları, sənədləri və s. yer alıb.

***Nizami MƏMMƏDZADƏ,***
***Əməkdar jurnalist***



# "Made in Azerbaijan" Odlar yurdunun qüdrət və şöhrət nişanıdır

**Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi siyasətində kənd təsərrüfatı sektoru xüsusi yer tutur. Hazırda aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən ardıcıl islahatlar, dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, subsidiya sisteminin təkmilləşdirilməsi, yeni texnologiyaların tətbiqi və logistika imkanlarının artırılması nəticəsində bu sektor getdikcə qeyri-neft iqtisadiyyatının əsas dayaqlarından birinə çevrilir. Prezident İlham Əliyevin sədrliyi ilə mayın 25-də keçirilən kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə səsləndirilən fikirlər isə aqrar siyasətin növbəti mərhələsinin əsas istiqamətlərini müəyyənləşdirən mühüm strateji tezislər kimi diqqət çəkir.**




Müşavirədə böyük əhəmiyyət daşıyan əsas məqamlardan biri torpaq ehtiyatlarından daha səmərəli istifadə edilməsinin vacibliyi ilə bağlı idi. Belə bir problemin səsləndirilməsi isə təsadüfi deyildi. Prezident İlham Əliyev bununla bağlı hər bir əkin üçün yararlı torpaq sahəsinin öz "pasportu"nun olmasının, həmin torpaqda hansı məhsulun daha yüksək gəlirliliklə yetişdirilə biləcəyinin dəqiq müəyyənləşdirilməsi zəruriliyini xatırlatması da məsələnin aktuallığından xəbər verirdi.

## İxraca açılan geniş qapı

Bu gün kənd təsərrüfatının inkişafı, ilk növbədə, ərzaq təhlükəsizliyi baxımından mühüm önəm daşıyır. Son illərdə dünyada baş verən geosiyasi proseslər, logistika zəncirlərində yaranan problemlər, iqlim dəyişiklikləri və qlobal inflyasiya ərzaq təhlükəsizliyi məsələsini dövlət siyasətinin ən vacib istiqamətlərindən birinə çevirib. Azərbaycan da bu çağırışları nəzərə alaraq daxili bazarın yerli istehsal hesabına təmin olunmasını strateji prioritet kimi müəyyənləşdirib.

Adı çəkilən müşavirədə də gələcək mərhələdə daxili tələbatın qarşılanması ilə ixrac potensialının artırılmasının paralel şəkildə həyata keçirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Əslində, bu iki məqsəd bir-birini tamamlayır. Belə ki, güclü daxili istehsal bazası olmadan dayanıqlı ixrac siyasəti qurmaq mümkün deyil. Eyni zamanda, ixrac bazarlarına çıxış fermerlərin gəlirlərini artırır, istehsalın genişlənməsini stimullaşdırır və daxili bazarın təminat imkanlarını gücləndirir.

Bu yanaşma, əslində, müasir aqrar idarəetmədə əsas prinsiplərdən biridir. Çünki torpaq ehtiyatları məhdud resursdur və onun məhsuldarlıq potensialından maksimum səmərə ilə istifadə olunması həm fermer gəlirlərinin artmasını, həm də ölkənin ümumi aqrar inkişaf strategiyasının uğurla həyata keçirilməsini şərtləndirir.

Mütəxəssislərin fikrincə, bu cür prinsipin ən böyük əhəmiyyəti ondan ibarətdir ki, kənd təsərrüfatında qərarlar artıq təkcə ənənəvi təsərrüfat vərdişlərinə deyil, həm də elmi təhlillərə, bazar araşdırmalarına və iqtisadi səmərəlilik meyarlarına əsaslanmalıdır. Başqa sözlə, müasir dövrdə aqrar istehsalın uğuru məhsul yetişdirmək bacarığı ilə yanaşı, eyni zamanda, bazarın tələblərini düzgün proqnozlaşdırmaq və həmin tələblərə uyğun istehsal qurmaq qabiliyyəti ilə ölçülür.

## Çağdaş dövrün tələbatı

Ölkə rəhbərinin müşavirədə diqqətə çatdırdığı mühüm məsələlərdən biri də subsidiya siyasətinin çevik mexanizm əsasında qurulması ilə bağlı idi. Dövlət başçısı bununla bağlı bildirdi ki, müəyyən məhsula bir dəfə subsidiya təyin edib onu uzun illər dəyişmədən saxlamaq düzgün yanaşma deyil. Bu fikir müasir iqtisadi reallıqlarla tam uzlaşır. Çünki dünya bazarlarında qiymətlər, tələbat strukturu, istehlak meyilləri və ticarət marşrutları daim dəyişir. Belə şəraitdə kənd təsərrüfatı siyasəti də çevik olmalı, bazar siqnallarına operativ reaksiya verməlidir.

Subsidiyaların rayonlara görə, məhsul növləri üzrə və bazar perspektivləri nəzərə alınmaqla yenidən qiymətləndirilməsi fermerlərin daha gəlirli məhsullara maraq göstərmələrinə imkan verəcək. Nəticədə dövlət dəstəyi daha səmərəli istifadə olunacaq və büdcə vəsaitlərinin iqtisadi əhəmiyyəti sürətlə yüksələcək.

Son illərin statistik göstəriciləri Azərbaycanın aqrar sektorunun sürətlə inkişaf etdiyini təsdiqləyib. Müşavirədə bildirildiyi kimi, ötən 5 il ərzində aqrar ticarət dövriyyəsi artım nümayiş etdirib. Eyni zamanda, məhsul portfeli və ixrac coğrafiyası əhəmiyyətli dərəcədə genişlənib. Məsələn, hazırda Azərbaycan fındıq ixracına görə dünyada dördüncü yerdə qərarlaşıb. Xurma ixracında ölkəmiz ikinci mövqedədir. 2025-ci ildə isə respublikamız ilk dəfə şaftalı və nektarin ixracında dünya üzrə ilk onluğa daxil olaraq doqquzuncu yerə yüksəlib.

Bununla yanaşı, çiyələk, albalı, pomidor və pambıq lifi kimi məhsullar üzrə də Azərbaycan dünya ixrac reytinqlərində ilk iyirmilikdə təmsil olunur. Bu göstəricilər ölkənin aqrar potensialının geniş olduğunu və beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin davamlı şəkildə artdığını nümayiş etdirir. Xüsusilə diqqətçəkən məqam məhsul portfelində baş verən dəyişiklikdir. Belə ki, əgər 2021-ci ildə meyvə, tərəvəz və pambıq ixracın 87 faizini təşkil edirdisə, 2025-ci ildə bu göstərici 75 faizə düşüb. Bu isə ixrac strukturunun şaxələndiyini, yeni məhsulların beynəlxalq bazarlara çıxmağa başladığını göstərir.

## Yeni mərhələnin hədəfləri

Kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə səsləndirilən ən mühüm iqtisadi tezislərdən biri də aqrar emal sənayesinin inkişafı ilə bağlıdır. Statistik rəqəmlər göstərir ki, ölkənin aqrar ixracında kənd təsərrüfatı xammalı emal məhsullarını 3-4 dəfə üstələyir. Digər tərəfdən, aqrar idxalda emal məhsullarının payı daha yüksəkdir. Bu vəziyyət qarşıdakı dövrdə əsas inkişaf istiqamətlərindən birini – xammaldan emala keçid prinsipini müəyyənləşdirir.

Bu məsələ ilə bağlı xatırlatmaq yerinə düşər ki, müasir iqtisadiyyatda əsas gəlir xammal istehsalından deyil, əlavə dəyərin yaradılmasından əldə olunur. Məsələn, pambığın xammal şəklində ixracı ilə müqayisədə onun iplik, parça və hazır tekstil məhsulu formasında satılması qat-qat yüksək gəlir gətirir.

Eyni yanaşma meyvə-tərəvəz, süd məhsulları, ət emalı, üzümçülük, fındıqçılıq və balıqçılıq sektorlarına da şamil edilə bilər. Meyvənin şirə, konserv, qurudulmuş məhsul və ya digər emal formalarında ixracı daha yüksək əlavə dəyər yaradır. Beləliklə, aqrar emal sənayesinin inkişafı təkcə kənd təsərrüfatının deyil, bütövlükdə qeyri-neft iqtisadiyyatının inkişafına töhfə verən əsas amillərdən biridir.

Prezident İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədəki çıxışında ixrac bazarlarının gələcək perspektivlərinin təhlili ilə bağlı məsələ xüsusi yer tutur. Çünki bu gün Azərbaycan kənd təsərrüfatı məhsullarının əhəmiyyətli hissəsini uzun illər ərzində formalaşmış ənənəvi bazarlara ixrac edir. Lakin qlobal iqtisadi proseslər bir sıra ölkələrin daxili ərzaq istehsalını artırmağa çalışdığını və idxaldan asılılığı azaltmaq siyasətinə üstünlük verdiyini göstərir.

Mütəxəssislər bu səbəbə əsaslanaraq bildirirlər ki, hər bir məhsul üzrə bazarların gələcək tələbat potensialı, rəqabət mühiti və qiymət dinamikası ayrıca araşdırılmalıdır. Strateji planlaşdırma yalnız mövcud bazarlara əsaslanmalı, alternativ istiqamətləri də əhatə etməlidir. Bazarların diversifikasiyası isə ixrac risklərini azaldır və xarici iqtisadi şoklara qarşı dayanıqlılığı artırır. Yeni bazarlara çıxış isə məhsul çeşidinin genişləndirilməsi və keyfiyyət standartlarının yüksəldilməsi ilə birbaşa bağlıdır.

Qlobal bazarlarda uğur qazanmaq üçün artıq məhsulun keyfiyyəti olması kifayət etmir. Müasir istehlakçı məhsulun mənşəyinə, istehsal standartlarına, ekoloji xüsusiyyətlərinə, qablaşdırılmasına və brend reputasiyasına da xüsusi diqqət yetirir.

Bu baxımdan "Made in Azerbaijan" brendinin aqrar məhsullar üzrə daha sistemli təşviqi mühüm əhəmiyyət kəsb edir. Ekspertlərin fikrincə, Azərbaycan məhsullarının beynəlxalq sərgilərdə, ticarət missiyalarında və xarici bazarlarında daha geniş tanıdılması zəruri məsələlərdən biridir. Bu sahədə brendləşmə məhsulun bazarda fərqlənməsinə, daha yüksək qiymət seqmentində mövqe tutmasına və istehlakçı etimadının formalaşmasına xidmət edir. Bu isə öz növbəsində ixrac gəlirlərinin artmasına imkan yaradır.

Xatırladaq ki, "Made in Azerbaijan" Azərbaycanın məhsullarının beynəlxalq bazarda tanıdılması və ixracının təşviqi məqsədilə yaradılmış milli brenddir. Bu təşəbbüs Prezident İlham Əliyevin 5 oktyabr 2016-cı il tarixli fərmanı ilə təsdiqlənən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri"nin tərkib hissəsi olaraq həyata keçirilir və ölkədə istehsal olunan məhsulların xarici bazarlara çıxışını asanlaşdırmağa, Azərbaycanın ixrac potensialını artırmağa xidmət edir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Mütəxəssislərin qiymətləndirmələrinə görə, Azərbaycanın aqrar ixrac strategiyasının yeni mərhələsində 3 əsas istiqamət – bazarların diversifikasiyası, əlavə dəyərin artırılması və logistika imkanlarının genişləndirilməsi ön plana çıxır. Bununla yanaşı, fermerlərin maarifləndirilməsi, sertifikatlaşdırma sistemlərinin təkmilləşdirilməsi, beynəlxalq standartların tətbiqi və informasiya-məsləhət xidmətlərinin gücləndirilməsi də vacib vəzifələr sırasındadır. Çünki müasir dünya bazarlarında uğur qazanmaq üçün məhsulun yetişdirilməsi ilə yanaşı, onun beynəlxalq standartlara uyğun hazırlanması və təqdim olunması da əsas şərtlərdəndir.

Kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə səsləndirilən yanaşmalar göstərir ki, Azərbaycan aqrar siyasətində yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas xüsusiyyəti yalnız istehsalın artırılması deyil, həm də istehsalın bazar və ixracyönümlü, eləcə də yüksək əlavə dəyər yaradan model əsasında təşkil edilməsidir.

Yeni inkişaf fəlsəfəsinin mərkəzində torpaq resurslarından səmərəli istifadə, çevik subsidiya siyasəti, emal sənayesinin inkişafı, logistika imkanlarının genişləndirilməsi, bazarların diversifikasiyası və "Made in Azerbaijan" brendinin gücləndirilməsi dayanır.

Nəticə etibarilə qarşıya qoyulan hədəf isə, sadəcə, daha çox məhsul ixrac etmək deyil. Burada əsas məqsəd daha rəqabətli, daha yüksək əlavə dəyər yaradan, dayanıqlı və gəlirli aqrar ixrac modeli formalaşdırmaqdır. Məhz bu yanaşma kənd təsərrüfatının uzunmüddətli inkişafını gerçəkləşdirməklə yanaşı, qeyri-neft iqtisadiyyatının, ölkənin beynəlxalq iqtisadi mövqelərinin daha da güclənməsinə və ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə xidmət edir.

# Məcburi köçkünlüyə son qoymuş Böyük Qayıdış

## *Xocalılılar rahatlığa, ədalətə, xoşbəxt gələcəyə qovuşublar*

**Keçmiş məcburi köçkünlərin doğma ata-baba yurdlarına ləyaqətli qayıdışı Azərbaycan dövlətinin prioritet fəaliyyət istiqamətlərindən birinə çevrilib. Köçürülmə prosesi zamanı bütün zəruri məqamlar diqqətdə saxlanılır. Bərpa edilmiş yaşayış məntəqələrində müasir infrastruktur yaradılır, sakinlər yeni təmir olunmuş evlərlə, daimi su, qaz, elektrik enerjisi, yüksəksürətli internetlə təmin edilirlər. Əhalinin məşğulluq məsələlərinin həlli üçün də qısa müddətdə lazımi addımlar atılır.**






Azad Xocalıya qayıtdıqdan sonra bütün ağrı-acılarını, həsrət dolu günlərini unudaraq həyatı yenidən yaşamağa başlamış insanlarla görüşümüzdə onların sevincinin, qürurunun və nikbinliklə dolu təəssüratlarının bir daha şahidi olduq. Rayonun Ballıca kənd sakini Xəyyam Məmmədov bildirdi ki, doğma Qarabağa qayıdışı neçə alçatmaz görünən arzusunu reallığa çevirib:

– Ən böyük arzumuz, təbii ki, Vətənimizə qovuşmaq idi. İllərlə bu yerlərin torpağı, havası, suyu, daşı-qayası üçün burnumuzun ucu göynəyirdi. İndi hər açılan səhərimizə, hər batan günəşə, hətta hər yağan yağışa, doluya, dumana-çiskinə şükür edirik. Yaşadıqlarımız sanki şirin bir yuxudur.

İkinci gerçəkləşən arzum geniş, hər şəraiti olan, təmirli evlə təmin olunmağımdır. Evsizlikdən çox əziyyət çəkmişik. Ancaq 2024-cü il dekabrın 27-dən həm məcburi köçkünlüklə vidalaşmışam, həm də yeni evim – öz evim var!

Erməni təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşəndə Xəyyam Məmmədovun 13 yaşı olub. Elə həmin vaxtlar ehtiyatsızlıqdan əlində partlayan qumbara alışdırıcısı gözünün birini zədələyib, hazırda 2-ci qrup gözdən əlildir. Odur ki, ağır fiziki işlərdə işləməsi mümkün deyil. Üstəlik, ali təhsili olmadığı üçün Ballıcaya köçdükdən sonra iş tapmaqda çətinlik çəkəcəyini düşünürmüş. Ancaq bildirdiyinə görə, dövlət qurumları səhhətini nəzərə alıb və onun daha bir arzusu həyata keçib:

– Hələ məcburi köçkün kimi Gəncədə məskunlaşdığım vaxt fikirləşirdim, görəsən, nə vaxtsa elə bir iş qura bilərəmmi ki, kiməsə möhtac olmadan işləyə, dolana bilim? Bura gəldikdən qısa müddət sonra mənə yer ayrıldı, hər cür dəstək göstərildi və "Balmarket" adlı mağaza açdım. Hazırda çox böyük olmasa da ticarət obyektim var, çox şükür, qazancım ailəmi dolandırmağa yetir. Müəyyən müddətə vergidən azad edilməyimiz marketi işlədə bilməyimə çox kömək oldu.

Hər şeyə görə möhtərəm Prezidentimizə minnətdaram! Bütün arzularımın reallaşması məhz onun sayəsində mümkün olub!

Xəyyam Məmmədovun həyat yoldaşı Günel xanım isə Ballıcaya köçdüklərindən cəmi bir gün sonra işlə təmin edilib, kənddə yerləşən tibb məntəqəsinin müdiridir. Dedi ki, şəhidlərimizin qanı bahasına mənfur düşmən tapdağından azad edilmiş torpaqlarda yaşamaq, işləmək əvəzsiz duyğudur:

– Gələn ay səhiyyə sistemində çalışmağımın 25 ili tamam olacaq. Əlbəttə, həmişə əlimdən gələn qədər yerli əhaliyə yaxşı xidmət göstərməyə çalışmışam. Doğma Qarabağda işləmək mənim üçün şərəfdir. İndi ikiqat həvəslə, ikiqat məsuliyyətlə işləyirəm.

Həmsöhbət olduğumuz Hümbətovlar ailəsinin üzvləri də yaradılan şəraitdən razılıq etdilər. Ailə başçısı Reyhan xanım bildirdi ki, həyat yoldaşı gənc yaşlarında dünyasını dəyişdiyindən 4 övladını böyütmək, ailə sahibi etmək, əllərini çörəyə çatdırmaq üçün çox çətinliklərə sinə gərməli olub. Ancaq həyatın hər imtahanına görə uca Tanrıya şükürlərini əskik etməyib. Elə nə vaxtsa doğma yurdlarımıza dönəcəyimiz günə olan inamını da itirməyib:

– Bu günləri yaşadığımız üçün xoşbəxtik. Öz torpağımızdayıq, yeni evimiz var, oğlum da, gəlinim də işləyir. Üstəlik, təsərrüfatla da məşğul oluruq. Dövlətimiz var olsun, bizə arı ailələri veriblər, həyətimizi əkib-becəririk. Bilirik ki, bütün bunlar dövlətimizin başçısı, əziz Prezidentimiz İlham Əliyevin əzmi, qətiyyəti sayəsindədir. Allah onu pənahında saxlasın! Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin!

İxtisasca Azərbaycan dili və ədəbiyyatı müəllimi olan Şahsuvar Hümbətov Ballıcaya qayıtdıqları gündən özünün də, həyat yoldaşı Vüsalənin də məktəbdə işlə təmin edildiklərini bildirdi:

– Təsəvvür edin, 2024-cü il dekabrın 13-də Vətən həsrətimizə son qoyuldu, Ballıcaya köçdük, 15-dən isə məktəbdə işləməyə başladıq. Əvvəl məcburi köçkün kimi məskunlaşdığımız zaman həyat yoldaşım yaşadığımız yerdən təxminən 100 kilometrə qədər aralıda yerləşən məktəbdə işləyirdi. Mən də həftədə 3 dəfə onu işə aparıb-gətirməyə məcbur idim. İndi iş yerimiz yaxınlığımızdadır. Həvəslə, fəxrlə gedib övladlarımızın savadlı, Vətənə layiqli övladlar kimi yetişməsinə töhfə verməyə çalışırıq.

Boş vaxtlarımızda isə, anamın dediyi kimi, həyət-bacada işləyirik. Yaxşı meyvə ağaclarımız var, kartof, lobya, göyərti, tərəvəz əkmişik, inək, arı, toyuq-cücə saxlayırıq. Zəhmətə qatlaşırıq, bəhrəsini də görürük. Bir sözlə, burada yaşamağımız üçün bizə hər cür şərait yaradılıb.

...Bərpa olunan yaşayış məntəqələrində apteklərin fəaliyyətə başlaması əhaliyə əczaçılıq xidmətinin göstərilməsi istiqamətində atılmış mühüm addımdır. Qarabağın Xankəndi, Şuşa, Xocalı kimi şəhərləri ilə yanaşı, kəndlərində də apteklərin açılması üçün sahibkarlara lazımi şərait yaradılıb. Sevindiricidir ki, bu sahibkarlar əsasən həmin kəndlərə qayıtmış keçmiş məcburi köçkünlərdir. Ballıcada yeni açılmış aptekin müdiri Vüqar Əhmədov Bakıda məskunlaşdığı dövrdə də aptek fəaliyyəti ilə məşğul olduqlarını, torpaqlarımız işğaldan azad olunduqdan sonra isə ailəsi ilə birlikdə böyük həvəslə doğma yurdlarına qayıdacaqları günü gözlədiklərini dedi:

– Arzumuz ötən ilin aprelində reallaşdı. Atamla, həyat yoldaşımla, oğlumla və onun ailəsi ilə birlikdə Ballıcaya köçdük. Kənddə aptek açmaq istəyim aidiyyəti qurumlar tərəfindən müsbət həll olundu və məskunlaşdıqdan qısa müddət sonra burada fəaliyyətə başladıq. İndi oğlumla birlikdə öz camaatımıza xidmət göstəririk. Əczaçılıq fəaliyyətinin nə qədər vacib və məsuliyyətli olduğunu bildiyimiz üçün, demək olar, gecə-gündüz işləyirik. Biz apteki açanda daha heç bir kənd sakininin dərman almaq üçün Xankəndiyə, yaxud Xocalıya getməsinə ehtiyac qalmayıb. Azad Qarabağda həyata keçirilən bərpa-quruculuğun həm şahidi, həm də bu işdə pay sahibi olmaq bizim üçün çox qürurvericidir!

Qarabağ və Şərqi Zəngəzurun digər yaşayış məntəqələrində olduğu kimi, Ballıcada da gənc ailələrin sosial qayğıları, məşğulluq məsələlərinin həlli xüsusi diqqətdə saxlanılır. Dünyaya ata-baba torpaqlarından uzaqda, məcburi köçkün ailəsində göz açmış Pərviz Həbibi bizimlə söhbətində bildirdi ki, Ballıcaya köçməmişdən öncə də işləyirdim və əmək fəaliyyətim elə əvvəldən Xocalı ilə bağlı olub:

– Beş ilə yaxındır ki, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Xocalı rayonu üzrə baş mütəxəssisi vəzifəsində çalışıram. Şanlı ordumuzun zəfər yürüşündən sonra rayon ərazisindəki tarix-mədəniyyət abidələrinin müəyyənləşdirilməsi, inventarlaşdırılması və mühafizəsinin təşkili məqsədilə mütəmadi olaraq bu ərazilərə gəlib qayıtmalı olurdum. Ancaq indi öz yurdumdayam, işimi buradan daha rahat, daha məsuliyyətlə və sevgiylə görə bilirəm.

Həyat yoldaşım Şahnaz da işlə təmin olunub, Xocalı rayonu 1 nömrəli bağçada musiqi müəllimi işləyir. Üstəlik, istəyimizə uyğun, Dövlət Məşğulluq Agentliyi tərəfindən ailəmizə 3 baş iribuynuzlu heyvan verilib, heyvandarlıqla məşğuluq. Yəni sosial baxımdan dövlətimizin qayğısı ilə əhatə olunmuşuq.

...Məcburi köçkün həyatı ilə vidalaşmış insanların ata-baba yurdlarına bağlılığı, onların firavan yaşayışı üçün görülən işlər, ən müxtəlif sahələrdə çalışan sakinlərin gələcəyə olan sarsılmaz inamları Qarabağımızın tezliklə əvvəlkindən də gözəl və abad olacağına əminlik yaradır. Əminlik yaradır ki, biz öz torpaqlarımızı azad etdiyimiz kimi, ona layiqincə sahib çıxmağı da bacarırıq.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

***Xocalı***

# Kənd təsərrüfatında yeni çağırışlar

**İndiki dövrdə dövlətlərin gücü təkcə sənaye və enerji imkanları ilə ölçülmür. Əhalinin ərzaq təminatı da enerji təhlükəsizliyi qədər strateji əhəmiyyət daşıyan məsələdir. Buna görə də aqrar sahənin inkişafı iqtisadi siyasətin vacib yönlərindən birinə çevrilib. Prezident İlham Əliyevin mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə səsləndirdiyi fikirlər də göstərir ki, qarşıdakı dövrdə əsas məqsəd, sadəcə, istehsalın artırılması deyil, aqrar sahədə keyfiyyətcə yeni inkişaf modelinin formalaşdırılmasıdır.**



Ölkəmizdə kənd təsərrüfatının modernləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Regionlarda yaradılan infrastruktur, su təsərrüfatının yenilənməsi, fermerlərə verilən dəstək mexanizmləri və texnoloji yeniliklər aqrar istehsalın həcminə müsbət təsir göstərib. Lakin qlobal bazarlarda müşahidə olunan dəyişikliklər artıq yeni yanaşmalar tələb edir. Ərzaq məhsullarına tələbatın artdığı, təchizat zəncirlərinin vaxtaşırı risklərlə üzləşdiyi bir dövrdə kənd təsərrüfatında dayanıqlılığın təmin olunması əsas prioritetə çevrilir. Torpaq məhsuldarlığının artırılması məsələsi xüsusi aktuallıq qazanır. Aqrar istehsalın genişlənməsi yeni növ məhsulların və fərqli tərkibli gübrələrin istehsalını zəruri edir.

Müşavirədə də qeyd olunduğu kimi, məhsuldarlığa kömək edən gübrə istehsalının artırılması təkcə kənd təsərrüfatı məsələsi deyil. Bu, həm də iqtisadi müstəqillik məsələsidir. Xarici bazarlarda qiymət dəyişiklikləri və logistika problemləri yerli fermerlərin fəaliyyətinə təsir göstərməməlidir. Daxili istehsal imkanlarının genişləndirilməsi ölkəyə həm qiymət sabitliyi qazandırır, həm də fermerlərin istehsal planlarını daha dəqiq qurmasına şərait yaradır. Nəticədə məhsulun maya dəyəri aşağı düşür, rəqabət qabiliyyəti artır və bazarda dayanıqlı inkişaf üçün zəmin formalaşır.

Aqrar sahədə texnoloji yenilənmə də vacib şərtdir. Bir vaxtlar günlərlə davam edən əkin və biçin prosesləri müasir texnikaların tətbiqi sayəsində indi bir neçə saatla ölçülür. Bu, həm də istehsal mədəniyyətinin yenilənməsidir. Müasir maşın və mexanizmlər torpağın daha səmərəli becərilməsini, məhsul itkilərinin azalmasını və resurslardan qənaətlə istifadə olunmasını şərtləndirir.

Ölkəmizin regionlarında texnika parkının yenilənməsi istiqamətində görülən işlər kənd təsərrüfatının simasını dəyişən amillərdən biri hesab edilə bilər. Fermerlərin güzəştli şərtlərlə texnika əldə etməsi istehsal imkanlarını genişləndirib və kənd təsərrüfatında məhsuldarlığın yüksəlməsinə təkan verib. Bu, eyni zamanda, kəndlə şəhər arasında iqtisadi fərqlərin azalmasına da təsir edir. Ölkə daxilində istehsal olunan texnikalar servis xidmətlərinin əlçatanlığını artırır, əlavə iş yerləri yaradır və sənaye sahələrinin inkişafına təkan verir. Eyni zamanda, bu yanaşma aqrar sektorun xarici bazarlardakı dalğalanmalardan daha az asılı olmasına imkan yaradır.

Dövlət başçımız sözügedən müşavirədə xüsusi vurğulayıb ki, kənd təsərrüfatı ənənəvi üsullarla deyil, elmə, texnologiyaya və müasir idarəetməyə əsaslanan model üzrə inkişaf etməlidir. Gübrə istehsalının genişləndirilməsi və texniki təminatın gücləndirilməsi bu modelin mühüm sütunlarını təşkil edir. Hər iki istiqamətdə həyata keçirilən tədbirlər gələcəkdə daha yüksək məhsuldarlıq, daha dayanıqlı istehsal və daha güclü ərzaq təhlükəsizliyi deməkdir. Azərbaycanın aqrar siyasətində formalaşan yeni yanaşma kənd təsərrüfatını, sadəcə, iqtisadi fəaliyyət sahəsi kimi deyil, milli inkişafın mühüm dayaqlarından biri kimi ön plana çıxarır.

***Ə.ƏLİYEV***
***XQ***

# İsmayıllıda torpaq mövsümü

**Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirənin keçirilməsi aqrar sektorun ölkənin sosial-iqtisadi inkişaf gündəliyində strateji mövqeyini bir daha göstərdi. Müşavirədə verilən əsas mesajlardan biri aqrar sektorun inkişafında "kəmiyyət artımı" mərhələsindən "keyfiyyət və məhsuldarlıq artımı" mərhələsinə keçidin zəruriliyi idi. İsmayıllı rayonunda da keyfiyyətli, ərzaq bolluğu naminə yorulmaz səylər göstərilir.**

Rayon Dövlət Aqrar İslahat Mərkəzindən (DAİM) aldığımız məlumata görə, cari ilin məhsulu üçün 2025-ci ilin payızında əkilmiş 18 min 726 hektarda buğda, 11 min 35 hektarda dən üçün arpa olmaqla, 29 min 761 hektar sahədə alaq otlarına, xəstəlik və zərərvericilərə qarşı mübarizə və yemləmə gübrəsinin tətbiqi geniş vüsət alıb. Əksər sahələrə yemləmə gübrəsi verilib, alaq otlarına, pas xəstəliyi, məftil qurdu və taxıl böcəyinə, gəmiricilərə qarşı mübarizə aparılıb.

Taxılçılığa dövlət dəstəyinin düzgün idarə olunması və nəzarətin gücləndirilməsi məqsədilə əvvəlki illərdən fərqli olaraq bu il payızlıq taxıl bitkilərinin ümumilikdə 5300-ə yaxın əkin yerinin monitorinqi planlaşdırılmışdı ki, 2200-ə yaxın ərazidə monitorinq başa çatdırılıb, qalan ərazilərdə isə bu iş sürətlə davam etdirilir. Monitorinqin maksimum qısa müddətdə başa çatdırılmasından ötrü DAİM-in bütün əməkdaşları bu işə səfərbər ediliblər.

Hesabat döründə kənd təsərrüfatı texnikalarının istismarına nəzarətlə bağlı müvafiq tədbirlər görülüb. 160 ədəd texnikaya texniki baxış keçirilib, 4 ədəd inzibati protokol tərtib olunub. Yaz-tarla işlərinə hazırlıq məqsədilə 450 traktor və 54 taxılbiçən kombayn tam saz vəziyyətə gətirilib.



Yazlıq bitkilərin səpininə başlanıb və müvəffəqiyyətlə davam etdirilir. Bu günə kimi xeyli sahədə yazlıq dənli və paxlalı bitkilər, kartof, vələmir, tərəvəz əkini aparılıb. Yazlıq əkinlərlə bağlı fermerlərin müvafiq sənədləri Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə daxil edilib, hazırda daxil olunmuş sənədlərə dair məlumatlar yoxlanılaraq subsidiya ödənilməsi üçün təsdiq olunur. Subsidiya ödənişi ilə bağlı 200 fermerin 360 hektar yazlıq əkinləri EKTİS-ə işlənib.

İsmayıllıda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində hesabat dövründə 1643 baş iribuynuzlu heyvanda süni mayalanma aparılıb və 919 baş sağlam cins buzov alınıb. Alınmış cins buzova görə fermerə subsidiya ödənilməsi üçün də müvafiq sənədlər Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə daxil edilib. Rayonun epizootik vəziyyətinin sağlam qalması üçün dövr ərzində proflaktiki tədbirlər davam etdirilib, dezinfeksiya işləri aparılıb.

Mövcud olan 961,1 hektarlıq üzüm, 3959,2 hektarlıq meyvə-giləmeyvə və üzüm bağlarında qış çiləməsi həyata keçirilib, quru budama və bağlama, eləcə də digər aqrotexniki tədbirlər vaxtında və düzgün aparılıb. Hazırda yaşıl budama, bitki diblərinin şumlanıb bellənməsi davam etdirilir.

Rayonda ənənəvi istehsal sahələrindən olan meyvəçiliyin və tərəvəzçiliyin inkişafı da daim diqqət mərkəzində saxlanmışdır. DAİM vasitəsilə yeni intensiv meyvə bağlarının salınması daim təşviq olunur. Yeni bağların salınması zamanı mütəxəssislər ərazilərə gedərək, fermerlərə müvafiq tövsiyələr veriblər.

***İlqar HƏSƏNOV***
***XQ-nin bölgə müxbiri***

# Özbaşınalığa son qoyuldu



**Goranboy rayonunda son illər bəzi "torpaqsevər" vətəndaşların maraqlı bir məntiqi formalaşmışdı: harda boş torpaq gördünsə, ətrafına bir hasar çək, bir-iki dirək basdır, vəssalam – oldu sənin. Sənəd? Çıxarış? Qanun? "Qağa, əsas hasardı da…" – deyirdilər.**

Elə bil bəziləri düşünürdü ki, torpaq sahəsinin hüquqi statusunu müəyyən edən dövlət reyestri yox, məhz paslı profil boru və tor setkasıdır. Amma görünür, "Şəhərsalma və Memarlıq ili" çərçivəsində aparılan işlər bu romantik "özəlləşdirmə üsulu"na müəyyən korrektələr gətirir. Belə ki, Goranboy rayonunun Aşağı Ağcakənd bələdiyyəsinə məxsus qanunsuz zəbt olunmuş torpaq sahələrində hasarların sökülməsi işləri davam etdirilir. Müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq həyata keçirilən tədbirlər nəticəsində indiyədək 30 hektardan artıq torpaq sahəsi hasarlardan azad olunub.

Bəzi şəxslər dövlət və bələdiyyə torpaqlarına elə ürəklə hasar çəkiblərmiş ki, sanki yaxın vaxtlarda üstünə "Əl vurma, öldürər!" lövhəsi də vuracaqdılar. İllərlə "mənimdir" deyə "özəlləşdirilən" bəzi torpaqların əslində heç kimə aid olmadığı, sadəcə, "birinci hasarlayanındı" prinsipi ilə zəbt edildiyi üzə çıxıb.

Sakinlər isə görülən işləri müsbət qiymətləndirirlər. Onların sözlərinə görə, qanunsuz zəbt hallarının qarşısının alınması həm torpaq münasibətlərində şəffaflığın təmin olunmasına, həm də ümumi abadlıq işlərinə müsbət təsir göstərir. Bir sözlə, artıq Goranboyda torpaq sahibi olmaq üçün "ə, tez elə, setkala" formulu yetərli hesab edilmir. Qanun da var, qayda da.

***Hamlet QASIMOV,***
***XQ-nin Gəncəbasar müxbiri***

**Yaz istirahət mövsümü ilə əlaqədar ölkənin hər yerində abadlıq və yaşıllaşdırma tədbirləri görülməkdədir. Möhtəşəm gözəllik abidəsini xatırladan Sumqayıtda da əlaqədar qurumlar mövsümi işləri səylə davam etdirirlər.**

# Sumqayıt gül-çiçəyə bürünüb




Xəzərsahili ərazidə salınan və beynəlxalq mükafat qazanan bulvar kompleksi yaşıllıqların gözəl nümunələrindəndir. Bulvar boyunca əkilən müxtəlif ağac və kol bitkiləri, landşaft dizaynı və istirahət zonaları sayəsində Sumqayıt möhtəşəm ekoloji məkana çevrilib.

Şəhərin Nəsimi adına Mədəniyyət və İstirahət Parkında son 3 ay ərzində 2 min 650 şam ağacı, 2 min 200 qızılgül kolu, 7 mindən artıq mövsümi gül və 150 oleandr bitkisi əkilib. Salınan yaşıllıqların suvarılması məqsədilə yeni xətlər çəkilib, tinglərə selitra gübrəsi verilib, aqrotexniki qulluq göstərilib və ərazilər təmizlənib. Parkdakı oturacaqların qırılmış taxtaları yeniləri ilə əvəzlənib, qopmuş dəmir hissələr qaynaq edilib, həmçinin skamya və tullantı qutuları rənglənib. Ərazidəki uşaq əyləncə guşələri təmir olunmaqla, 2 yeni karusel də quraşdırılıb.

Biz parkı gəzərkən səliqə-sahmanla məşğul olan fəhlələrə "Yorulmayasınız!" deyib keçirdik ki, onlardan biri – nisbətən yaşlı qadın belə cavab verdi:

– Məgər doğma şəhərin gözəlliyinə, təmizliyinə qulluq etməkdən yorulmaq olar?

Onunla tanış olduq. Şərafət Həsənova idi. Uzun illərdən bəri bu parkda çalışır. Gündüzlər burada işlədiyini, axşamlar isə gəzintiyə çıxaraq sakinlərin deyib-gülüb əyləndiklərindən zövq aldığını bildirdi. Şərafət xanım daha sonra dedi:

– Cəmi 42 nəfərlik heyətlə bu böyük parka xidmət edirik, amma, təəssüf ki, bəzi sakinlər bunu lazımınca dəyərləndirmir, tullantıları hara gəldi, atırlar. Gərək heç kəs günbəgün gözəlləşən doğma şəhərin təmizliyini pozmaya.

Sumqayıt həm də ölkəmizin ən yaşıl şəhəridir. Burada adambaşına 26 kvadratmetr yaşıllıq düşür. Bu, nadir ekoloji göstəricidir. Şəhərin yaşıllıqlarına qulluq və mühafizəni, eləcə də ağac və bəzək kollarının ilbəil artırılmasını Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyinin Yaşıllaşdırma İdarəsi həyata keçirir.

Öyrəndiyimizə görə, idarənin xidmət ərazisi son 10 ildə 2 dəfə artaraq, 1093,4 hektarlıq dislokasiyanı əhatə edir. Cari mövsümdə şəhərdə 96 min 700 ədəd müxtəlif növ gül, 35 min 760 ədəd çeşidli ağac əkilib, 20 min kvadratmetrlik qazon (yaşıl örtük) salınıb. Yaşıllıqlara intensiv qulluq məqsədilə Bakı-Quba magistral yolunun Hacı Zeynalabdin qəsəbəsindən keçən hissəsində və şəhərin "Sülh" prospektində 16 min 200 metrlik sahədə yeni damla sistemi yaradılıb. 376 ünvanda mövsümi budama işləri görülüb və quruyaraq təhlükə yaradan ağaclar ərazilərdən götürülüb.

Sübh tezdən iş başında olan qocaman bağbanlar Əli Süleymanov və Əhməd Mahmudovla söhbətimiz maraqlı oldu. Əli kişi dedi:

– Bildiyimiz kimi, bağbanlıq təbiətlə ünsiyyət, səbir və zəhmətin birləşməsidir. Gərək torpağa əyiləsən ki, o da səni ucalda. Bəzən öz bağ-bağatında ağac və kol əkmək istəyən sakinlər bizdən məsləhət alırlar. Hər kəsin sorğusuna can-başla cavab veririk.

Əhməd kişi də onun sözünə qüvvət verdi:

– Dahilərdən biri deyib ki, bağ-bağça cənnətin yerdəki kiçik parçalarıdır, hər bağban isə onun memarıdır. Bir məsəl də var: Bağban bağban olsa, neyləyər bağ divarı?!

Qısa ünsiyyət zamanı bir daha əmin olduq ki, yaşıllıq həyatdır, hər kəs onun qədrini bilməlidir. İllərdən bəri məhz bu sahədə çalışmaları ilə fəxr edən bu bağbanlar kimi...

***Əli NƏCƏFXANLI***
***XQ***

# Füzulidə biçinə hazırlıq

*Bu il rayonda 40 min 185 hektar sahədə taxıl əkilib*

**"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Füzuli rayonunda mühüm layihələr uğurla icra olunur. Rayonun azad olunmuş yaşayış məntəqələrində müasir infrastruktur qurulur, əhalinin rahat və təhlükəsiz yaşayışı üçün bütün zəruri tədbirlər həyata keçirilir.**

Bu günlərdə rayonda baramaçılığın inkişafına və taxıl biçininə hazırlıq işlərinə həsr olunmuş müşavirədə də bu barədə ətraflı söhbət açılıb, qarşıda duran mühüm vəzifələr müəyyənləşdirilib. Rayon icra hakimiyyətinin başçısı Alı Alıyev bildirib ki, ölkə başçısının qeyri-neft sektorunun, xüsusilə aqrar sahənin inkişafı ilə bağlı verdiyi tapşırıqlar əhalinin rifahının yüksəlməsinə mühüm töhfə verir. Qeyd olunub ki, 2026-cı ildə rayon üzrə 79 kümçü 200 qutudan çox ipəkqurdu toxumu ilə təmin edilib. Barama yetişdirilməsi üçün nəzərdə tutulmuş 2 min 900 kvadratmetr sahə əvvəlcədən dezinfeksiya olunub. Ümumilikdə, cari ildə rayonun müxtəlif yaşayış məntəqələrində bu sahəyə 300-ə yaxın sakin cəlb edilib.



Rayonda ənənəvi sahə olan ipəkqurdularının bəslənilməsi üçün əlverişli yem bazası yaradılıb. Son illərdə həm yerli, həm də Çin Xalq Respublikasından gətirilən tut tingləri əkilərək əhalinin istifadəsinə verilib. Kümçülərə göstərilən dövlət dəstəyi nəticəsində bu sahəyə maraq artıb, məhsuldarlığın yüksəldilməsi istiqamətində mühüm nəticələr əldə olunub.

Dövlət tərəfindən aqrar sahəyə göstərilən diqqət və qayğı rayonda kənd təsərrüfatının inkişafı üçün də geniş imkanlar yaradıb. Subsidiyaların verilməsi, fermerlərin gübrə, yanacaq və kənd təsərrüfatı texnikaları ilə təmin olunması məhsuldarlığın artmasına mühüm təsir göstərib.

Rayonda əkin sahələrinin həcmi genişlənib, fermerlərin iş şəraiti daha da yaxşılaşıb. 2026-cı ilin məhsulu üçün rayon ərazisində, ümumilikdə, 40 min 185 hektar sahədə taxıl əkilib ki, bunun da 23 min 162 hektarını buğda, 17 min 23 hektarını isə arpa sahələri təşkil edir. Rayon üzrə taxıl sahələrində biçin kampaniyasının mütəşəkkil keçirilməsi məqsədilə bütün texnika və işçi qüvvəsi tam hazırlıq vəziyyətinə gətirilib. Hazırda rayonda kənd təsərrüfatı təşkilatlarının, eləcə də fiziki və hüquqi şəxslərin balansında olan 47 ədəd taxılyığan kombaynın hamısı təmir edilərək istismara hazır vəziyyətə gətirilib.

Kombaynların məhsuldar işləməsi üçün xüsusi qrafik hazırlanıb və texnikaların bölgüsü aparılıb. Əkinlərin növbəli şəkildə biçilməsi, yarana biləcək narazılıqların aradan qaldırılması və biçilən məhsulun uçotunun dəqiqləşdirilməsi məqsədilə xüsusi nəzarətçilər təyin olunub. Biçin kampaniyasının vaxtında və itkisiz həyata keçirilməsi üçün aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

***Mikayıl QULİYEV,***
***XQ-nin bölgə müxbiri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 160** **22 may 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 275-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 noyabr tarixli 524 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 68 (Cild I); 2024, № 7, maddə 925; 2025, № 10, maddə 967) ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.13-cü bənd ləğv edilsin.

**2.** 2-ci hissə üzrə:

2.1. 2.6-cı bənddən "və əmək zəmanəti" sözləri çıxarılsın;

2.2. 2.10-cu bənd ləğv edilsin;

2.3. 2.11-1-ci bəndin birinci cümləsində "2.10-cu və 2.11-ci bəndlərində" sözləri "2.11-ci bəndində" sözləri ilə əvəz edilsin.

**3.** Həmin Qaydaya əlavə - "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Tibbi-sosial ekspert komissiyasının Qərarı"nın 4.6-cı bəndi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 161** **26 may 2026-cı il, Bakı şəhəri**

**"İxrac nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İxrac nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1230 (Cild I); 2024, № 1, maddə 116, № 2, maddə 208, № 5 (II kitab), maddə 612; 2025, № 4 (II kitab), maddə 406, № 5, maddə 520, № 10, maddə 993, № 2 (II kitab), maddələr 1233, 1257) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Qərarla təsdiq edilmiş "İxrac nəzarətinin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bəndə "yoxlanılmasından" sözündən sonra ", habelə ixrac nəzarətinə düşən malların "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlar tərəfindən və ya onların xeyrinə ixracına, idxalına, təkrar ixracına, təkrar idxalına, tranzitinə yol verilməməsinə nəzarət edilməsindən" sözləri əlavə edilsin;

1.2. 4-cü hissəyə "nəzarət" sözündən sonra ", habelə müvafiq malların "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlar tərəfindən və ya onların xeyrinə ixracına, idxalına, təkrar ixracına, təkrar idxalına, tranzitinə yol verilməməsinə nəzarət" sözləri əlavə edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş "İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xüsusi icazənin verilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1.1-ci yarımbəndin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"hüquqi şəxslər üçün - hüquqi şəxsin adı, hüquqi ünvanı, təsisçilərinin (fiziki şəxs olduqda), benefisiar mülkiyyətçilərinin, qanuni təmsilçisinin soyadı, adı, atasının adı (olduğu təqdirdə), doğum tarixi, fərdi identifikasiya nömrəsi və ya şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, təsisçilərinin (hüquqi şəxs olduqda) adı, olduğu yer, habelə xüsusi icazənin alınması ilə həyata keçirilən xarici iqtisadi əməliyyatın növü;";

2.2. aşağıdakı məzmunda 2.4.2-1-ci yarımbənd əlavə edilsin:

"2.4.2-1. sifarişçinin, sifarişçi hüquqi şəxs olduqda onun təsisçilərinin, benefisiar mülkiyyətçilərinin, habelə qanuni təmsilçilərinin "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların siyahısına aid olduğu müəyyən edildiyi hallarda;";

2.3. 6.3.7-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 6.3.8-ci yarımbənd əlavə edilsin:

"6.3.8. sifarişçi, sifarişçi hüquqi şəxs olduqda onun təsisçiləri, benefisiar mülkiyyətçiləri, habelə qanuni təmsilçiləri "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların siyahısına daxil edildikdə.".

**3.** Həmin Qərarla təsdiq edilmiş "İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xarici iqtisadi əlaqələrin həyata keçirilməsinə xüsusi icazənin verilməsindən əvvəl və sonra yoxlamaların aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.2.3-cü yarımbəndə "siyahısında olub-olmamasını" sözlərindən sonra ", habelə ərizəçinin (sifarişçinin) və müqabil tərəfin, ərizəçi (sifarişçi) və müqabil tərəf hüquqi şəxs olduqda onların təsisçiləri, benefisiar mülkiyyətçiləri, habelə qanuni təmsilçilərinin "Həfədli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların siyahısında olub-olmamasını" sözləri əlavə edilsin;

3.2. 3.1.1.1-ci yarımbəndin birinci abzasına "istifadə edilməsinə" sözlərindən sonra ", malların son istifadəçisinin, malların son istifadəçisi hüquqi şəxs olduqda onun təsisçiləri, benefisiar mülkiyyətçiləri, habelə qanuni təmsilçilərinin "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların siyahısına daxil olub-olmamalarına," sözləri əlavə edilsin;

3.3. 3.1.1.2-ci yarımbəndə "yetirilməsinə" sözündən sonra ", malların son istifadəçisinin, malların son istifadəçisi hüquqi şəxs olduqda onların təsisçiləri, benefisiar mülkiyyətçiləri, habelə qanuni təmsilçilərinin "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların siyahısına daxil olub-olmamalarına" sözləri əlavə edilsin.

**4.** Həmin Qərarla təsdiq edilmiş "İkili təyinatlı mallardan (işlərdən, xidmətlərdən, əqli fəaliyyətin nəticələrindən) sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarətin həyata keçirilməsi Qaydası"nın 2.1.3-cü yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.1.4-cü yarımbənd əlavə edilsin:

"2.1.4. xüsusi icazə sahibinin və ya ikili təyinatlı malların son istifadəçisinin, xüsusi icazə sahibi və ya ikili təyinatlı malların son istifadəçiləri hüquqi şəxs olduqda onların təsisçiləri, benefisiar mülkiyyətçiləri, habelə qanuni təmsilçilərinin "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların siyahısına daxil edilib-edilməməsinin yoxlanılması.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 162** **2 iyun 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 367 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yerli icra hakimiyyəti orqanlarının strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli 546 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 367 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 928) ilə təsdiq edilmiş "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası"nın 6.4-cü bəndində "ictimai, siyasi və humanitar" sözləri "ərazi-təşkilat və ictimai-siyasi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 167** **4 iyun 2026-cı il, Bakı şəhəri**

**"Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Rəqabət Məcəlləsində, "Sosial sığorta haqqında", "Polis haqqında", "Tibbi sığorta haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnzibati icraat haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 249-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 306 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1175 (Cild I); 2024, № 2, maddə 241; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 8 may tarixli 137 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Elektron icra" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.2-ci bənddə "İcra məmurları haqqında" sözləri "Dövlət icra məmurları haqqında", "Xüsusi icra məmurları haqqında" sözləri ilə əvəz edilsin.

**2.** 2.1.2-ci yarımbənddə "icra məmurları və icra qurumlarının əməkdaşları" sözləri "dövlət icra məmurları, icra qurumlarının əməkdaşları və xüsusi icra məmurları" sözləri ilə əvəz edilsin.

**3.** 6.1.3-cü yarımbəndə "sənədlərinin" sözündən sonra "dövlət" sözü əlavə edilsin.

**4.** 11.3-cü bənddə "icra məmurunun" sözləri "dövlət və xüsusi icra məmurlarının" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 164** **2 iyun 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 11 aprel tarixli 107 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aviasiya personalına şəhadətnamələrin, vəsiqələrin və ya sertifikatların verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 11 aprel tarixli 107 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (I kitab), maddə 395) ilə təsdiq edilmiş "Aviasiya personalına şəhadətnamələrin, vəsiqələrin və ya sertifikatların verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 32.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"32.1. Ərizəçinin müraciəti əsasında Agentlik onun digər üzv dövlət tərəfindən verilmiş şəhadətnaməsini Konvensiya, Konvensiyaya 1 nömrəli Əlavə və "Doc 9379, dövlətin aviasiya personalının sertifikatlaşdırma sisteminin yaradılması və idarə olunması üzrə prosedurlara dair vəsait" sənədinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının aviasiya personalına məxsus şəhadətnaməyə konvertasiya etmək hüququna malikdir.".

**2.** 32.3-cü bəndin üçüncü cümləsi çıxarılsın.

**3.** Aşağıdakı məzmunda 32.4-cü bənd əlavə edilsin:

"32.4. Konvertasiya prosesində Agentlik ərizəçidən onun mövcud şəhadətnaməsinə uyğun olaraq əlavə təlim və ya imtahanlardan keçməyi tələb etmək hüququna malikdir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 165** **3 iyun 2026-cı il, Bakı şəhəri**

**"Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli və "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" 2025-ci il 7 noyabr tarixli 333 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, ölkədə aparılan struktur islahatlarının nəticəsində yaradılan yeni qurumların fəaliyyətə başlaması ilə bağlı onların maliyyə təminatının həyata keçirilməsi, habelə Azərbaycan Respublikası büdcə xərclərinin inzibati təsnifatının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189, № 3, maddə 264; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 6 aprel tarixli 96 nömrəli, 29 aprel tarixli 123 nömrəli, 12 may tarixli 141 nömrəli, 14 may tarixli 145 nömrəli və 15 may tarixli 149 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 33-1-ci, 65-1-ci, 65-2-ci, 77-1-ci, 77-2-ci, 77-3-cü, 119-1-ci, 124-1-ci, 124-2-ci və 124-3-cü hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 33-1. | "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxs | 1645 |
| 65-1. | Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu | 1585 |
| 65-2. | Dövlət büdcəsinin Ehtiyat Fondu | 1586 |
| 77-1. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti | 1632 |
| 77-2. | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyəti | 1635 |
| 77-3. | Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti | 1913 |
| 119-1. | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi | 1288 |
| 124-1. | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Geodeziya və Kartoqrafiya Agentliyi | 1811 |
| 124-2. | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi | 1815 |
| 124-3. | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Azərbaycan Respublikasında Kiçik və Orta Biznesin İnkişafı, İnvestisiyaların və İxracın Təşviqi Agentliyi | 1816 |

1.2. 154-cü hissə ləğv edilsin;

1.3. aşağıdakı məzmunda 161-1-ci, 161-2-ci, 161-3-cü, 162-1-ci, 163-1-ci, 163-2-ci hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 161-1. | "Media Mükəmməllik Şəbəkəsi" qeyri-kommersiya təşkilatı | 1644 |
| 161-2. | Azərbaycan Dövlət Su ehtiyatları Agentliyinin tabeliyində "Su və Meliorasiya üzrə Layihələndirmə və Elmi Tədqiqat İnstitutu | 1831 |
| 161-3. | Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatat və Dendrologiya Bağı" Məhdud Məsuliyyətli Cəmiyyəti | 1836 |
| 162-1. | "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Rəqəmsal Maliyyə Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti | 1844 |
| 163-1. | "Radio-Televiziya Yayımı və Peyk Kommunikasiyası" Məhdud Məsuliyyətli Cəmiyyəti | 1902 |
| 163-2. | Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Sahibsiz Heyvanlara Qayğı Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti | 1930 |

1.4. 194-cü və 196-cı hissələr ləğv edilsin;

1.5. aşağıdakı məzmunda 200-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 200-1. | Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi Sığorta və Ekspertiza Agentliyi publik hüquqi şəxs | 1643 |

1.6. 201-ci hissə ləğv edilsin;

1.7. aşağıdakı məzmunda 203-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 203-1. | "Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi" publik hüquqi şəxs | 1833 |

1.8. 224-cü hissə ləğv edilsin;

1.9. aşağıdakı məzmunda 224-1-ci və 225-1-ci hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 224-1. | Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində "Milli İdman Tibb və Reabilitasiya Elmi-Praktiki İnstitutu" publik hüquqi şəxs | 1920 |
| 225-1. | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs | 1929 |

1.10. 226-cı hissə ləğv edilsin;

1.11. 246-cı hissəyə "yaradılması" sözündən sonra "və idarə edilməsi" sözləri əlavə edilsin;

1.12. aşağıdakı məzmunda 251-1 - 251-8-ci hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 251-1. | Beynəlxalq və regional təşkilatlara üzvlük haqqı və maliyyə institutlarının (maliyyə-kredit təşkilatlarının) səhm kapitalında iştirak | 1579 |
| 251-2. | Beynəlxalq fəaliyyət və bu qəbildən olan digər tədbirlər | 1580 |
| 251-3. | Xarici yardımlar | 1581 |
| 251-4. | Aqrar sığorta haqlarının dövlət büdcəsi hesabına ödənilməsi ilə bağlı xərclər | 1582 |
| 251-5. | Məhkəmə qərarlarının icrası, məhkəmə prosesləri ilə bağlı göstərilən hüquqi yardım | 1583 |
| 251-6. | Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması | 1584 |
| 251-7. | Xarici investisiya hesabına elektrik enerjisinin alqı-satqısı üzrə xüsusi ehtiyat hesabının formalaşdırılması | 1587 |
| 251-8. | Valyuta konvertasiyası | 1588 |

1.13. 284-cü hissədə "yardımlar və bununla" sözləri "yardımlarla" sözü ilə əvəz edilsin;

1.14. 294-cü hissə ləğv edilsin.

**2.** "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 noyabr tarixli 333 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 11, maddə 1084) 6-cı hissəsində "4.6-4.8-ci" sözləri "4.7-ci" sözləri ilə və "4.24-cü" sözləri "4.23-cü" sözləri ilə əvəz edilsin.

**3.** Bu Qərar 2026-cı il 1 yanvar tarixindən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Təqvim yada salır

# Xuraman Qasımova: Opera və dram



**Bu yazıya başlıq olaraq Rixard Vaqnerin məşhur “Opera və dram” traktatının adını təsadüfən seçmədik. Böyük alman bəstəkarı bu ifadədə sadəcə, musiqi ilə səhnənin vəhdətini deyil, insan ruhu ilə dolu, daxili konflikt və taleyin, mübarizə və qalibiyyətin sənət vasitəsilə üzə çıxdığı xüsusi məkanı ehtiva edirdi. Amma Xuraman Qasımovadan bəhs edən yazıda bu ad istər-istəməz fərqli, demək olar ki, dərin şəxsi mənanı əks etdirir.**

O, parlaq yaradıcılıq yolu ilə yanaşı, əsl dramatik həyat yolu da keçib - çətin sınaqlar, itkilər, uzun illər xəstəliklə mübarizə və onun təkrar-təkrar tamaşaçıların yanına qayıtmasına imkan verən heyrətamiz mətanət...

Xuraman xanım deyir: “Mənim həyatım royalın qara və ağ dilləri kimidir. İtkilərlə yanaşı, sevinc bəxş edən nailiyyətlərim də olub, zəfər və xoşbəxt anlar yenidən səhnəyə çıxa bilmək imkanı uğrunda uzun mübarizə dövrləri ilə əvəz olunub”.

Bu yazıda görkəmli müğənninin keçdiyi parlaq və eyni zamanda, çətin yol haqqında tam səmimi söhbət açıram.

## Sərhəd. Qara Yanvar

1990-cı illərin əvvəli SSRİ-nin dağılması ərəfəsində 20 Yanvar faciəsini yaşayan ölkəmiz üçün əvvəlki dövrün başa çatması vaxtı idi. Xuraman Qasımova üçün bu, həm də şəxsi dram dövrü, əvvəlki həyatı ilə yeni - çətin sınaqlarla dolu həyatı arasında ağır savaş dövrünə çevrildi... O vaxt hamilə – doğuş ərəfəsində olan Xuraman eyvandan əsgərlərə qışqırırdı ki, insanlara atəş açmasınlar: “Axı biz bir torpağın, bir ölkənin övladlarıyıq!”...

Fevral ayında o, çoxdan gözlənilən ilk övladının dünyaya gəlməsini gözləyirdi. Lakin həmin ildə baş verən, ağır stresə səbəb olan hadisələr bədbəxtliyə gətirib çıxardı. Ona heç vaxt analıq xoşbəxtliyini yaşamaq nəsib olmadı... Onu musiqi, oxumaq, ecazkar səsi xilas etdi. Onun güc mənbəyi, hər dəfə həyata qaytaran yalnız səsi idi...

1991-ci ildə Xuraman Qasımova Rauf Abdullayevin dirijorluq etdiyi kamera orkestri ilə birlikdə Misirə qastrol səfərinə getdi və Qahirəni, sözün əsl mənasında, fəth etdi. Müğənni üçün yeni beynəlxalq perspektivlər açan sərfəli müqavilə təklif edildi. Evdəki təcili işləri başa çatdırmaq üçün Bakıya qayıtdı.

Sonra... dəhşətli xəbər gəldi... Şiş kiçik idi. Amma təcili əməliyyat lazım idi. Qahirə əvəzinə, Moskvada, “Kaşirka” xəstəxanasında aylarla davam edən üzücü müalicə başlandı.

Bir il sonra o, yenidən qastrol səfərinə çıxdı, bu dəfə bacısı Fidan Qasımova ilə birlikdə ABŞ-a getdi. Həyat, sanki tədricən adi məcrasına düşürdü. Amma xəstəlik yenidən baş qaldırdı. Bakı Onkoloji Mərkəzində əməliyyatı uğurla həyata keçirən akademik Cəmil Əliyev o vaxtdan Xuraman Qasımovanın xilaskarına çevrildi və tezliklə Hyustona uzun səfərdə onu müşayiət etdi.

Məsələ burasındadır ki, həmin vaxt AMOCO neft şirkətinin Avrasiya ölkələri üzrə sədri Robert Blanton Bakıda idi. Blanton rəhbərlikdən Xuramanın diaqnozunu öyrənəndə dərhal onun və Fidanın Amerikadakı parlaq çıxışlarını xatırladı. Müvafiq sənədlər hazırlanan kimi o, şəxsi təyyarəsi ilə Xuramanı Cəmil Əliyevlə birlikdə ABŞ-a, Hyustona apardı. O burada müalicə olunmaq üçün ixtisaslaşmış tibb müəssisələri arasında bu günə qədər dünyada ilk yerlərdən birini tutan məşhur “M.D. Anderson” Xərçəng Mərkəzinə yerləşdirildi...

## Xoş gəlmisən, Xuraman!

Onun Bakıya qayıtmasını yaxşı xatırlayıram. Bu, təkcə Vətənə qayıdış deyil, həm də “Xoş gəlmisən, Xuraman!” konserti ilə yadda qalan səhnəyə dönüş idi. Dövlət Filarmoniyasında təşkil edilən bu konsert, sadəcə, musiqi tədbirinə deyil, əsl təntənəyə, milli sevginin, ümidin, insan xoşbəxtliyinin təzahürünə çevrildi.

Xuraman, sanki təkcə xəstəliyi deyil, taleyin özünü də məğlub etmişdi! Tamaşaçılar konsertin necə keçəcəyini, Xuramanın səsinin necə çıxacağını hələ bilmirdilər. Onlar, sadəcə, müğənnini alqışlamaq, yenidən səhnədə dayandığına görə sevinclərini ifadə etmək üçün gəlmişdilər.

Həmin axşam o, heç vaxt olmadığı kimi oxudu. Sanki bu 3 çətin ildə yaşadıqlarının üstündən xətt çəkirdi. Onun səsi, sanki yeni güc qazandı, xüsusi ifadəlilik və məzmunla doldu. Bundan sonra onun Aidası inanılmaz dramatik dərinliyi ilə səsləndi, Tatyanası obrazın görünməmiş bütövlüyü ilə ovsunlandı, Muzettası daha parlaq təsir bağışladı. O, xəstəliyə qalib gələcəyinə inanırdı və bundan sonra bütün həyatını səhnəyə və tələbələrinə həsr etməyi qərara aldı...

...1970-ci illərin sonu - 1980-ci illərin əvvəli Qasımova bacılarının sürətli yüksəliş dövrü oldu. 1977-ci ildə Fidan Qasımova İtaliyada keçirilən Viotti adına nüfuzlu Beynəlxalq Müsabiqədə parlaq çıxış edərək birinci mükafata layiq görüldü. Bu, Azərbaycan üçün əsl sensasiya oldu. Tezliklə Fidan xanım Azərbaycanın Əməkdar artisti, 1982-ci ildə Xalq artisti, 6 ildən sonra isə SSRİ Xalq artisti fəxri adlarına layiq görüldü.

Xuraman Qasımovanın yolu daim parlaq olub. 1977-ci ildə o, Sovet İttifaqında ən nüfuzlu müsabiqələrdən hesab edilən İfaçı musiqiçilərin Zaqafqaziya müsabiqəsinin laureatı oldu. Bu müsabiqənin qaliblərinin çoxu sonradan dünya səviyyəsində tanınıb. Həmin ilin payızında müğənni Daşkənddə keçirilən vokalçıların Qlinka adına VIII Ümumittifaq müsabiqəsinin laureatı adını qazandı. 1981-ci ildə isə Mariya Kallas adına beynəlxalq müsabiqədə birinci mükafata və Qran-priyə layiq görüldü.

Xuraman xanım xatırlayır: “O vaxt belə uğurlar Olimpiya oyunlarının qızıl medallarına bərabər idi. Qeyri-təvazökarlıq kimi səslənsə də, deyə bilərəm: digər vokalçılarımızın beynəlxalq müsabiqələrdə iştirakına yol açan biz olduq. Bu yolu birinci keçən biz olduq. SSRİ-də inanılmaz dərəcədə ciddi seçim –uzun dinləmələr və təsdiqləmələr sistemi var idi. Rusiya professorlarının süzgəcindən keçmək son dərəcə çətin idi. Xüsusən ona görə ki, həmin vaxt Vladimir Atlantov, Yelena Obraztsova, Tamara Sinyavskaya, Tamara Milaşkina və bu fonda onlardan əsla geri qalmayan Fidan Qasımova parladı”.

1982-ci ildə Xuraman Qasımova Çaykovski adına VII Beynəlxalq müsabiqənin gümüş mükafatçısı oldu. Bu, həmin illərdə dünya musiqisinin zirvəsi sayılırdı. Həmin il ona Azərbaycan SSR-in Əməkdar artisti fəxri adı verildi, iki ildən sonra Qasımova bacıları Dövlət mükafatına layiq görüldülər. 1986-cı ildə isə cəmi 35 yaşında olan Xuraman Qasımovaya Azərbaycanın Xalq artisti fəxri adı verildi.

## İntibah dövrü

Xuraman xanım deyir: “Ulu öndər Heydər Əliyev həmişə bizə dəstək olub, bizimlə fəxr edib. Bakıda və ya Moskvada elə bir hökumət konserti olmurdu ki, orada biz çıxış etməyək. Yadımdadır, Kremlin Sütunlu salonunda konsertlərin birindən sonra SSRİ mədəniyyət naziri Pyotr Demiçev Heydər Əliyevə dedi: “Sizin necə də möhtəşəm müğənniniz var - Fidan Qasımova! Biz onu Böyük Teatra dəvət etmək istəyirik. Onun bacısı da var. Bəlkə, ikisini də dəvət edək”.

Heydər Əliyev isə belə cavab verdi: “Mən bu qızları sizə verməyəcəyəm. Biz də onları çox sevirik. Siz Tahir Salahovu, Müslüm Maqomayevi, Əjdər İbrahimovu bizdən aldınız. Sizdə bizim kadrlarımız kifayət qədərdir. Buyurun, onları Böyük Teatra qastrol tamaşalarına dəvət edin, amma onlar evə, bizim yanımıza qayıdacaqlar”.

Bu dahi insan yaradıcı adamları həmişə Vətəndə qoruyub saxlamağa çalışırdı. O hesab edirdi ki, insanlar, ilk növbədə, öz milli məktəbinə xidmət etməlidir.



1993-cü ilin iyununda ali kürsüyə qayıtdıqdan sonra Heydər Əliyev bizim harada olduğumuzu soruşub. Cavab veriblər ki, biz Türkiyədə yaşayırıq, orada işləyirik. O deyib: “Mən istəyirəm ki, bütün yaradıcı adamlarımız, o cümlədən Qasımova bacıları evdə olsunlar”.

Sonra əsl İntibah başladı. Çətin dövr idi: böyük bir ölkənin dağılması, müharibə, iqtisadi və siyasi böhran. Belə təsəvvür yaranırdı ki, insanların incəsənətlə maraqlanmağa vaxtı yox idi, amma Heydər Əliyev bütün sahələrdə eyni vaxtda bərpa prosesinə başladı. Bu işdə Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi “Azərbaycan mədəniyyətinin dostları” Fondu da mühüm rol oynadı, milli incəsənətə, yaradıcı ziyalılara fəal dəstək oldu.

1997-ci ildə ikimiz də Bakıya qayıtdıq. İlk konsertimizi xatırlayıram. Salonda qeyri-adi bir energetika vardı. Hiss edirdik ki, insanlar mədəni həyat üçün, bizim konsert ənənələrimiz üçün darıxıblar. “Qızıl üzük” romansının ifası zamanı, demək olar ki, bütün tamaşaçıların gözləri yaşla doldu... O vaxtdan biz heç yerə getməmişik, kadrlar yetişdirmişik, çoxlu tələbələrimiz var. Heydər Əliyevə söz verdiyimiz kimi, özümüzü bütünlüklə Azərbaycan vokal sənətinin inkişafına həsr etmişik”.

## Dünyanın astanasında

Təbii ki, onlar hökumət konsertlərində parlaq çıxışlar edir, Azərbaycan mədəniyyətini xaricdə təmsil edir, müxtəlif ölkələrdə keçirilən Azərbaycan Mədəniyyəti Günlərində iştirak edirdilər. Bununla belə, mənə elə gəlir ki, dünya opera aləmi hələ də Fidan və Xuraman Qasımova bacılarını, onların istedadını həqiqi mənada kəşf edə bilməyib. Fidan xanım müsahibələrinin birində təəssüflə etiraf edib: “Ümumiyyətlə, dünya məni və Xuramanı tanımadı. Biz dünyanın astanasında idik”.

...Onların dünya opera səhnəsi ilə dialoqunun baş tutmamasının səbəbini öyrənmək istədik. Xuraman xanım dedi:

– Vəziyyəti özünüz təsəvvür edin. 1992-ci ildə Rusiyada Azərbaycan Mədəniyyəti Günləri keçiriləndə məni Moskvada kimyəvi terapiya aldığım xəstəxanadan götürüb birbaşa “Krasnaya strela” qatarına mindirdilər. Sankt-Peterburqa gəldim və Yekaterina sarayında bir neçə ariya ifa etdim. O vaxt şəhərin meri Anatoli Sobçak çox məmnun oldu. Bundan istifadə edən Polad Bülbüloğlu (o illərdə mədəniyyət naziri) Valeri Qerqiyevdən (Mariinski teatrının baş dirijoru) məni dinləməyi xahiş etdi. Onun kabinetində Aidanın ariyasını oxudum. Sonra Qerqiyev dedi: “Ay yarımdan sonra qastrol səfərinə gedəcəyik. “Fiqaronun toyu” operasından qrafinyanın partiyasını öyrənin”. Onun xəbəri yox idi ki, mən xəstəyəm, faktiki olaraq, hazırda onkoloji mərkəzdə yatıram. Bu, çox böyük risk idi...

Başqa bir imkan 1997-ci ildə ABŞ-da yarandı. O vaxt Fidanla birlikdə məşhur “Columbia Artists” agentliyində dinləmələrdə iştirak etdik və mənə dərhal “Metropoliten opera”da “Aida”nı oxumağa təklif etdilər. Lakin debütün hazırlanması və sonrakı təşviqi ciddi maliyyə xərcləri tələb edirdi: təxminən 30 min dollar. Məndə isə bu məbləğ, sadəcə, yox idi. Bundan əlavə, mənə Vaşinqtonda, Fidana isə Baltimorda çıxış etmək təklif olundu. Amma biz bir-birimizə o qədər bağlı idik ki, müxtəlif səhnələrdə və müxtəlif şəhərlərdə işləmək variantlarını istisna edirdik.

Almaniyada, daha sonra Fransada da müqavilə bağlamaq imkanları var idi, amma müəyyən məqamda çəkindim: xəstəliyin geri dönməyəcəyinə zəmanət yox idi. Mən isə heç bir yerdə özümü evdəki qədər təhlükəsiz və rahat hiss etməmişəm. Burada mənim arxamda ölkəm dayanıb, doğma torpaqdan güc alıram.

## Polad iradəli əsgər kimi...

...2009-cu ildə xəstəlik özünü bir daha göstərdi. Həmin il Xuraman üçün xüsusilə ağır keçdi: yeganə qardaş Əlibəy xəstələndi. Bacılar ona diqqət göstərir, Türkiyənin ən yaxşı xəstəxanalarında müalicə etdirirdilər. Lakin onu xilas edə bilmədilər. 2009-cu ilin sentyabrında Əlibəy vəfat etdi.

Xuramanın xəstəliyi yenidən şiddətləndi və o, əməliyyat üçün Berlinə getdi: “Akademik Cəmil Əliyevə, məni müalicə edən həkimimə çox minnətdaram. O, ölkəmizin rəhbəri ilə, Heydər Əliyev Fondu ilə əlaqə saxladı. Çox qısa müddətdə müsbət cavab gəldi. Nəticədə, cərrahiyyə əməliyyatı və sonrakı bərpa dövlət səviyyəsində həll edildi”.

Müalicə uğurla keçdi və bir müddət sonra Xuramanı yenidən gördük. O (artıq neçənci dəfə!) həyata, işə və tələbələrinin yanına qayıtmaq üçün özündə güc tapdı. Polad iradəli əsgər kimi...

Bu yaxınlarda mənim xahişimlə Xuraman xanımla görüşdük. O, indi özünü yaxşı hiss etmir və kənar adamlarla əlaqəni minimuma endirib. Amma məni qəbul etdi. Mən ona “Heydər Əliyev və yaradıcı ziyalılar” adlı ikicildlik kitabımın Azərbaycan dilində yeni nəşrini verdim. İkinci cilddə Qasımova bacıları ilə iki böyük müsahibəm var. Sonra söhbətimizi diktofona yazdım. Bu söhbəti bütünlüklə təqdim edirəm. Çünki bu gözəl qadının fanatları və pərəstişkarları ordusu onun uzun müddət susmasının və ictimaiyyət qarşısına çıxmamasının səbəbini bilməlidir:

– Bilirsən, sən əsl qəhrəmansan – “Səhnə qəhrəmanı!” Belə bir fəxri ad olsaydı, sənə verərdim. Bəs necə? Səslənir! Bunun necə mümkün olduğunu təsəvvürə də gətirə bilmirəm: yorucu kimyəvi terapiya seansları, şüa terapiyası və demək olar ki, dərhal səhnəyə qayıtmaq. Kimyəvi terapiya və səhnə... demək olar ki, uyğun gəlməyən şeylər.

– Bu sözlər mənə aid deyil. Bilirsənmi nə üçün? Çünki səsim həmişə yanımda idi. 2009-cu ildə müalicə olunduqdan sonra sağaldım, lakin 10 il sonra koronavirusa tutuldum. Üstəlik, mənə peyvənd vurulmuşdu. Bir müddət sonra vəziyyətim ağırlaşdı, məlum oldu ki, ağciyərlərim zədələnib, səs tellərinə gedən sinir “yatıb”. İndi onlar iflic olublar...

3 həftədə bir dəfə kimyəvi terapiya üçün Türkiyəyə gedirəm. Artıq 11 seans keçirmişəm. Hələ nə qədər qaldığını bilmirəm, amma ümidimi itirmirəm...

Ölkəmdən böyük dəstək hiss edirəm. Mən ilk növbədə, Cəmil Əzizoviçin rəhbərlik etdiyi Azərbaycan Milli Onkologiya Mərkəzində 40 ilə yaxındır məni müşahidə altında saxlayan və xilas edən həkimlərimə, məni müalicə edən həkim Elçin Mansurova çox minnətdaram. Mən həm də Heydər Əliyev Fondunun böyük himayəsini hiss edirəm. Ona görə də bütün bu illər ərzində məni izləyən və nəhayət, ürəyimdən vuran, məni əsas sərvətimdən – səsimdən məhrum edən dəhşətli xəstəliklə mübarizə apara bilirəm. Amma o, məni yaşamaq əzmindən və hər şeyin yaxşı olacağına ümid bəsləməkdən məhrum etmədi...

Təbii ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya, onun bütün müavinlərinə, katibliyə səmimi təşəkkürümü ifadə etməyə bilmərəm. Və əlbəttə, dövlətimizin başçısı İlham Əliyevə minnətdaram.

– Sənin hekayətin tamamilə möhtəşəmdir, əziz dostum. 30 ildən artıqdır ki, ölümcül xəstəliklə mübarizə aparmaq, saysız-hesabsız kimyəvi terapiya seansları və digər mürəkkəb manipulyasiyalar. Sonra evə qayıtmaq, xoşbəxt bir təbəssümlə səhnəyə çıxmaq və oxumaq. Bu, böyük hünərdir!

– Bütün bunların mənim üçün nəyə başa gəldiyini yalnız Fidan bilir. Və yenə də özümü xoşbəxt insan hesab edirəm...

– İnanırıq ki, sənin səsin də qayıdacaq. O, artıq qayıdır...

## Təbrik və dua

...Bunun, həqiqətən, belə olub-olmadığını deyə bilmərəm, amma mənə elə gəlir ki, bugünkü cəmiyyət əvvəlkindən daha biganə olub. Əvvəllər insanlar xəstəliklərini gizlətmirdilər. İndi isə xəstə olmaq, sanki qəbahətdir...

Hər halda, mən öz dostlarımın, tanışlarımın xəstələnməsindən təsadüfən, bir qayda olaraq, sonra xoşbəxtlikdən, onların həyat və sağlamlığı üçün təhlükə artıq sovuşandan sonra xəbər tuturam.

Dünya daralıb, yaxınlaşıb, əlçatan olub, insanlar isə əksinə, sanki bir-birindən uzaqlaşıblar. Amma bizim adət-ənənələrimizdə heç vaxt belə olmayıb...

Buna görə də sevimli, görkəmli müğənnimizə və sadəcə, heyrətamiz dərəcədə güclü qadına dözüm, əzm və səbir arzulayaraq əlavə etmək istərdim ki, o, həqiqətən tək deyil. Biz hamımız onun arxasındayıq, onun arxasında dəyərli Prezidentimiz İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva dayanıb. Bütün ölkəmiz onun arxasındadır!

**Ad günün mübarək, əziz Xuraman!
Tanrı səni qorusun!**

*Elmira AXUNDOVA,
Azərbaycanın Xalq yazıçısı*

# "Düşmənə qarşı tək" döyüşmüş qəhrəman






**Nizami Kino Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımova həsr olunmuş və süni intellekt texnologiyaları vasitəsilə hazırlanmış "Düşmənə qarşı tək" qısametrajlı filminin təqdimatı keçirilib.**

Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Qəhrəmanın ailə üzvləri, şəhid ailələri, incəsənət xadimləri iştirak ediblər. "SOY" Production şirkətinin və layihənin rəhbəri, Əməkdar artist Dilarə Əliyeva filmin şirkətin nəzdində hazırlanmış üçüncü süni intellekt filmi olduğunu deyib:

– Burada real aktyorlar oynamasa da, real rejissor meydançada olmasa da, real operator işləməsə də, real səs rejissoru çalışmasa da, real qrim ustası aktyorları qrim etməsə də, film çox realdır. Bizim niyyətimiz Milli Qəhrəmanımız Natiq Qasımovun haqqını verməkdir. Natiq Qasımov Mingəçevirdə kinoteatrda kino mexaniki işləyib. Onun kinoya böyük marağı olub. Əminəm ki, bu gün onun ruhu bizimlədir. Filmin ərsəyə gəlməsində bizə göstərilən dəstəyə görə Bakı Media Mərkəzinə, xüsusilə onun rəhbəri Arzu Əliyevaya minnətdarıq.

Filmin ssenari müəllifi, süni intellekt üzrə mütəxəssis Sarvan Hüseyn Natiq Qasımovla bağlı film çəkməyin ən böyük arzularından biri olduğunu və bunu reallaşdıra bildiyi üçün qürurlandığını qeyd edib:

– Natiq Qasımovla bağlı məlumatların bir çoxunu internet resurslarından əldə etdikdən sonra Mingəçevirə yola düşdüm. Qəhrəmanın ailə üzvləri mənə bu işdə çox dəstək oldular. Filmdəki bütün kadrlarda Xocalıdan götürülmüş səhnələr süni intellekt vasitəsilə daha real vəziyyətə gətirilib. Demək olar ki, 80 faiz səhnə bir reallığı əks etdirir. Süni intellektlə hissi ötürmək çətin olsa da, bunu etməyə çalışmışam. İnanıram ki, filmdə Natiq Qasımovun qəhrəmanlığını, şücaətini çatdıra bilmişəm.

Natiq Qasımovun 5 gün – 5 gecə ac-susuz, köməksiz şəkildə müqəddəs amalını yerinə yetirdiyini diqqətə çatdıran filmin redaktoru Fariz Əliyev bu gün Azərbaycan xalqının onu Milli Qəhrəman kimi böyük ehtiramla yad etdiyini deyib:

– Natiq Qasımovun həyat hekayəsinə nəzər salarkən qürurlanırıq ki, onun kimi neçə belə qəhrəmanla bir xalqın, bir torpağın nümayəndəsiyik. Həmin qəhrəmanlar bu gün bizim aramızda olmasalar da, onların uğrunda canlarını qurban verdikləri Vətən torpağı artıq bütövləşib. Bu cür oğulların hər biri ilə fəxr edirik.

Daha sonra film nümayiş olunub. Süni intellekt texnologiyaları ilə hazırlanan 25 dəqiqəlik ekran əsəri onun döyüşlərə qatıldığı gündən son anlarınadək uzanan qəhrəmanlıq salnaməsini təsirli şəkildə canlandırır. Film boyunca Vətənə bağlılığın, əyilməz iradənin və fədakarlığın necə böyük bir insan taleyinə çevrildiyini görmək mümkün olur. Ekranda canlanan hər səhnə, Natiq Qasımovun şərəfli döyüş yolu, üzləşdiyi çətinliklər, onun şücaəti tamaşaçıya dərin təsir bağışlayır.

Nümayişdən sonra şəhidin ailə üzvləri adından çıxış edən qardaşı Nofəl Qasımov Natiq Qasımovla bağlı xatirələrini bölüşərək deyib:

– Natiq kinomexanik işləyəndə məni özü ilə müharibə, döyüş filmlərinə baxmağa aparırdı. Deyirdi ki, bax, gör necə oğullar var, yəqin, nə vaxtsa mən də belə qəhrəman olaram. Bu gün burada Natiq Qasımovla birlikdə döyüşüb şəhid olan 6 qəhrəmanın da ailə üzvləri iştirak edirdilər. Film hər birimizi kövrəltdi, həmçinin çox qürurlandırdı. Filmin ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdaram.

*XQ*

# "Biləsən ki, gəlmişdim…"

**Uzun illər polis orqanlarında xidmət etmiş, Birinci Qarabağ müharibəsinin iştirakçısı, hazırda təqaüddə olan polkovnik, Azərbaycan Respublikası "Polisə dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev redaksiyamızla sıx əlaqə saxlayan müəlliflərdəndir. Onun oğlu – Dövlət Sərhəd Xidmətinin leytenantı Səbuhi Əliyev 2002-ci ildə xidməti vəzifəsini yerinə yetirərkən həlak olub.**




Şəmsəddin müəllimin bu dəfə bizə təqdim etdiyi essesində oğlunun məzarını növbəti dəfə ziyarət edərkən yaşadığı hüznlü duyğuları qələmə alıb. "Biləsən ki, gəlmişdim…" adlı qəlb yanğısını oxuculara təqdim edirik:



Bu gün – sənin doğum günündə ziyarətinə gəlmişdim… 47 il də ömrümüzdən belə köç edib didərgin düşdü. Hər il noyabr ayının 18-i isə "şəhidlər ordusuna" qovuşduğun bir gündür....

Dövlət sərhədinin mühafizəsi ilə bağlı xidmətinin son günlərində mənə bir məktub da göndərmişdin… Ayrılığın addımları ürəyinə dammışdı, bəlkə də. Mən isə sənin yazdıqlarını çox gec cavablandırmışdım. İllər yel kimi elə ötmüşdü ki…

Əzizim! Mən, artıq son Peyğəmbərimizin ömrünü yaşamış insanlardanam…

Əgər Allah mənə bir az da ömür bəxş etsəydi, düşündüklərimi heç vaxt, heç kimə söyləməz və hər söylədiyimi də öncədən düşünüb danışardım... Ətrafımda gördüklərimə və hər şeyə dəyər verərdim.

Daha çox səni yuxularda görmək üçün dərin röyalara dalardım. Əlimdə günəş boyda bir gül dəstəsi tutub səni qarşılayardım… Başqaları yatsın deyə, səssiz-səmirsiz dolanar, onların təhlükəsizliyi naminə qaydaları qorumaq üçün oyaq qalardım…

Danışan hər kəsi dinləyərdim... Əgər Allah mənə bir qədər də imkan versəydi, səni oxşayacaq, sadə və səliqəli zövqünə uyğun geyinərdim. Sonra Uca Allahın dərgahına əl açıb, heç bilirsən nəyi diləyərdim?!

"Allahım, yer üzündə yaratdığın insanların qəlblərində yuva salmış bütün kin-küdurəti, nifrəti və düşmənçiliyi bir parça buzun üzərində yazıb, Səndən Günəşin çıxmasını istəyirəm", – fikrimi dilə gətirərdim. Günəşin hərarəti, yəqin ki, yazılanları buzla birlikdə əridib axan su ilə yox edəcəkdi…

İmkanım olsaydı, Allahın ərməğan etdiyi ömrümün kiçik bir anını belə sənsiz keçirməz, səni çox istədiyimi qapı-qapı düşüb bütün yer kürəsinə söyləmədən yatmazdım... Allahdan özümüzə Mələklər ordusuna bəxş edilən qanad verməsini istərdim. Uça bilmək ixtiyarını da, yəqin ki, O bizə verəcəkdi! Daha yerdə yox, uzaq bir səmavi məkanda, xətadan, bəladan uzaq bir guşədə məskunlaşardıq…

Bu dünyadan və səndən sonra o qədər şey öyrəndim ki?! Xoşbəxtliyi oğurluq və etibardan sui istifadə yolu ilə pul qazanmağa bərabər tutanları da çox gördüm…

Uşaq ikən hər dəfə ayaqlarını yerə basanda əllərimin sənə dayaq olacağını kövrək uşaq ağlınla anlayıb, məndən kənara çəkilməyə cürət etməzdin. Kaş, bu gün də, sənə dəstək verəcəyimə inanaydın… Bu həyatda səndən sonra öyrəndiklərimi heç kimə öyrədə bilmədiyimə çox heyifslənirəm….

Sənin üçün dualarıma davam edirəm. Deyirlər: – Allahın dua qapılarının bağlı vaxtı heç zaman olmur, yetər ki, dualarını edəsən, mələklər ünvana çatdırır!

Kaş sənin son dəfə bu ocağın qapısından çıxdığın gün bir də təkrarlanaydı, sənə sarılıb buraxmazdım. Səsini əbədiləşdirərdim…

Bizə daha gözəl işlər görmək üçün fürsət verən zamanların da sabahları olur. Amma bir İlahi həqiqət də var ki, bəzən sevdiklərinlə görüşməyə tələsərək hazırlaşdığın sabahlar bir anın içində qara günə dönür.

Bunları yazdım ki, biləsən, əzizim, gəlmişdim…

*Şəmsəddin ƏLİYEV*

# Zəngilanda ruhlar da sevinir

**Prezident İlham Əliyevin mayın 10-da Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşündə şəhid ailələrinin üzvləri də iştirak etmişdilər. Onlardan biri də şəhid əsgər Samir Sarıyevin atası Əli kişi idi.**



Qayıdış prosesini canlı izlədikdən sonra rayon sakinləri ilə söhbət etmək imkanı qazandıq. İlk həmsöhbətimiz Vətən müharibəsinin şəhid əsgəri Samir Sarıyevin atası Əli kişi oldu.

Onun oğlu vaxtilə general Polad Həşimovun əsgəri olub, hərbi xidmətdə nümunəvi davranışına görə dəfələrlə fəxri



fərmanla təltif edilmişdi. 2020-ci ilin payızında 44 günlük Zəfər yürüşündə təcrübəli döyüşçü kimi əsl igidlik nümunəsi göstərib. Füzulinin, Xocavəndin və Cəbrayılın azad olunması uğrunda gedən qanlı savaşda fəal iştirak edib. Oktyabrın 23-də Füzuli rayon Alxanlı kəndi düşməndən təmizlənən zaman həlak olub. Samir Sarıyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Cəsur döyüşçü", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub...

Prezident İlham Əliyev kompleksdə birinci mənzillə təmin olunan Əli Sarıyev açarların təqdimolunma mərasiminin son dərəcə səmimi anlarına toxunaraq dedi:

– Möhtərəm Prezidentimizin qayğıkeşliyi, insanlara yüksək diqqəti və sadəliyi məni valeh etdi. Zəngilan şəhərində oğlumun adını daşıyan küçədə mənzillə təmin edildiyimi eşidəndə özümü nə qədər toparlamağa çalışsam da, bacarmadım. Bunu incəliyinə qədər hiss edən dövlət başçısı qısa söhbətdən sonra mənə kömək göstərilməsini tapşırdı. Prezidentimizə şəhid ailələri başda olmaqla xalqımızın hər bir sakininə göstərdiyi qayğıya və diqqətə görə dərin təşəkkürümü bildirirəm.

Əli kişi ilə müasir şəraitdə bərpa olunan rayon mərkəzində əvvəlcə Samir Sarıyev, sonra isə 28 May küçələrində gəzərək xeyli söhbətləşdik. Oğlunun qəhrəmanlığı, döyüş rəşadəti və Prezident sərəncamları ilə təltif edildiyi çoxsaylı medallarından qürur hissi ilə danışdı.

– Düşmənin tamamilə dağıdaraq talan etdiyi ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərini görəndə ölkəmizin iqtisadi gücünü bir daha hiss edirsən. "Böyük Qayıdış" Dövlət Proqramına uyğun olaraq burada tikilən evlər, məktəblər, sosial binalar, yeraltı və yerüstü qarajlar, mağazalar, konqres mərkəzi, məscid və digər yaşayış və inzibati binalar inkişafımızı əyani surətdə təsdiqləyir.

Köçkünlük həyatımız çox çətin olub. Şükür bugünümüzə, şəhidlər versək də, igidlərimiz yaralansa da, xalqımızın qüruru yüksəldi, düşmən torpaqlarımızdan birdəfəlik qovuldu. İndi danışanda şəhid atası olduğumu, bir vaxtlar işğal altında olan və dağıdılan yurdumuzda tam müasir mənzillərdə yaşadığımızı fəxrlə deyirəm.

Fürsətdən istifadə edib şəhid atasının hazırkı yaşayış şəraiti ilə də tanış olduq. Burada keçmiş məcburi köçkün ailələri üçün hər cür rahat şərait yaradılıb.

*Mikayıl NƏRİMANOĞLU,*
*XQ-nin bölgə müxbiri*

# Doğum günündən bir gün sonra…

**Ürfan Orucov ali təhsilini Bədən Tərbiyəsi və İdman Akademiyasında almış, sonra 2019-cu ilədək orduda xidmət etmişdi. 2020-ci il sentyabrın 27-də səhər televizordan Vətən müharibəsinin başlandığını eşidərək dərhal Səfərbərlik və hərbi xidmətə çağırış üzrə bölməyə gedib. Qısamüddətli hərbi toplantıdan sonra Ürfan birbaşa cəbhəyə qatılıb.**




Qardaşı Ramin Füzuli uğrunda qələbimizlə bitən, Hadrut uğrunda başlanan döyüşlərə qoşulmamışdan bir qədər əvvəl Ürfanla görüşübmüş. Onun belində ağrılar olmasını bildiyi üçün "Bəlkə müalicə olunub sonra döyüşə qoşulasan? – deyə məsləhət görəndə Ürfan qətiyyətlə belə cavab verib:

- Necə? Döyüş yoldaşlarımdan aralanıb hospitalda yatım? Ya torpaq altda yataram, ya da ağır bir döyüş yarası alandan sonra hospitalda...

Ürfan 1996-cı ildə, oktyabrın 9-da Şabran şəhərində doğulmuşdu. Məktəbdə ona tarix fənnini tədris etmiş müəllimi indi danışır ki, Ürfan idmançı olsa da, tarix fənninə çox maraq göstərirdi. Qarabağımızın tarixini yaxşı bilən Ürfan indi bu Vətən torpaqlarının namərd qonşunun, erməni qəsbkarlarının tapdağı altında olmasından çox narahat, həm də qəzəbli idi. Elə buna görə də Ürfan Vətən uğrunda döyüşlərdə ilk könüllü yazılanlardan oldu.

Həmlə-hücum manqasının komandiri olan Ürfan Füzuli uğrunda gedən döyüşlərdə ön xətdə döyüşüb. Cəbrayıl, Xocavənd ərazilərində gedən şiddətli döyüşlərin də önündə olub. Oktyabrın 11-də Hadrut uğrunda qızğın döyüşlər gedən zaman o, əsl idmançı kimi çevik hərəkətlərlə bir neçə yaralı əsgər yoldaşını döyüş meydanından çıxarır. Bu zaman onun komandiri də ağır yaralanır. Komandirini döyüş ərazisindən uzaqlaşdırmaq üçün ona tərəf sürünür. Yaxınlaşıb onu götürmək istəyəndə hər ikisi düşmənin snayper gülləsinə tuş gələrək həlak olurlar. Orucov Ürfan Firdovsi oğlu ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunur...

Şabranlılar öz igid oğullarının xatirəsini əbədiləşdiriblər. Şəhərin küçələrindən birinə onun adı verilib. Yaşadığı evə "Xatirə lövhəsi" vurulub. Ailəsi otaqlarından birində şəhidin qısa ömür yolunu əks etdirən kiçik muzey yaradıb. Ürfan Orucovun ali təhsil aldığı akademiyada da onun xatirəsi həmişə əziz tutulur. Ali təhsil müəssisəsi tərəfindən şəhidin adına xüsusi təqaüd təsis olunub. Yenicə istifadəyə verilmiş auditoriyalardan biri onun adını daşıyır. Şəhidin anım günü burada da ehtiramla qeyd olunur.

...Ata ocağında subay, cavanca Ürfanın balaca otağında – xatirə muzeyində sükuta qərq olmuş divarlara baxıram. Dörd bir tərəfindən onun uşaqlığından şəhid məqamına yüksəlişinəcən fotoları asılıb. Dolablardakı kitabların çoxu ana dilimizin izahlı lüğəti ilə yanaşı tərcümə lüğətləridir. Sən demə, Ürfan poliqlot imiş. Doğma ana dilindən savayı ingilis, alman, fransız, rus dillərini də sərbəst bilirmiş. Və son vaxtlar erməni dilini də öyrənməyə başlayıbmış.

Oktyabrın 9-da ad günü idi. Cəbhədə ad günü keçirmək, əlbəttə, yada düşmür. Cəsur manqa komandiri, gizir Ürfan Orucovu düşmən üzərinə növbəti hücum əmri gözləyirdi. Və ertəsi gün Hadrut uğrunda hücum əməliyyatı zamanı şəxsi heyətin döyüş ruhunu yüksəltmək məqsədilə düşmən səngərinə tək başına hücum edib xeyli sayda canlı qüvvəsini məhv edən Ürfan ağır yaralandı. Hospitalda yatmadı, şəhid kimi torpaq altda yatdı.

*Aydın TAĞIYEV,*
*yazıçı-publisist*

# Şəhid atasına el ehtiramı

**"Mən var-yox bir övladımı bu torpaq, bu xalq, bu millət uğrunda qurban vermiş bir atayam. Güvən yerim də, ümid yerim də bu xalqdır, bu dövlətdir. İtirdiyimizin yerini heç kim və heç nə doldura bilməz. Amma az da olsa, onları yaşada, əbədiləşdirə bilmək bizə rahatlıq verir. Baş leytenant Vüsal Kazımov iki ali təhsil almış, Uşaq Gənclər İdman Məktəbinin direktoru işləmiş, vətənpərvər bir gənc kimi yeganə məmur övladı olub ki, könüllü cəbhəyə yazılıb və şəhid olub. Digər məmur övladları kimi mən uşağımı gizlətməmişəm".**

Bu sətirlərin müəllifi – Astara Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru, Lənkəran Dövlət Universitetinin professoru, şəhid atası Kamran Kazımovdur. Vətənini, xalqını sevən, bu məqsədlə yaşayıb-yaradan əsl ziyalı Kamran Şahverən oğlu Kazımov ucala-ucala ömrünün 65 ilini yola saldı. O, müdriklik zirvəsindən geriyə boylananda ötən illərin hədər getmədiyini, özünün cəmiyyət üçün dəyərli, lazımlı olduğunu görür və bununla ruhən, cismən rahatlıq tapır. Hər işində fədakar ziyalı, ləyaqətli vətəndaş olduğu yaxşı görünür.

Kamran Kazımov Lənkəran rayonunun Yuxarı Nüvədi kəndində boya-başa çatıb. Doğma elində – məzunu olduğu Mais Mirzəcanov adına Yuxarı Nüvədi kənd tam orta ümumtəhsil məktəbində onun yubileyinə həsr olunmuş "Şərəfli ömür yolu" adlı məclis yaddaqalan oldu.

Əvvəlcə Kamran müəllimin nəvələri – şəhid baş leytenant Vüsal Kazımovun övladları Nuray və Aynur musiqi müəllimi Sevin Əliyevanın pianoda müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni oxudular və Vətən yolunda özlərini qurban verən zəfər şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla anıldı.

Lənkəran–Astara Regional Təhsil İdarəsi, Yeni Azərbaycan Partiyası (YAP) Astara rayon təşkilatı, Lənkəran Dövlət Universiteti və Astara Pedaqoji Kolleci təmsilçilərinin, rayon ictimaiyyəti nümayəndələrinin, yubilyarın ailə üzvlərinin, qazi və şəhid ailələrin və digər qonaqların yer aldıqları məclisdə məktəbin direktoru Ramiz Ramazanov Kamran müəllimin uzun illər pedaqoji sahədə qazandığı uğurlardan, yetişdirdiyi kadrlardan həmçinin şəhid atası kimi göstərdiyi mətanət nümunəsindən söz açdı.

Regional Təhsil İdarəsinin müdir müavini Rəhim Rəhimov, YAP Astara rayon təşkilatının sədri Həbib Cəfərov və başqaları da yubilyara ürək sözlərini söylədilər. Natiqlər Kamran müəllimlə birgə fəaliyyətlərindən, təhsilin inkişafına onun verdiyi töhfələrdən və insani keyfiyyətlərindən söz açdılar. Böyük nüfuz sahibi olduğunu da vurğuladılar. Tanrının bəxş etdiyi ömür payını ləyaqətlə yaşayan bu gözəl insana sağlam ömür arzuladılar.

Məclisin bədii hissəsində məktəb şagirdlərinin və Lənkəran şəhər Cəfər Cabbarlı adına 1 saylı Uşaq Musiqi Məktəbi müəllim və şagird heyətinin ifasında şeirlər, musiqi nömrələri iştirakçılar tərəfindən maraqla qarşılandı və dəfələrlə alqışlandı.

Sonda çıxış edən yubilyar Kamran Kazımov ilk növbədə tədbirin yüksək səviyyədə təşkilinə görə məktəb rəhbərliyinə və kollektivə təşəkkür etdi. Daha sonra o, keçdiyi həyat yolundan, müəllimlik fəaliyyətindən və bu yolda qazandığı təcrübələrdən söz açdı, təhsilin insan həyatında oynadığı mühüm rolundan danışdı. Ona göstərilən diqqət və qayğını yüksək qiymətləndirdi, eləcə də tədbirə qatılan hər kəsə minnətdarlığını bildirdi.

*Zəfər ORUCOĞLU,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

*Səhifəni hazırladı:*
*Ə.DOSTƏLİ*
*XQ*

# Şəhid jurnalistin xatirəsi anılıb

**Azərbaycan Dövlət İnformasiya Agentliyində şəhid jurnalist Məhərrəm İbrahimovun xatirəsinə həsr olunan anım mərasimi keçirilib. Mərasimdə sözləri Sevda Əsgərovaya məxsus “Bir Məhərrəm yarası var ürəyimin” və sözləri Elşad Barata aid “Salam, alın yazısı” mahnılarının klipləri təqdim edilib. Həmçinin Məhərrəm İbrahimovun xatirəsinə həsr edilən “Jurnalist ömrünün əbədiyyət nəğməsi” kitabının təqdimatı olub.**





Mərasimdən əvvəl iştirakçılar AZƏRTAC-ın inzibati binasında Məhərrəm İbrahimovun xatirəsinə yaradılmış guşədə onun barelyefi önünə tər gül dəstələri düzüb, şəhidin xatirəsini ehtiramla yad ediblər.

Mərasimdə çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev Məhərrəm İbrahimovun həm peşəkar jurnalist, həm də fədakar bir vətəndaş kimi keçdiyi qısa, lakin şərəfli ömür yolundan söz açıb: “Bu amansız xəbəri ilk dəfə eşidəndə inanmaq çox çətin idi. Bir ümidlə dərhal Məhərrəmin telefon nömrəsinə zəng etdim ki, bəlkə cavab verər, bəlkə xəbər yalandır deyə... Amma təəssüf ki, reallıq çox acı idi. Məhərrəm kimi mərd oğullar canları bahasına qəlbimizdə və tariximizdə silinməz izlər qoyublar”.

AZƏRTAC-ın İdarə Heyətinin sədr müavini Dağbəyi İsmayılov şəhid jurnalistin əziz xatirəsini ehtiramla yad edərək, onun peşə fəaliyyətindəki fədakarlığından və cəsarətindən söz açaraq bildirib: “O, peşəsinə olan sonsuz bağlılığı, fədakarlığı və əməli ilə öz adını tarixə əbədi həkk edib. Bu gün hər birimiz fəxr edirik ki, işğaldan azad olunan müqəddəs torpaqlarımızın hər qarışında Məhərrəmin ayaq izi, alın təri var”.

Milli Məclisin deputatı Rizvan Nəbiyev vurğulayıb ki, Məhərrəm İbrahimovun timsalında öz vəzifə borcunu yerinə yetirərkən, Vətən uğrunda şəhidlik zirvəsinə ucalan bütün mətbuat fədailərinin qəhrəmanlığı xalqımızın yaddaşından heç vaxt silinməyəcək.

Şəhid jurnalistin qardaşı, kitabın müəllifi Əsgər İbrahimov ailələri adından tədbirin təşkilatçılarına və iştirakçılarına dərin minnətdarlığını bildirib. O, nəşrdə Məhərrəm İbrahimovun peşəkar hərbi jurnalist kimi keçdiyi şərəfli yoldan bəhs olunduğunu deyib.

Sonda çıxış edən şəhidin bacısı, “Bir Məhərrəm yarası var ürəyimin“ mahnısının sözlərinin müəllifi Sevda Əsgərova qardaşı ilə qürur duyduğunu vurğulayaraq söyləyib: “Fəxr edirəm ki, Məhərrəm Azərbaycan mətbuatının şanlı və şərəfli məbədi olan AZƏRTAC-da çalışıb. Məhərrəmi bu qədər sevdiyiniz üçün hər birinizə təşəkkür edirəm”.

Qeyd edək ki, işğaldan azad edilmiş Kəlbəcər rayonunda peşə fəaliyyətini yerinə yetirən media nümayəndələrini daşıyan avtomobil 2021-ci il iyunun 4-də saat 11 radələrində Susuzluq kəndi istiqamətində tankəleyhinə minaya düşüb. Ermənistan hərbçiləri tərəfindən basdırılmış minanın partlaması nəticəsində Məhərrəm İbrahimov və AzTV-nin operatoru Sirac Abışov şəhid olublar.

***XQ***

# “Gənc arıçı” layihəsi yekunlaşıb



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Gənc arıçı” layihəsi Yevlax rayonunda uğurla yekunlaşıb.**

Layihə çərçivəsində rayondan müraciət edən 20 gənc ailə seçilərək cari il ərzində xüsusi təlim proqramına cəlb olunub. Təlimlər zamanı iştirakçılara təcrübəli arıçılar tərəfindən həm nəzəri biliklər, həm də praktik bacarıqlar aşılanıb. Proqramı başa vuran iştirakçılara arıçılıq təsərrüfatı qurmaq üçün arı ailələri, pətəklər, arıçı geyimləri, balsüzən aparat və digər zəruri avadanlıqlar təqdim edilib.

Növbəti dövrdə isə layihə iştirakçılarına təsərrüfatlarının inkişafı, məhsuldarlığın artırılması, istehsal etdikləri təbii bal məhsullarının təqdimatı və satışı istiqamətində dəstək göstərilməsi davam etdiriləcək.

Xatırladaq ki, “Gənc arıçı” layihəsi IDEA İctimai Birliyi, Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və ABAD publik hüquqi şəxsin tərəfdaşlığı ilə 2021-ci ildən həyata keçirilir. Bu günədək layihə çərçivəsində ölkənin müxtəlif regionlarında yaşayan 80-dən çox gənc ailəyə arıçılıq təsərrüfatının qurulmasına dəstək göstərilib. Layihənin xüsusi məqamlarından biri də Leyla Əliyevanın ötən dövr ərzində regionlara səfərləri zamanı "Gənc arıçı" layihəsinin iştirakçılarını evlərində ziyarət etməsi, onların təsərrüfatları ilə tanış olması, fəaliyyətləri ilə maraqlanması və dəstək göstərməsidir.

Qeyd edək ki, “Gənc arıçı” layihəsinin əsas məqsədi biomüxtəlifliyin qorunmasında mühüm rol oynayan arıların ölkə üzrə yayılma arealının genişləndirilməsi, arıçılığın ekosahibkarlıq forması kimi regionlarda təşviqi, ekoloji cəhətdən təmiz kənd təsərrüfatı fəaliyyətlərinin dəstəklənməsi və keyfiyyətli təbii bal istehsalının artırılmasıdır.

***XQ***

# Bakı Zooparkında Amur pələngləri dünyaya gəlib

**Bakı Zooloji Parkında biomüxtəlifliyin qorunması istiqamətində sevindirici və mühüm bir hadisə qeydə alınıb. Nəsli kəsilmək təhlükəsi altında olan Amur pələnginin 2 balası dünyaya gəlib.**





Amur pələngi öz yarımnövləri içərisində böyüklüyünə görə birincidir. O, qütb və qonur ayıdan sonra quruda yaşayan üçüncü ən böyük yırtıcı hesab olunur. Təbii arealı əsasən Uzaq Şərqi və Çini əhatə edir. Hazırda bu növ Beynəlxalq Təbiəti Mühafizə Birliyinin "Qırmızı siyahı"sına və Rusiya Federasiyasının “Qırmızı Kitab”ına daxil edilib.

Qeyd edək ki Bakı Zooloji Parkının əsas məqsədi Azərbaycanın “Qırmızı Kitab”ına daxil edilmiş, sayı azalan və nəsli kəsilmək təhlükəsi altında olan heyvan növlərinin qorunub saxlanılması, onların çoxaldılması və yenidən təbiətə buraxılmasıdır.

*7 İyun Ümumdünya Qida Təhlükəsizliyi Günüdür*

# Süfrələrdən ayaq açan ağrı-acılar

## *Sağlam qidalanma düzgün həyat tərzinin önəmli şərtidir*

**Sağlam həyat tərzinin önəmli şərtlərindən biri düzgün qidalanmaqdır. Lakin ən faydalı məhsullar da lazımi qaydada istifadə olunmadıqda təhlükə yarada bilər. Qida təhlükəsizliyi təkcə məhsulların təmizliyi və ya saxlanma şəraiti ilə bitmir, həm də onların tərkibinə, istehsal prosesindən tutmuş süfrəmizə qədər keçdiyi hər mərhələyə xüsusi diqqət yetirilməsini tələb edir.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatlarına əsasən, dünyada hər il, təxminən, 600 milyon insan qida vasitəsilə ötürülən 200 növ xəstəlikdən əziyyət çəkir. Belə yoluxanlar arasında uşaqlar üstünlük təşkil edir. Məlumata görə, dünyada qida mənşəli xəstəliklərə tutulanlar ümumi əhalinin ondabirini təşkil edir. Bu isə hər il 420 min insanın həyatına son qoyur. Məhz beynəlxalq ictimaiyyətin diqqətini bu qlobal problemə yönəltmək məqsədilə hər il 7 iyun dünyada Ümumdünya Qida Təhlükəsizliyi Günü kimi qeyd edilir.

Müasir dövrdə sağlam yaşamaq istəyənlərin ilk üz tutduğu qidalar vitrinləri bəzəyən "dietik" və “şəkərsiz” etiketli məhsullardır. İlk baxışdan tamamilə zərərsiz və faydalı təsir bağışlayan bu qidalar, bəzən orqanizmdə ciddi fəsadlara yol açır. Mütəxəssislərin fikrincə, şəkərsiz tərkib almaq üçün məhsullara qatılan müxtəlif süni dadlandırıcılar və ya əlavə yağlar sağlamlığa təhlükə yaradır.

**Uzun illərdir I tip diabetlə mübarizə aparan 34 yaşlı paytaxt sakini Leyla Məmmədova bu məhsulların yaratdığı fəsadları öz təcrübəsində yaşayanlardandır. Onun sözlərinə görə, ilkin dövrlərdə "şəkərsiz" yazılan məhsulları tamamilə təhlükəsiz zənn edirmiş:**

– Xəstəliyimin ilk illərində mağazalarda üzərində “dietik” və ya “şəkərsiz” yazılan məhsulları görən kimi dərhal alırdım. Elə bilirdim ki, bunları rahatca yeyə bilərəm və qan şəkərim qalxmaz. Amma dəfələrlə belə şokoladları yedikdən sonra şəkərim kəskin yüksəldi və özümü çox pis hiss etdim. Həkimlə məsləhətləşəndə öyrəndim ki, məhsulun tərkibindəki karbohidrat miqdarı adi şokoladdan heç də az deyilmiş. Üstəlik, dadı qorumaq üçün yağ miqdarını o qədər artırırlar ki, insulin vursam da, qan şəkərinin aşağı düşməsi saatlarla çəkdi. O gündən bəri belə qidalardan uzaq dururam.

**II tip diabet diaqnozu qoyulmuş 52 yaşlı Elnur Qasımov da bu cür qidaların həzm sistemində yaratdığı narahatlıqdan şikayətçidir. O, şəkərsiz məhsulların insanda arxayınlıq yaratdığını söylədi:**

– Məndə şəkər bəlası yaşla bağlı ortaya çıxdı. Buna görə də çəki atmalı idim. Çayla içmək üçün xüsusi şəkərsiz peçenyelər almağa başladım. Bu məhsullar insanda yalançı bir təhlükəsizlik hissi yaradır. Elə zənn edirsən ki, şəkərsiz olduğu üçün çox yesən də ziyanı olmaz. Bu səbəbdən bir dəfəyə bir qutu yeyirdim. Nəticədə, həm qanımda şəkər qalxırdı, həm arıqlaya bilmirdim, həm də mədəmdə kəskin ağrılar və köp yaranırdı. Artıq o qidaları almıram. Şirin nəsə istəyəndə isə həkimin tövsiyyə etdiyi mövsümi meyvə yeyirəm, bilirəm ki, təbii qidadır.





**Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri, sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova “zero”, “dietik”, “light”, “yağsız” və “qlütensiz” etiketli məhsulların marketinq fəndi olduğunu söylədi:**

– Son illərdə arıqlamaq istəyən və ya şəkərli diabet kimi xroniki xəstəliklərdən əziyyət çəkən insanlara bu növ qidalar təklif olunur. Sözügedən məhsulların kalorisi az olsa da, tərkibinin keyfiyyəti və sağlamlığa təsiri mütləq yoxlanılmalıdır. Əksər şəkərsiz məhsullarda istifadə edilən aspartam və sukraloza kimi kimyəvi qatqılar orqanizmə yaddır, onlar qaraciyər ilə böyrəyin funksiyasını pozur. Şirinləşdirici olaraq steviya kimi təbii vasitələrdən istifadə edilməsi isə daha təhlükəsizdir.

Ümumdünya Səhiyyə Təşkilatının araşdırmalarına görə, bu maddələr qısa müddətdə öz fəsadlarını büruzə verməsə də, gündəlik və normadan artıq istehlak edildikdə (məsələn, 70 kiloqram çəkisi olan bir şəxsin gün ərzində 1 litrdən çox pəhriz içkisi qəbul etməsi) ciddi risk yaradır. Sağlam insanların bu cür pəhriz məhsullarına ehtiyacı yoxdur. Gün ərzində qadınların 20-25, kişilərin isə 30-35 qram şəkər tələbatı var. Bunu təbii qidalardan almaq daha faydalıdır.

Hər bir insan fərdi sağlamlıq vəziyyətini bilməli, reklamlara aldanmamalı və yalnız keyfiyyət nəzarətindən keçmiş, sertifikatlı məhsulları almalıdır. "Dietik" qidalar əvəzinə, təbii məhsullara üstünlük vermək və balansı düzgün tənzimləmək ən doğru yoldur. Çünki sağlamlığa dəyən zərəri bərpa etmək bəzən qeyri-mümkün olur. Kimyəvi qatqılar xüsusilə xroniki xəstələr, uşaqlar, yaşlılar, hamilə və süd verən qadınlar üçün daha təhlükəlidir.

**Mütəxəssis zəhərli kimyəvi qatqılar və nitratlarla zəngin olan texniki kartoflarla bağlı mövzuya toxunaraq bu məhsullardan uzaq durmağı tövsiyə etdi:**

Texniki kartoflar qida üçün deyil, nişasta, spirt və heyvan yemi istehsalı üçün yetişdirilir. Onların becərilməsində yüksək məhsuldarlıq məqsədilə normadan çox kimyəvi maddə, pestisid, herbisid və nitrat istifadə olunur, sağlamlıq faktoru isə nəzərə alınmır. Bu səbəbdən belə kartofların davamlı qəbulu orqanizmdə ağır metalların yığılmasına, qaraciyər və böyrəyin zədələnməsinə yol açır.

Kartof seçərkən həddindən artıq iri, deformasiyaya uğramış, çıxıntıları olan və şişkin məhsullardan uzaq durmaq lazımdır. Həmçinin qabığın kobud, sərt və qalın olması, üzərində, yaxud qabıq altında zəhərli solanin maddəsinin göstəricisi sayılan yaşıl rəngin və çoxlu cücərtilərin mövcudluğu məhsulun təhlükəli olduğundan xəbər verir. Belə kartofları istehlak etdikdən sonra ürəkbulanma, başgicəllənmə və ağızda acı dad kimi hallar yaranarsa, 24 saatdan artıq davam edərsə, mütləq həkimə müraciət olunmalıdır.

Mövsümi, orta ölçülü, hamar və eyni rəng tonuna malik məhsullara üstünlük verilməlidir. Ev şəraitində isə onlar günəş şüası düşməyən, sərin və qaranlıq yerdə saxlanılmalıdır. Kartofu digər meyvə-tərəvəzlərlə yan-yana qoymaq olmaz, çünki onların ifraz etdiyi bəzi maddələr səbəbindən kartof tez xarab olur.

Ümumiyyətlə, ərzaq alarkən mütləq keyfiyyətli, mənşəyi bəlli olan məhsullara üstünlük vermək və etibarlı satış nöqtələrindən yararlanmaq lazımdır. Azad bazar iqtisadiyyatının inkişafına dəstək məqsədilə sahibkarlara geniş şərait yaradılsa da, bəziləri insan sağlamlığını deyil, şəxsi mənafelərini ön plana çəkirlər. Bu səbəbdən qida üçün yararsız və keyfiyyətsiz məhsullar satışa çıxarılır. Dövlət nəzarəti olan satış məntəqələrində isə bu kimi problemlərlə rast gəlinmir.

**Müsahibimiz tez xarab olan qidaların “soyuq zəncir” və gigiyena qaydalarına uyğun qorunmasının vacibliyini vurğuladı. O, zəhərlənmələrin qarşısını almaq üçün evdə və satış obyektlərində davamlı nəzarətin, maarifləndirmənin zəruriliyini də söylədi:**

– Bəzi qidalar var ki, bunlar yüksək risk qrupuna aiddir və xüsusilə yuxarı temperaturda tez xarab olmağa meyillidir. Ona görə də yay mövsümündə həmin qidalatı mütləq “soyuq zəncir” prinsipinə əsasən saxlamaq lazımdır. Bura daha çox süd, ət və dəniz məhsulları, tərkibində yumurta olan qidalar, kremli şirniyyatlar, həmçinin ev üsulu ilə hazırlanmış qarışıq salatlar, kəsilmiş və doğranmış meyvələr daxildir.

Bu məhsulları həm evdə saxlayarkən, həm də satış məntəqələrindən alarkən təzə olmasına, 2–4 dərəcə temperaturda qorunmasına diqqət yetirilməlidir. Əgər bu qidaları düzgün şəkildə mühafizə etmək imkanı yoxdursa, az miqdarda alınması tövsiyə olunur.

Mətbəxlərdə tez-tez rast gəlinən səhvlərdən biri çiy məhsullarla bişmiş hazır qidaların eyni yerdə saxlanılması və ya eyni doğrama lövhələrində kəsilməsidir ki, bu da çarpaz çirklənməyə səbəb olur. Ona görə də həm supermarketlərdə, həm də ictimai iaşə obyektlərində işçi heyətin maarifləndirilməsi və təlimatlandırılması ilə yanaşı, mütəmadi nəzarət tədbirlərinin keçirilməsi olduqca vacibdir.

Bişirilmiş hazır məhsulları otaq temperaturunda iki saatdan çox saxlamaq olmaz, mütləq soyuducuya yerləşdirilməlidir. Hər bir məhsul özünəuyğun qablaşdırılmalıdır. Qidaların hazırlanması və saxlanılması zamanı sanitar-gigiyena qaydalarına əməl olunması mühüm şərtdir. Yay mövsümündə müxtəlif meyvələrin bolluğunu nəzərə alsaq, onların bəzən yuyulmadan və ya yaxşı təmizlənmədən yeyilməsi ciddi sağlamlıq fəsadlarına yol aça bilər. Bu məqamda da maksimum diqqətli olmaq lazımdır.

Göründüyü kimi, sağlamlığın və uzunömürlülüyün sirri süfrəmizdə daim təbii, keyfiyyətli və mənşəyi bəlli qidalara üstünlük verməkdir. Orqanizmimizin fərdi ehtiyaclarını təbii məhsullarla qarşılamaq və eyni zamanda qida təhlükəsizliyi qaydalarına ciddi riayət etmək sağlamlığımızı qorumağın ən doğru yoludur. Unutmayaq ki, səhhətimizə dəyən zərərin bərpası bəzən mümkün olmur. Deməli, sağlamlığımızı qorumaq öz əlimizdədir.

***Elenora HƏSƏNOVA***
***XQ***

*Arif Səlimov – 70*

# Akademik nüfuzun və elmi uğurların ünvanı

**İnsanın ömür yolu yalnız yaşadığı illərlə ölçülmür, zaman keçdikcə, bütöv bir elmi məktəbin, mənəvi düşüncənin və ziyalı obrazının simvoluna çevrilir. Professor Arif Səlimovun Ağsudan başlayan ömür yolu sonralar Bakının, Kazanın elmi mühitinə, Türkiyənin nüfuzlu universitetlərinə və dünyanın elm məclislərinə qədər uzandı. O, riyaziyyatın sərt və mürəkkəb düsturlar dünyasında yalnız alim kimi deyil, həm də elmə mənəvi dəyər qazandıran ziyalı kimi tanındı.**



Arif Səlimovun şəxsiyyətində alim təmkininin, müəllim qayğısının və Azərbaycan ziyalısına xas mənəvi bütövlüyün xüsusi harmoniyası var. O, riyaziyyatı, sadəcə, elm kimi deyil, düşüncə mədəniyyəti, intizam və mənəvi kamillik yolu kimi yaşadı. Buna görə də 70 illik ömür yolu təkcə yaşanmış illərin hesabatı deyil, zəhmətin, zəkanın və əsl ziyalılığın insan taleyində necə böyük dəyərə çevrildiyinin canlı nümunəsidir.

Söhbətlərinin birində uşaqlıq illərini xatırlayan Arif müəllim deyir:

– Ata babam Rəsul kişi elmə böyük maraq göstərən insan idi. Rayonda müxtəlif rəhbər vəzifələrdə çalışmışdı. Amma onu tanıdan yalnız vəzifəsi deyildi. Ehtiyacı olan tələbələrə kömək etməsi barədə çox eşitmişdim. 6-cı sinifdə oxuyurdum, bir gün mənə dedi ki, "çox istərdim ki, sən də oxuyub alim olasan".

O illərdə "alim olmaq" sözünün mahiyyətini tam dərk etməsə də, bu arzu məktəbli Arifin daxilində sehirli bir yol açmışdı. Həmin dövrdə Ağsuda məktəbdə təmayül sinfi yaradılır. 1970-ci illərin rayon mühiti üçün belə bir sinfin açılması qeyri-adi hadisə idi. Pilot layihə əsasında seçilmiş 25 nəfərlik sinifdə riyaziyyata marağı olan şagirdlər toplanmışdı. Bu mühit Arif Səlimovun formalaşmasında xüsusi rol oynadı. Müəllimləri də, ailəsi də onun gələcəyini artıq bu sahədə görürdülər. Evdə yaxşı həkim, mühəndis olacağını söyləyirdilər. Amma heç vaxt seçimində təkid etməmişdilər. Əksinə, ona ömrü boyu unutmayacağı bir fikir demişdilər: seçimini özün et. Sənət insanın ömürlük yol yoldaşıdır. Seçimində də, sevgində də bu məsuliyyəti unutmamalısan. Bu sözlər, sadəcə, nəsihəti deyildi, həm də ona olan inamın ifadəsi idi. Arxasında dayandığını hiss etdiyi ailənin etibarı Arifin daxilindəki tərəddüdləri aradan qaldırmışdı. O gündən sonra ürəyində olan istəyə – riyaziyyata daha möhkəm bağlandı.

Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) mexanika-riyaziyyat fakültəsinin tələbəsi olduğu ilk günlərdən seçimində yanılmadığını hiss etdi. Tələbəlik illərindən Arif Səlimovun ən çox maraq göstərdiyi sahə həndəsə idi. O dövrdə Azərbaycanda həndəsə istiqamətində ciddi elmi boşluq hiss olunurdu. Hətta bu sahədə elmlər doktorunun olmaması gənc tədqiqatçıların tərəddüd keçirməsinə səbəb olurdu. Bir çoxları bu istiqamətin həm çətin, həm də perspektivsiz olduğunu düşünürdü. Arif Səlimov isə dostlarının "çətin olacaq" xəbərdarlıqlarına baxmayaraq, qərarını dəyişmədi. Bu seçimində ona universitet müəllimləri və kafedra mühiti də ciddi dəstək verdi. Görkəmli alim fizika-riyaziyyat elmləri doktoru, professor, Əməkdar elm xadimi və əməkdar müəllim, AMEA-nın müxbir üzvü Maqsud Cavadovun yaratdığı elmi mühit, eləcə də kafedra müdiri, professor Nazim Abbasovun diqqəti onun bu istiqamətdə daha inamla addımlamasına səbəb oldu. Beləcə, gənc tədqiqatçının Kazan Universitetində başlayan aspirantura illəri həyatında yeni mərhələ oldu.

Arif müəllimin formalaşmasında elmi rəhbəri, görkəmli riyaziyyatçı professor Vladimir Vişnevskinin xüsusi rolu olmuşdur. Onların münasibətləri rəhbər–aspirant çərçivəsini aşaraq qarşılıqlı hörmət, etimad və mənəvi bağlılıq səviyyəsinə yüksəlmişdi. Lobaçevski elmi məktəbinin tanınmış nümayəndələrindən olan professor Vişnevski Arif Səlimovun elmi potensialını yüksək qiymətləndirir, onu ən istedadlı tələbələrindən biri hesab edirdi. Təsadüfi deyil ki, Kazan həndəsə məktəbi uzun illərdir riyaziyyat dünyasında xüsusi nüfuza malikdir. Bu məktəb həndəsənin "Məkkəsi" hesab olunur. Belə bir elmi mühitdə yetişmək, böyük həndəsəçilərlə ünsiyyətdə olmaq Arif Səlimovun elmi fəaliyyətində mühüm rol oynadı. Kazan Dövlət Universitetində aspirantura təhsili alaraq görkəmli həndəsə professoru V. Vişnevskinin rəhbərliyi altında diferensial həndəsə sahəsində elmi araşdırmalar apardı. 1984-cü ildə namizədlik, 1998-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə etdi.

Bu gün professor Arif Səlimov diferensial həndəsə sahəsində Türk dünyasının tanınmış alimlərindən hesab olunur. Onun elmi əsərləri dünyanın müxtəlif ölkələrində oxunur, yetirmələri müxtəlif universitetlərdə fəaliyyət göstərir, adı isə beynəlxalq konfranslarda hörmətlə çəkilir.

Uzun illər Türkiyənin Atatürk Universitetində çalışan alim burada həm pedaqoji, həm də elmi fəaliyyətlə məşğul olmuş, Türkiyə həndəsə məktəbinin inkişafında mühüm rol oynamışdır. O, bir çox magistr və doktorantın yetişməsinə töhfə vermiş, müxtəlif ölkələrdən olan gənc tədqiqatçıların elmi rəhbəri olmuşdur. Professorun rəhbərliyi ilə Azərbaycan və Türkiyədə onlarla fəlsəfə doktoru hazırlanmışdır ki, onların bir çoxu bu gün müxtəlif universitetlərdə məsul vəzifələrdə uğurla fəaliyyət göstərirlər.

2017-ci ildən Bakı Dövlət Universitetinin "Cəbr və həndəsə" kafedrasına rəhbərlik edən Arif Səlimov universitetin elmi mühitinin gücləndirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi və gənc alimlərin yetişdirilməsi istiqamətində mühüm işlər görməkdədir. Onun rəhbərliyi ilə kafedra beynəlxalq elmi layihələrə qoşulmuş, bir sıra nüfuzlu konfrans və seminarlar təşkil edilmişdir.

Professor Arif Səlimovun fəaliyyəti yalnız universitet auditoriyaları ilə məhdudlaşmır. O, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Riyaziyyat və mexanika" üzrə Ekspert Şurasının sədri kimi ölkədə riyaziyyat elminin inkişafına və elmi keyfiyyət meyarlarının yüksəldilməsinə töhfə verir. Eyni zamanda TÜBİTAK layihələrinin ekspertli, Türk Dünyası Riyaziyyatçılar Cəmiyyəti idarə heyətinin, bir sıra nüfuzlu beynəlxalq elmi jurnalların redaksiya heyətinin üzvüdür.

Alimin elmi əsərləri sırasında monoqrafiyalar və dərsliklər xüsusi yer tutur. Onun elmi əsərləri həm Azərbaycan, həm də beynəlxalq elmi mühitdə böyük maraq doğurmuş və Azərbaycanda riyaziyyat üzrə ən çox istinad edilən alimlərindəndir. Bu əsərlər diferensial həndəsə sahəsində çalışan tədqiqatçılar üçün mühüm elmi mənbələrdən hesab edilir. Professor Arif Səlimovun elmi nailiyyətləri müxtəlif mükafat və fəxri adlarla qiymətləndirilmişdir. O, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, Türkiyənin TÜBİTAK qurumunun mükafatı ilə təltif edilmiş, Türk Dünyası Elm Mükafatı olan "Əl-Xarəzmi" mükafatını qazanmışdır. Onun adına İstanbul Aydın Universitetində və Ərzurum Texnik Universitetində beynəlxalq elmi konfransların keçirilməsi alimə olan ehtiramın göstəricisidir.

Amma bütün bu uğurların arxasında dəyişməyən bir insan xarakteri dayanır: sadəlik. Onu tanıyanların hamısı eyni fikirdədir: Arif müəllim böyük alim olmaqla yanaşı, həm də böyük ürək sahibidir. O, auditoriyada professor, elmi mühitdə nüfuzlu alim, gündəlik həyatda isə sadə və səmimi insan olaraq qalmağı bacarıb. Bu gün professor Arif Səlimov yalnız görkəmli alim deyil, həm də böyük elmi məktəb yaradan müəllim, Türk dünyası elmi əlaqələrinin inkişafına xidmət edən ziyalı kimi tanınır.

***Namiq QƏDİMOĞLU***
***XQ***

*Yeni tamaşalar*

**Vətən müharibəsində tarixi zəfərin bədii-estetik düşüncədə yaşadılması müasir Azərbaycan ədəbiyyatının və teatr sənətinin qarşısında duran mühüm vəzifələrdəndir. Gənc yazar Vaqif Əmiraslanın "Gülüstan" pyesi də bu missiyaya xidmət edən səhnə əsərlərindəndir.**

Əsərin əsas üstünlüklərindən biri onun real həyat hadisələri üzərində qurulmasıdır. Müəllif döyüş meydanında yaşanan həqiqətləri canlı insan taleləri fonunda təqdim etməyə nail olub. Pyesdə hadisələr Azərbaycanın ərazi bütövlüyü uğrunda Azərbaycan əsgərinin xarakterik keyfiyyətlərini ümumiləşdirib. O, qorxunu dəf etməyi bacaran, məsuliyyət hissi yüksək olan, döyüş yoldaşlarına sədaqətli və ailəsinə bağlı bir gənc olaraq təqdim edilir. Obrazın gücü onun pafoslu çıxışlarında

# Qarabağ zəfəri Gəncə səhnəsində



aparılan mübarizə fonunda inkişaf edir. Müəllif obrazların daxili dünyasını açmaqla müharibənin yalnız cəbhədə deyil, insanların ruhunda da yaşandığını göstərir. Əsərdə şəhid anaların ağrısı, qazilərin mənəvi gücü, əsgərlərin vətən sevgisi və xalqın bir amal ətrafında birləşməsi yüksək emosional təsir vasitəsilə təqdim olunur. Təbii ki, "Gülüstan" adının seçilməsi də rəmzi məna daşıyır, həm milli yaddaş, həm də tarixi faciə və mübarizə ilə assosiasiya olunur.

Əsərin səhnə təcəssümü də maraq doğurur. Pyesin quruluşçu rejissoru Fuad Cavadzadə, quruluşçu rəssamı Mirzə Mehdi Hüseynov, bəstəkarı Svetlana Hüseynova, xoreoqrafı Sənan Cavadov, döyüş səhnələrinin qurulması üzrə məsləhətçisi isə Vətən müharibəsi iştirakçısı, teatrın rejissoru Şahmar Məmmədovdur.

Tamaşaçı burada özünü, öz ağrısını, öz qürurunu görür. Çünki bu əsər xalqın yaşadığı gerçək tarixdən doğub. Əsərdə vətənpərvərlik hissi təbliğat xarakteri daşımır, əksinə obrazların taleyi və insan münasibətləri üzərindən təbii şəkildə təqdim olunur. Bu isə tamaşanın təsir gücünü daha da artırır.

Əsərdə yalnız müharibə deyil, həm də insanın mənəvi gücü, vətənə bağlılığı və milli kimliyi ön plana çıxır. "Gülüstan" həm dramaturji məziyyətləri, həm də səhnə həlli baxımından müasir Azərbaycan teatrında mühüm hadisə hesab oluna bilər. 44 günlük Vətən müharibəsinin ruhunu yaşadan, şəhidlərimizin xatirəsini ucaldan və gələcək nəsillərə vətən sevgisi aşılayan bu sənət nümunəsi bir daha sübut edir ki, teatr yalnız əyləncə vasitəsi deyil, həm də xalqın yaddaşını yaşadan, tarixini qoruyan və milli ruhunu formalaşdıran mənəvi gücdür.

Pyesdə İlqar Həşimov obrazı tamaşanın ideya yükünü daşıyan, Vətən müharibəsinin ruhunu, Azərbaycan əsgərinin mənəvi dünyasını və xalqın qələbə əzmini özündə birləşdirən simvollardan biri kimi təqdim olunur. O, müasir Azərbaycan gəncinin ümumiləşdirilmiş və bədii şəkildə ideallaşdırılmış xarakteridir. İlqar üçün Vətən, sadəcə, torpaq anlayışı deyil; bu məfhum onun kimliyi, mənəvi borcu və həyat amalına çevrilmişdir. O, mübarizəyə doğma torpaqların azadlığı naminə gedir. İlqar Həşimov obrazında müəllif deyil, davranışlarında və mənəvi möhkəmliyində üzə çıxır.

Pyesdə diqqətçəkən qadın obrazlarından biri İlqarın sevgilisi Dilgüşədir. Tarix müəllimi obrazı əsərin ideya istiqamətini müəyyənləşdirən mühüm personajlardandır. Təsirli və ideya baxımından ən yaddaqalan obrazlardan biri də Gülüstan ana obrazıdır. Gülüstan ana Vətən uğrunda övladlarını qurban verən Azərbaycan analarının bədii timsalıdır. Dədə Qorqud obrazı isə tamaşada yalnız folklor personajı kimi deyil, xalqın milli yaddaşının, mənəvi köklərinin və tarixi davamlılığının rəmzi kimi təqdim olunur. Müəllif Dədə Qorqud vasitəsilə keçmişlə bu günü birləşdirir, qədim türk qəhrəmanlıq ruhunun müasir Ata obrazında vətənpərvərlik hissi xüsusi yer tutur. Məktəb səhnəsində diqqəti çəkən şagird obrazları əsərin əsas ideyasını daşıyan vətənpərvərliyi əks etdirir.

Pyesdə erməni surətləri əsərin konflikt xəttinin formalaşmasında mühüm yer tutur. Bu obrazlar yalnız qarşı tərəfi təmsil edən personajlar kimi deyil, həm də müharibənin mahiyyətini, işğalçılıq siyasətini və insan faciəsini göstərən dramaturji vasitə kimi təqdim olunur.

Rejissor əsərin yalnız mətnini səhnəyə köçürməklə kifayətlənmir, eyni zamanda, onun daxili ritmini, emosional atmosferini və fəlsəfi məzmununu teatr dili vasitəsilə açmağa çalışır. Musiqi tərtibatı rejissor konsepsiyasının vacib hissəsidir. Qəhrəmanlıq ruhunu ifadə edən ritmik musiqilər döyüş səhnələrinə dinamika verir, lirizm və həsrət hissi daşıyan melodiyalar isə ailə və sevgi səhnələrinin emosional təsirini artırır. Səhnə tərtibatı yalnız dekor funksiyası daşımır, həm də əsərin fəlsəfi məzmununu vizual dillə ifadə edən mühüm dramaturji vasitəyə çevrilir.

Nəticə etibarilə, "Gülüstan" pyesi çoxqatlı konflikt sistemi üzərində qurulmuş və milli-mənəvi ideyanı ön plana çıxaran uğurlu səhnə əsəridir. Əsərin bədii nəticəsi göstərir ki, Vətən müharibəsi yalnız hərbi qələbə deyil, həm də milli yaddaşın, mənəvi gücün və xalq birliyinin təntənəsidir.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas***

**Gəncə**

# Helsinkidə Bəxtiyar Vahabzadə təntənəsi

**Finlandiyanın paytaxtı Helsinkidə fəaliyyət göstərən Azərbaycan Evində istiqlal nəğməkarı, Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illiyinə həsr edilmiş yubiley mərasimi və fin dilinə çevrilmiş şeirlərindən ibarət "Odlar ölkəsinin poeziyası" kitabının təqdimatı keçirilib.**



Əməkdar incəsənət xadimi Tahirə Cəfərova tərcümə və tərtib etdiyi bu toplu haqqında məlumat verərək Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd olunmasını və onun yaradıcılığının fin oxucularına tanıdılmasını bu ölkədə Azərbaycan mədəniyyətinə maraq və ehtiram nümunəsi kimi dəyərləndirib.

Tərcüməçi daha sonra Bəxtiyar Vahabzadə poeziyasının xüsusiyyətlərindən danışaraq qeyd edib ki, onun şeirlərində təqdim edilən nümunələrin fəlsəfi məzmununu fin oxucusuna çatdırmaq üçün Avropada geniş yayılmış sərbəst şeir formasında təqdim edilməsinə üstünlük verib, müəllifin özünəməxsus ritmi, intonasiyası, eləcə də poetik ahəngini qoruyub saxlamağa çalışıb.



Kitabın naşiri Yirki İhalaynen Bəxtiyar Vahabzadənin fəlsəfi lirikasının bədii xüsusiyyətlərindən danışıb, onun sovet dövründə Azərbaycan xalqının tarixi faciəsinə həsr olunmuş "Gülüstan" poemasının nəşrindən sonra üzləşdiyi təqiblərdən bəhs edib. O, Xalq şairinin Azərbaycanın müstəqilliyi, milli kimliyi və ana dilinin qorunması uğrunda apardığı mübarizədən söz açıb. Yubilyarın ana dilinin hər bir xalq üçün daşıdığı önəmi əks etdirən "Mənim anam" şeirini səsləndirib.

Mərasimdə fin şairi Xannu Myakelyanın təbrik məktubu oxunub. Yazıçı Anita Konkkan, Helsinki Universitetinin Şərqi Asiya araşdırmaları kafedrasının professoru Yuxa Yanxunen və ölkənin digər tanınmış ziyalıları Bəxtiyar Vahabzadənin mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmasını söyləyiblər. Bildirilib ki, onun Vətənə, millətə, doğma ana dilinə sonsuz məhəbbət ifadə edən zəngin irsi istiqlal məfkurəsinə sədaqətlə aşılanmışdır.

Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkkürünün formalaşmasına çalışıb. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə də həmişə əsl ziyalı mövqeyi nümayiş etdirib.

Mərasimdə Azərbaycan Evinin rəhbəri Ülviyyə Cabbarovanın hazırladığı Bəxtiyar Vahabzadənin ömür yolu və doğulduğu Şəki şəhərinin gözəlliklərini əks etdirən videoçarx nümayiş olunub. Gecənin sonunda Bəxtiyar Vahabzadənin şeirləri Azərbaycan və fin dillərində səsləndirilib. Sonda qonaqlara Xalq şairinin fin dilində nəşr olunmuş kitabının nüsxələri hədiyyə olunub.

***Afət SADIQOĞLU,***
***Əməkdar mədəniyyət işçisi***

# "Tağıyev: Neft" bədii filmi Türkmənistanda

**Türkmənistanda Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində "Tağıyev: Neft" bədii filminin nümayişi olub. Film ölkənin "Kinovideoxidmət" Birliyinin "Aşqabad" kinoteatrında təqdim edilib.**



Nümayişdən öncə jurnalistlərə açıqlama verən mədəniyyət nazirinin müşaviri Orxan Fikrətoğlu Türkmənistanda Azərbaycan Mədəniyyəti Günlərinin önəmini vurğulayıb: "Hər iki xalq mədəniyyət baxımından bir-birinə çox yaxındır. Bu kimi qarşılıqlı mədəniyyət günləri xalqlar arasındakı dostluq, qardaşlıq bağlarını daha da gücləndirir".

Filmin rejissoru Zaur Qasımlı isə "Tağıyev: Neft"in mədəniyyət günləri çərçivəsində davamlı nümayiş etdiriləcəyini bildirib: "Biz hesab edirik ki, iki ölkənin mədəni yaxınlığından və mədəni münasibətindən yola çıxaraq bu kimi nümayişləri daha çox edə bilərik".

"Türkmənfilm"in baş direktorunun müavini Sahısaleh Bayramov "Tağıyev: Neft" filmini Qazaxıstanda "Qorqud Ata" festivalı çərçivəsində izlədiyini və Azərbaycanın Mədəniyyət Nazirliyi ilə ortaq film istehsalını müzakirə etdiklərini söyləyib.

Sonra "Tağıyev: Neft" tammetrajlı bədii filmi nümayiş olunub.

***XQ***

# Dünya möhtəşəm futbol bayramına hazırlaşır

**2026-cı il futbol üzrə Dünya çempionatının startına bir həftədən də az vaxt qalır. Planetin elə bir nöqtəsi yoxdur ki, orada azarkeşi olmayan bu populyar və cazibədar oyunun həyəcanını yaşamasınlar. Doğma arenalarda son məşqlərini başa vuran milli komandalar artıq yarışlara ev sahibliyi edəcək ölkələrə yola düşürlər. Yarışların keçiriləcəyi şəhərlər isə son hazırlıqlarını görür və dünyanın ən sevimli oyununun iştirakçılarını və çılğın azarkeşlərini xoş əhval-ruhiyyə ilə qarşılayırlar.**

Yerli hakimiyyət orqanları ziyarətçilərin stadionlara yol tapmasını asanlaşdırmaq, çoxdilli lövhələr quraşdırmaq və nəqliyyatın əlçatanlığını yaxşılaşdırmaq üçün hər şey edirlər. Məsələn, Atlantada azarkeşləri şəhərdə keçiriləcək 8 oyuna daşımağa kömək etmək üçün yeni sürücüsüz avtobuslar təşkil ediblər.

Los-Anceles azarkeşlərin şəhərdə hərəkət etməsinə kömək etmək üçün yeni mobil tətbiq proqramları və işçi heyəti təqdim edir. 2026-cı il futbol üzrə Dünya çempionatı zamanı şəhərdə əlavə 330 avtobus




Bu populyar oyunun tarixini qeydə alan jurnalistlər və şərhçilər qarşıdakı Dünya Çempionatının indiyə qədər keçirilən ən böyük futbol turniri kimi tarixə düşəcəyini bildirirlər. Bu, həqiqətən belədir. Çünki ilk dəfədir ki, 3 ölkə - ABŞ, Kanada və Meksika – yarışa ev sahibliyi edəcək. 39 gün ərzində planetin ən yaxşı futbol komandaları Dünya Çempionatının ən yüksək mükafatı uğrunda mübarizə aparacaqlar.

Turnirin unikal xüsusiyyətlərindən biri də bu çempionatda rekord sayda komandanın iştirak etməsidir. Dünya kuboku tarixində ilk dəfə olaraq 32 komanda əvəzinə, bütün qitələri təmsil edən 48 milli komanda meydanlarda mübarizə aparacaq. Bu, əvvəllər yalnız Dünya Çempionatında yarışmağı xəyal edən bir çox ölkələr üçün yeni imkanlar açır. Ev sahibi şəhərlərin küçələrində artıq böyük idman bayramının ab-havası geniş müşahidə edilməkdədir. Stadionlar yüz minlərlə tamaşaçı qəbul etməyə hazırdır, hotellər, hava limanları və nəqliyyat sistemləri isə tam gücü ilə işləyir. Təşkilatçılar milyonlarla turist və rekord sayda televiziya auditoriyası gözləyirlər.

Bu turnirin tarixi göstərir ki, 1994-cü ildə ABŞ futbol üzrə Dünya Çempionatına ev sahibliyi edərkən 30 illik tamaşaçı rekordu qırmışdı. Dünya kubokunun həmin rekordu bu il yenilənə bilər, əlbəttə, əgər Birləşmiş Ştatlar bütün dünyadan 10 milyona qədər azarkeş cəlb edə bilsə. Etiraf edək ki, ölkənin də buna imkanları çatır. Çünki ABŞ 60-80 min arasında azarkeş tutumuna malik stadionlarla belə böyük bir tədbirə ev sahibliyi etmək üçün ideal şəkildə uyğundur. Yeri gəlmişkən, heç bir ölkə ABŞ qədər Olimpiya Oyunlarına ev sahibliyi etməyib.

Prezident Donald Tramp məhz bu səbəbdən deyib ki, "2026-cı il futbol üzrə Dünya Çempionatı idman tarixində ən böyük və ən mürəkkəb tədbirlərin keçirildiyi yarışma olacaq". Ötən il dekabrın 5-də keçirilən püşkatmada 48 milli komanda qruplara bölünərək Şimali Amerikanın 3 ölkəsinin 16 şəhərində bütövlükdə 104 oyun keçirəcək. Oyunlar ABŞ-ın Atlanta, Boston, Dallas, Hyuston, Kanzas-Siti, Los-Anceles, Mayami, Nyu-York, Filadelfiya, San-Fransisko və Sietl, Meksikanın Qvadalaxara, Mexiko-Siti və Monterrey, Kanadanın isə Toronto və Vankuver şəhərlərində keçiriləcək.

Cədvələ əsasən 2026-cı il futbol üzrə Dünya çempionatına iyunun 11-də Bakı vaxtı ilə saat 23:00-da Mexiko şəhərində Meksika – CAR milli komandalarının qarşılaşması ilə start veriləcək, final isə 19 iyul 2026-cı ildə ABŞ-ın Nyu-Cersi ştatında baş tutacaq.

Dünya Çempionatına ev sahibliyi edəcək ABŞ-ın 11 şəhərinin, bir çox ölkənin əvvəllər etdiyi kimi, yeni stadionlar tikməsinə ehtiyac yoxdur: Amerika futbolu üçün nəzərdə tutulan meydançalar futbolçular və onların azarkeşləri üçün dünya səviyyəli şəraiti təmin edir.

FIFA ilə tərəfdaşlıq çərçivəsində Miçiqan Dövlət Universiteti və Tennessi Universiteti Şimali Amerikanın turnirə ev sahibliyi edəcək şəhərlərinin müxtəlif iqlim şəraitində, o cümlədən Amerika futbolunda geniş yayılmış qapalı stadionlarda uğurla istifadə edilə bilən təbii ot meydançaları hazırlamış və sınaqdan keçirmişlər. Qapalı meydançalar üçün uyğun ot növlərini sınaqdan keçirmək üçün innovativ texnologiyadan istifadə edərək ultramüasir pavilyon inşa edilmişdir.

Meydançalarda ot örtüyü yaradan ABŞ universitetləri ilə əməkdaşlıq edən FIFA nümayəndəsi Alan Ferqyuson deyib: "Bu meydançaların mümkün qədər təbii görünməsi və onlarda əsl ot örtüyündə oynana bilməsi çox vacibdir. İstər Kanadadakı, istər Orta Qərbdəki, istərsə də Meksika dağlarındakı stadionlar olsun, oyunçuların özlərini əsl ot üzərində hiss etmələrini istəyirik".

hərəkət edəcək. Yeri gəlmişkən, Los-Anceles həm də 2028-ci il Yay Olimpiya Oyunlarına ev sahibliyi etməyə hazırlaşır.

Təşkilatçılar bildirirlər ki, matçlara bilet ala bilməyən azarkeşlər belə futbol tamaşasından zövq ala biləcəklər. Turnirin sehrini daha geniş auditoriyaya çatdırmaq üçün təşkilatçılar Nyu-Cersi ştatındakı "Meadowlands" stadionu yaxınlığında festival keçirməyi planlaşdırırlar. Burada valideynlər oyunları nəhəng ekranlarda izləyə, uşaqları isə xüsusi təchiz olunmuş meydançalarda futbol oynaya bilərlər.

Ümumiyyətlə, futbol üzrə 2026-cı il Dünya Çempionatı tarixə həm də bir çox yenilikləri, xüsusilə də rəqəmsal texnologiyaların geniş tətbiqi ilə daxil olacaq. Bu baxımdan FIFA Şimali Amerikada bu Dünya Çempionatının başlamasına hazırlaşarkən həm oyunun özünü, həm də azarkeş təcrübəsini təkmilləşdirmək üçün yeni texnologiyaların tətbiqinə sadiqlik nümayiş etdirir.

Əvvəla, süni intellektlə yaradılan oyunçu avatarlarından və sensorla təchiz olunmuş matç toplarından tutmuş, komanda təhlili üçün generativ süni intellektlə işləyən platformaya qədər dünya futbolunun rəhbər idarəetmə orqanı FIFA hakimlərə, komandalara və yayımçılara kömək etmək, azarkeşlərin oyunu meydanda və meydandan kənarda yaşama tərzini dəyişdirmək üçün hazırlanmış alətlər təqdim edir. FIFA prezidenti Canni İnfantino hələ yanvar ayında Las-Veqasda keçirilən tədbirdə bildirmişdi ki, "biz innovasiyanın hər bir oyunçuya, hər komandaya və hər bir azarkeşə fayda verməsini təmin edirik... və bu, əlbəttə ki, ən böyük oyuna - futbola xidmət edir".

Maraqlıdır ki, texnologiya futbol matçının ən vacib elementinə - topa belə tətbiq edilib. "Adidas" şirkəti tərəfindən FIFA yarışları üçün yaradılan "Trionda" topu, 500 herslik hərəkət sensoru çipi ilə təchiz olunub və məlumatları saniyədə 500 dəfə qeydə alır. Bu da onun hər hərəkətini dəqiq izləməyə imkan verir. Belə ki, bu texnologiya hakimlərə zərbənin dəqiq anını – oyunçunun topa toxunduğu vaxtı müəyyən etməyə kömək edir, daha sürətli və daha dəqiq ofsayd qərarlarına imkan verir.

FIFA belə qənaətdədir ki, bu, həmçinin hərəkət zamanı topa əl ilə hər hansı bir təması qeyd etməklə cərimə zərbələrinin aşkarlanmasını da asanlaşdıracaq. Çünki hakimlərin belə qayda pozuntularını yalnız videogörüntülərdən istifadə edərək aşkarlaması ənənəvi olaraq çətin olan bir işdir.

Qatı futbol azarkeşlərində təbii bir sual yaranır: bu, hakim səhvlərini azaldacaqmı? Əlbəttə, buna indi müsbət cavab vermək doğru olmazdı. Bunu yalnız meydanlarda izləyəcəyimiz gərgin mübarizələrdə aydın görə və qiymətləndirə bilərik.

İnfantino onu da qeyd edib ki, FIFA həmçinin hakimlərin "daha sürətli qərar verməsinə" və meydandakı mübahisəli vəziyyətləri daha aydın başa düşməsinə kömək etmək üçün qarşılaşmalarda meydana çıxacaq bütün 1248 oyunçunun rəqəmsal avatarlarını yaradacaq.

Oyun zamanı hər bir oyunçunun sürətli və ya qismən bağlı qalan hərəkətlərini izləməkdə hakimlərə kömək etmək üçün turnir başlamazdan əvvəl onun "yüksək dəqiqlikli" 3D modelini yaratmaq məqsədilə bir saniyəlik bədən quruluşunu çəkəcəklər. 3D modellər, topun və oyunçuların vəziyyətini saniyədə 50 dəfə izləmək üçün stadiona quraşdırılmış kameralardan istifadə edən mövcud yarımavtomatlaşdırılmış ofsayd aşkarlama texnologiyasını tamamlayacaq. Top potensial ofsaydda olan hücumçuya ötürüldükdə, videobaxış otağındakı hakimlərə avtomatik olaraq bildiriş göndərilir, onlar meydandakı hakimə məlumat verməzdən əvvəl oyunçunun mövqeyini təsdiqləyə və ya inkar edə bilərlər.

3D modellər rəsmi matç yayımı zamanı həm stadiondakı azarkeşlər, həm də oyunu evdə izləyənlər üçün təkrarlara inteqrasiya ediləcək. Matçlar zamanı süni intellektdən istifadənin digər bir tətbiqi "Referee View" – hakim görüntüsü sistemidir: kamera süni intellektin köməyi ilə oyunun sabitləşdirilmiş görüntüsünü evdə və stadiondakı tamaşaçılara ötürəcək. Tamaşaçı özünü meydanın mərkəzində oyunçularla birlikdə hiss edəcək.

FIFA-nın qarşıdakı Dünya çempionatında əsas layihələrindən biri də bütün iştirakçı komandalar üçün süni intellektlə işləyən köməkçi – "Futbol AI Pro"nun yaradılması olacaq. Bu köməkçi taktiki anlayışlar, performans təhlili və strateji tövsiyələr vermək üçün matçları təhlil edəcək.

"Futbol AI Pro" matç haqqında "çiy" məlumatları tətbiq edilə bilən tövsiyələrə çevirməklə menecerlərə və məşqçilərə daha səmərəli işləməyə kömək etmək üçün hazırlanmışdır. İnfantino bildirir ki, bu köməkçi həmçinin 48 iştirakçı komanda və azarkeşə futbol analitikası təqdim etməklə "məlumatlara çıxışı demokratikləşdirəcək". O, mətn xülasələri, video təhlilləri və oyun məlumatlarının qrafik vizuallaşdırmalarını yarada biləcək, komandalara rəqiblərin taktiki gedişlərinə hazırlaşmağa və öz çıxışlarını təhlil etməyə kömək edəcək.

Süni intellektlə və ilk dəfə tətbiq ediləcək bir çox oyun qaydaları ilə bağlı yeniliklər barədə daha əvvəl məlumatlandırılan milli komandalar artıq cümə axşamından başlayaraq, düşdükləri qruplara uyğun 39 gün davam edəcək 2026-cı il Dünya Çempionatının keçiriləcəyi şəhərlərə yola düşməyə başlayıblar. Dünya mediasının yazdığına görə, bir çox ölkələrdə yolasalma mərasimləri olduqca möhtəşəm və ekzotik keçib.



Futbolun ikinci Vətəni hesab edilən Braziliya milli komandası birbaşa Rio hava limanında "xaç suyu" ilə uğurlanıb! Təyyarə havaya qalxmazdan əvvəl qarşı-qarşıya dayanmış iki yanğınsöndürən maşının su şırnağının altından keçib. Aviasiyada bu ənənə "xaç suyuna salma" adlanır və təyyarənin xeyir-dua ilə uğurlanması kimi simvolizə edilir. Milli televiziya ilə yayımlanan bu mərasim həm də Braziliya millisinin altıncı titul arzusunu gerçəkləşdirməyə ruhlandırmaq təsiri bağışlayıb.

Türkiyə millisinin yolasalma mərasimi də möhtəşəm görüntülərlə diqqət çəkib. Qardaş ölkənin futbolçularının hava limanına gedişi möhtəşəm bir tamaşaya çevrilib. Milli futbol klubununun avtobusunu onlarla qırmızı avtomobil və motosikletdən ibarət möhtəşəm bir kortej müşayiət edib.

Şotlandiya yığma komandası isə milli adət-ənənəyə uyğun yola salınıb. Cəsarət simvolu olan kilt geyinmiş şotlandiyalı azarkeşlər komandalarını tuluğ zurnalarının təntənəli melodiyası altında hava limanına qədər müşayiət ediblər.

İsveçrədə də milli komandanın azarkeşləri məxsusi yolasalma törəni ilə tarixə düşüblər. Onlar komandanın yola düşəcəyi hava limanını oyunçulara arzuları həkk edilmiş 18 metr uzunluğunda milli komanda forması ilə bəzəyiblər.

İranda isə müharibə dövrünə uyğun yolasalma mərasimi keçirilib. Tədbir Tehranın mərkəzi meydanında yüzlərlə insanın bayraqlar dalğalandırdığı və şüarlar səsləndirdiyi bir şəraitdə baş tutub. İran Futbol Federasiyasının prezidenti Mehdi Tac bildirib ki, "Milli komandanın oyunçuları Dünya çempionatında xalqı, əsgərlərimizi, liderimizi və ölkəmizi təmsil edəcəklər. Milli komandamız müharibə dövrü komandasıdır. Onlar nüfuz və müqavimətə dayaq olacaqlar".

Posterlərdən birində yazılıb: "Şəhidlərin qanının xatirəsinə himni qətiyyətlə və tərəddüd etmədən oxuyun".

Kurasao yığma komandası turnir öncəsi təlim-məşq toplanışını qeyri-adi şəkildə başa vurub: oyunçular ailələri ilə birlikdə dua oxuyublar.

Seneqal birbaşa Dakardakı stadionun yaşıl meydanında vida şam yeməyi təşkil edib. Oyunçular, məşqçilər və milli komanda heyəti uzun bir stolun başına toplaşıb.

Beləliklə, milyonlarla insana həyəcan yaşadacaq möhtəşəm futbol şənliyi yaxınlaşır.

***İlqar RÜSTƏMOV***
***XQ***

# Almaniyanın BMT uğursuzluğu

## *Bu, təsadüfdür, yoxsa ədalətsizlik?*

**Beynəlxalq sistem son illərdə sürətlə dəyişən güc mərkəzləri, ziddiyyətli ittifaqlar və ideoloji parçalanmalar fonunda yeni bir mərhələyə qədəm qoyub. Yəni diplomatik uğur dövlətlərin qlobal legitimlik, neytrallıq imici və müxtəlif regional bloklarla qurduğu balanslı münasibətlər də həlledici rol oynayır.**

Bu baxımdan Almaniyanın BMT Baş Assambleyasında Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlük yerlərindən kənarda qalması Avropanın ən güclü dövlətlərindən birinin qlobal təsir mexanizmlərində yaşadığı struktur aşınmanın göstəricisi kimi qiymətləndirilir.

Fridrix Merts hökumətinin gözlədiyi nəticənin əksinə olaraq Portuqaliya və Avstriyanın üstünlük qazanması Avropa daxilində güc iyerarxiyasının avtomatik olaraq "böyük dövlətlər" üzərində qurulmadığını bir daha ortaya çıxardı. Bu hadisə Almaniyanın son onillikdə beynəlxalq sistemdə özünü "siyasi koordinasiya mərkəzi" kimi təqdim etmək cəhdlərinin real təsir gücü ilə üst-üstə düşmədiyini göstərən simvolik dönüş nöqtəsidir. Berlinin məğlubiyyəti ilk baxışda qeyri-adi görünə bilər, çünki Almaniya uzun illərdir BMT sistemində təsirli oyunçulardan biri kimi qəbul edilir və Qərbi Avropa kvotasında Təhlükəsizlik Şurasına mütəmadi şəkildə seçilmə ənənəsinə malikdir. Lakin bu dəfə nəticə fərqli oldu və bu fərqlilik sadəcə rəqəmsal səs bölgüsü ilə izah edilə biləcək səviyyəni aşır.

Almaniyanın xarici siyasət kursu son dövrdə bir neçə paralel xətt üzrə ciddi müzakirələr doğurur. Bir tərəfdən Berlin Ukraynaya açıq və ardıcıl dəstək verərək Avropa təhlükəsizlik arxitekturasında ön cəbhə rolunu gücləndirməyə çalışır. Digər tərəfdən isə İsrailə verilən siyasi və diplomatik dəstək bəzi regionlarda Almaniyanın mövqeyinə qarşı ehtiyatlı, hətta tənqidi yanaşmaların formalaşmasına səbəb olub. Almaniyanın xarici işlər naziri Yohann Vadefulun da etiraf etdiyi kimi, bu balanssızlıq qlobal Cənub ölkələrində və bəzi bitərəf bloklarda Berlinin qəbulunu zəiflətmiş ola bilər. Əsas məqam ondan ibarətdir ki, BMT Təhlükəsizlik Şurasına seçilmə artıq Asiya, Afrika və Latın Amerikası ölkələrinin çoxqatlı siyasi baxışları ilə müəyyən edilir. Bu ölkələr isə getdikcə daha çox bloklardan kənar diplomatiya və tarazlaşdırılmış mövqe axtarırlar.

Berlinin İsrailə verdiyi dəstək daha geniş beynəlxalq narrativlər fonunda qiymətləndirilir. Almaniyanın tarixi məsuliyyət diskursu uzun illərdir onun Yaxın Şərq siyasətinin əsas ideoloji dayaqlarından biridir. Lakin bu məsuliyyətin müasir geosiyasi qərarlarla necə uzlaşdırılması artıq daha mürəkkəb bir sualdır. Qlobal Cənub

həddindən artıq resurs sərf etməklə iqtisadi rəqabət qabiliyyəti, sənaye potensialı və milli təhlükəsizlik kimi strateji sahələrdə üzləşdiyi problemləri arxa plana keçirir.

Paraleldə söz azadlığı sahəsində tətbiq edilən qanunvericilik və rəqəmsal platformalara nəzarət mexanizmləri də müzakirə mövzusudur. Alman hüquq-mühafizə orqanları və məhkəmələri ölkə daxilində siyasətçilərə qarşı təhqir, nifrət nitqi və böhtan xarakterli paylaşımlara qarşı sərt tədbirlər görür. Bununla yanaşı, bəzi müşahidəçilər Almaniya ərazisindən Azərbaycan dövlət rəhbərliyinə və rəsmi şəxslərinə qarşı yayılan təhqiramiz məzmunların qarşısının alınmasında eyni həssaslığın nümayiş etdirilmədiyini vurğulayırlar. Bu isə Berlinin söz azadlığı və hüquqi məsuliyyət məsələlərində vahid yanaşma tətbiq edib-etməməsi ilə bağlı suallar doğurur.

Yeri gəlmişkən, Almaniyanın siyasi sığınacaq mexanizmi çərçivəsində müxtəlif ölkələrdən olan şəxslərə, o cümlədən Azərbaycandan gedən bəzi müxalif fəallara sığınacaq verilməsi mübahisəli məsələlərdən biri olaraq qalır. Azərbaycan ictimaiyyətində və siyasi dairələrində bu şəxslərin bir hissəsinin klassik siyasi müxalifətdən daha çox radikal ritorika, təhqir və qarayaxma kampaniyaları ilə tanındığı barədə fikirlər səsləndirilir. Ona görə də Almaniyanın onları siyasi təqibə məruz qalan şəxslər kimi qəbul etməsi ikili standartların nümunəsi kimi qiymətləndirilir.

Məğlubiyyətin ən ciddi təsirlərindən biri Almaniyanın daxili siyasi mühitində özünü göstərir. Fridrix Merts hökuməti öncədən formalaşmış gözləntilərin fonunda beynəlxalq nüfuzun artırılması və Avropada liderlik iddiası ilə çıxış etmişdi. Lakin BMT səsverməsinin nəticəsi bu narrativi zəiflədir. Müxalifət, xüsusilə Almaniya üçün Alternativ Partiyası (AfD), nəticəni hökumətin xarici siyasətinin iflası kimi təqdim edir. Onların arqumentinə görə, Almaniya beynəlxalq arenada daha balanslı və milli maraqlara əsaslanan siyasət yürütmədiyi üçün dəstək itirir. Bu yanaşma siyasi diskursda ümumi ictimai debatın bir hissəsinə çevrilməkdədir. Sosial Demokrat Partiyasının bəzi nümayəndələri də nəticəni xəbərdarlıq siqnalı kimi qiymətləndirərək Almaniyanın qlobal imicində ciddi dəyişikliklər olduğunu etiraf edirlər. Bu isə göstərir ki, məsələ təkcə xarici siyasət



ölkələrinin bir hissəsi İsrail-Fələstin münaqişəsinə yanaşmada daha tənqidi mövqe sərgilədiyi üçün Almaniyanın açıq və dəyişməz dəstəyi bəzi diplomatik platformalarda onun mövqeyini zəiflədib. Bu isə BMT kimi çoxtərəfli institutlarda səs balansına birbaşa təsir edir. Belə olan halda, Berlinin prinsipial mövqe kimi təqdim etdiyi xətt digər regionlarda "geosiyasi tərəfkeşlik" kimi oxuna bilir və ikili interpretasiya diplomatik nəticələrdə özünü göstərir.

***

Almaniya tərəfi məğlubiyyətin səbəblərini yalnız Yaxın Şərq siyasəti ilə məhdudlaşdırmır. Son illərdə Almaniyanın xarici siyasətində insan hüquqları, gender bərabərliyi, LGBTQ hüquqları və digər sosial mövzular mühüm yer tutmağa başlayıb. Berlin bu istiqamətləri özünün beynəlxalq dəyərlər siyasətinin əsas elementlərindən biri kimi təqdim edir və müxtəlif beynəlxalq platformalarda bu məsələlərin təşviqinə xüsusi diqqət ayırır. Lakin tənqidçilər hesab edirlər ki, Almaniya qlobal ideoloji gündəmlərin irəli çəkilməsinə

uğursuzluğu deyil, həm də daxili siyasi legitimlik məsələsinə çevrilir.

Sonda Portuqaliya və Avstriyanın qələbəsinə də toxunmaq yerinə düşər. Bu iki ölkə qlobal arenada diplomatik çeviklik, neytrallıq və vasitəçilik funksiyası ilə fərqlənir. Portuqaliyanın xüsusilə Afrika, Asiya və Latın Amerikası ilə tarixi əlaqələrini müasir diplomatik kapitala çevirməsi onun beynəlxalq mövqeyini gücləndirib. Lissabonun keçmiş müstəmləkələri ilə qurduğu mədəni və siyasi körpülər qlobal Cənub ölkələri ilə əlaqələrdə mühüm üstünlük yaradıb.

Bundan əlavə, Portuqaliyanın yüksək səviyyəli beynəlxalq institutlarda təmsil olunması da onun diplomatik çəkisini artıran amillərdən biridir. Avstriya isə fərqli strategiya ilə diqqət çəkir. NATO üzvü olmaması və konstitusion neytrallıq siyasəti Vyanaya xüsusilə bloklara tənqidi yanaşan ölkələr arasında etimad qazandırıb.

***Nəzrin ELDARQIZI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 98 (31067) 6 iyun 2026-cı il, şənbə

## İDMAN

## İtaliyadan 2 medal




**İtaliyanın paytaxtı Roma şəhərində parataekvondo üzrə Roma Qran-Prisi başa çatıb. Ən yüksək reytinqli parataekvondoçuların mübarizə apardığı turnirdə ölkəmizi K44 kateqoriyasında Sabir Zeynalov (58 kq) və İmaməddin Xəlilov (70 kq) təmsil ediblər.**

Sabir Zeynalov 1/4 final mərhələsində braziliyalı Fabricio Souza, yarımfinalda türkiyəli Ali Can Özcan, finalda isə cənubi koreyalı Pyeonggang Lee üzərində qələbə qazanaraq qızıl medala sahib çıxıb.

İmaməddin Xəlilov isə 1/4 finalda taylandlı Tanapan Sotthisetə qalib gəlsə də, yarımfinalda italiyalı Antonino Bossolo ilə qarşılaşmada mübarizəni dayandırıb və turniri bürünc medalla başa vurub.

Parataekvondoçularımız yarışa baş məşqçi Fərid Tağızadənin rəhbərliyi altında qatılıblar.

Qeyd edək ki, Roma Qran-Prisində əldə olunan nəticələr idmançılara Los-Anceles-2028 Yay Paralimpiya Oyunları üçün reytinq xalları qazandırıb.

## Bakıda daha bir Dünya kuboku




**Bakıda aerobika və akrobatika gimnastikası üzrə Dünya kuboku yarışları başlayıb.**

Yarışlar paytaxtdakı Milli Gimnastika Arenasında keçirilir. İlk yarış günündə iştirakçılar final mərhələsinə vəsiqə qazanmaq üçün təsnifat çıxışlarını nümayiş etdirirlər.

Azərbaycan aerobika gimnastikası üzrə mübarizədə Sara Əlixanlı, Vladimir Dolmatov, Mədinə Mustafayeva, Arzu Ağayeva, Leyla Bejanova və Xədicə Quliyeva ilə təmsil olunur. Akrobatika gimnastikası yarışlarında isə Daniel Abbasov-Murad Rəfiyev və Seymur Cəfərov-Rəsul Seyidli kişi cütlükləri, həmçinin Anahita Başiri, Zəhra Rəşidova və Nəzrin Zeyniyevadan ibarət qadın qrupu ölkəmizin şərəfini qoruyur.

İyunun 7-dək davam edəcək Dünya kubokunda 20-yə yaxın ölkədən idmançılar medallar uğrunda mübarizə aparırlar.

## Bölgələrdə məşq

**Güləş üzrə milli komandalarımız bölgələrdə təlim-məşq toplanışı keçir.**

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, 27 iyul – 2 avqust tarixlərində Bakıda keçiriləcək Dünya Çempionatına hazırlaşan U17 sərbəst və yunan-Roma güləşi üzrə millilərimiz fərqli məkanlarda hazırlaşır. Mayın 24-dən Xaçmaz Olimpiya İdman Kompleksində toplanışa daxil olan sərbəst güləşçilər iyunun 6-da toplanışı yekunlaşdıracaq. Yunan-Roma güləşçilərimizin Göygöl Olimpiya İdman Kompleksində baş tutan toplanış isə 1-11 iyun tarixlərini əhatə edir.

U20 yaş qrupu üzrə yığmalarımız iyulun 6-dan 12-dək Şimali Makedoniyanın paytaxtı Skopyedə keçiriləcək Avropa çempionatına eyni məkanda hazırlaşır. Hər iki komanda iyunun 1-dən Göygöl Olimpiya İdman Kompleksində təlim-məşq toplanışına start verib. Hazırlıq prosesi ayın 12-də yekunlaşacaq.

Böyüklərdən ibarət sərbəst güləş üzrə millimiz isə sabahdan Şamaxı Olimpiya İdman Kompleksində toplanışa başlayacaq. Gələn ay (15–19 iyul) Budapeştdə təşkil ediləcək ilin son reytinq turnirinə hazırlıqlar iyunun 20-dək davam edəcək.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Afərin, minifutbolçular!*

# Azərbaycan idmanının Avropa zəfəri

**Azərbaycan minifutbol millisi son illərdə beynəlxalq arenada inanılmaz uğurlar qazanaraq ölkə idmanının ən parlaq səhifələrindən birini yazıb. Qısa müddətdə qitənin və dünyanın nəhəng futbol ölkələrinin komandalarını diz çökdürən millimiz bu idman növünü ölkədə kütləviliyə çevirməyi bacarıb.**




Slovakiyanın paytaxtı Bratislavada təşkil olunan Avropa Çempionatı baş məşqçi Elşad Quliyevin rəhbərliyi altında milli komandamızın tam dominantlığı ilə yadda qaldı. Bütün rəqiblərini sıradan çıxaran yığmamız möhtəşəm oyun nümayiş etdirərək 2-ci dəfə Avropa çempionu titulunu qazandı.

Qeyd edək ki, Prezident İlham Əliyev də dünən imzaladığı sərəncamla Azərbaycan milli yığma komandasının 2026-cı il minifutbol üzrə Avropa çempionu olması münasibətilə Azərbaycan Minifutbol Federasiyasına 1 milyon manat ayırıb.

Bundan əlavə, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva sosial şəbəkə hesablarında paylaşım edərək ikiqat Avropa və Dünya çempionu olan minifutbol yığmamızı bu möhtəşəm tarixi qələbə münasibətilə səmimi-qəlbdən təbrik ediblər.

Millimiz qrupdakı (F qrupu) bütün oyunları qələbə ilə başa vuraraq 9 xalla lider kimi pley-offa yüksəldi: Avstriya – Azərbaycan – 0:1, İtaliya – Azərbaycan – 0:3, Fransa – Azərbaycan – 2:3.

Azərbaycan millisi 1/8 finalda çətin rəqib sayılan Qazaxıstanla üz-üzə gəldi. Komandamız Rəvan Kərimov, İsa Atayev və Məhəmməd Xəlilovun qolları sayəsində 3:2 hesabı ilə qalib gələrək növbəti mərhələyə yüksəldi.

Çexiya futbolçularına 1/4 finalda heç bir şans verməyən millimiz rəqibə 5:2 hesabı ilə qalib gəldi. Komandamızın ən fəal oyunçuları Eşgin Tağıyev (2), Təmkin Xəlilzadə, Ramiz Çovdarov və Məhəmməd Xəlilov rəqib qapıçını məyus etdilər.

Yarımfinalda 2 güclü rəqib – son Dünya çempionu olan Azərbaycan və son Avropa çempionu olan Serbiya milliləri qarşılaşdı. Görüşün əsas vaxtı 1:1 hesabı ilə başa çatdı. Penaltilər seriyasında millimiz 3:1 hesabı ilə qalib gələrək sonuncu Avropa çempionunu da turnirdən kənarlaşdırdı.

Çempionatda həlledici qarşılaşmada Ukrayna seçməsini Mirmehdi Rzayev və İsa Atayevin vurduğu qollarla darmadağın edən Azərbaycan milli komandası ikiqat Avropa çempionu adını qazandı!

Azərbaycan minifutbolunun bu qələbəsi sübut etdi ki, əldə edilən uğurlar təsadüfi deyil, ölkəmizdə idmana göstərilən dövlət qayğısının və komanda ruhunun bariz nümunəsidir. İkiqat Avropa çempionları artıq sübut etdilər ki, Azərbaycan bu idman növündə qitənin və dünyanın ən güclüsüdür.

Azərbaycan minifutbol yığmasının qitə arenasındakı mütləq dominantlığı həm müdafiə, həm də hücum xəttindəki fərdi ustadlıqları sayəsində mümkün olmuşdur. Turnir boyu




xüsusi olaraq fərqlənən əsas futbolçulardan komandanın qapıçısı Vəli Qafarov adını qeyd etmək olmaz. O, milli komandanın həm 2022, həm də son çempionluqlarında əsas qəhrəmanlardan biridir. Xüsusilə keçmiş Avropa çempionu Serbiya ilə keçirilən gərgin yarımfinal oyununun penaltilər seriyasında etdiyi möhtəşəm seyv və komandanı finala daşıması onun turnirdəki əvəzsiz rolunu bir daha sübut etdi.

Komandanın ən təhlükəli və stabil hücum silahı olan İsa Atayev həm qrupda Avstriyaya qarşı açılış qolunu vurmuş, həm pley-offda Qazaxıstan torunu silkələmiş, həm də böyük final oyununda Ukrayna qapısına vurulan həlledici qolun müəllifi olaraq turnirin ən dəyərli oyunçularından birinə çevrilmişdir.

Ukrayna ilə keçirilən final oyununda hesabı açan qolun müəllifi Mirmehdi Rzayev komandanın hücum taktikasında sürəti və texnikası ilə rəqib müdafiəçilər üçün ən böyük təhdidlərdən biri olmuşdur.

1/4 final mərhələsində güclü Çexiya seçməsinə qarşı keçirilən və 5:2 hesablı parlaq qələbə ilə bitən oyunda dubl edən Eşgin Tağıyev (2 qol) millinin yarımfinala yüksəlməsində əsas pay sahibi olmuşdur. O, eyni zamanda, Avropa çempionatının ən yaxşı oyunçusu (MVP) seçilib.

Həm qrup mərhələsində (Fransa oyunu), həm də Çexiya ilə pley-off matçında qollar vuraraq kritik anlarda




təcrübəsi ilə komandanı arxasınca aparan Ramiz Çovdarovu isə komandanın beyin mərkəzi adlandırmaq olar.

Serbiya ilə keçirilən və gərginliyi ilə yadda qalan yarımfinal matçında millimizin əsas vaxtdakı yeganə qolunu vuraraq komandanı oyunda saxlayan və penaltilərə qədər gedən yolun qəhrəmanı Xətai Bağırov oldu.

Rəvan Kərimov və Məhəmməd Xəlilov isə turnir boyu həm İtaliya, həm də Qazaxıstan kimi ciddi rəqiblərin qapılarına vurduqları qollarla hücum xəttindəki kəsərliyi təmin edən vacib həlqələr olmuşlar.

Böyük futbol təcrübəsini minifutbola uğurla transfer edən Təmkin Xəlilzadə, müdafiə ilə hücum arasında etibarlı körpü rolunu oynamış və Çexiya ilə oyunda gözəl qolla yadda qalmışdır.

Əldə olunan möhtəşəm qələbədə futbolçularımızın özünə inamı, meydanın hər qarışında top uğrunda mübarizə aparmaları, lazımı anlarda səbir və təmkinlə davranmaları komandamızın baş məşqçinin qarşıya qoyduğu hədəfə çatmaq üçün təlimatları necə ustalıqla yerinə yetirdiyini bir daha sübut etdi.

Azərbaycanda minifutbolun rəsmi şəkildə formalaşması heç də böyük tarixə malik deyil. Bu idman növünün ölkəmizdə peşəkar təməli 2017-ci ildə Azərbaycan Minifutbol Federasiyasının rəsmi fəaliyyətə başlaması ilə qoyulub. Federasiya qısa müddətdə ölkə daxilində güclü daxili liqalar təşkil edərək peşəkar oyunçu bazası formalaşdırıb. Azərbaycan Minifutbol Federasiyasının tamhüquqlu üzvünə çevrilərək qitəmiqyaslı yarışlara qatılmaq hüququ əldə edib.

Azərbaycan minifutbol yığması beynəlxalq səhnəyə çıxdığı ilk illərdən etibarən sensasiyalı nəticələrə imza atıb və dünya reytinqində 1-ci pilləyə qədər yüksəlib.

2022-ci ildə Slovakiyanın Koşitse şəhərində keçirilən Avropa çempionatında millimiz finalda Rumıniyanı 1:0 hesabı ilə məğlub edərək ilk dəfə Avropa çempionu olub.

Bundan başqa, Azərbaycanın daxili liqa klubları da beynəlxalq arenada böyük uğurlar qazanıb, o cümlədən 2024-cü ildə Polşada keçirilən Çempionlar Liqasının qalibi olublar.

**P.S.** *Avropa çempionu olan minifutbol üzrə millimiz dünən axşam Vətənə qayıdıb və komandanın üzvləri hava limanında böyük coşqu ilə qarşılanıb. Komandamızı böyük qələbə münasibətilə təbrik edir, yeni-yeni uğurlar arzulayırıq.*

***Q.YUSİFOĞLU***
***XQ***




## HAVA

## Paytaxtda yağmursuz, dağlarda yağış, dolu...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 16-19, gündüz 25-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 45-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz dağlıq və dağətəyi rayonlardan başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı



yerlərdə qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 15-18, gündüz 26-31, dağlarda gecə 5-10, gündüz 13-18, bəzi yerlərdə 21-26 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

## “Xətai-Rabitə-Tikinti” ASC səhmdarlarının nəzərinə!

“Xətai-Rabitə-Tikinti” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 22 iyun 2026-cı il saat 12.00-da, Bakı şəhəri, Xətai rayonu, M.Hadi küçəsi, 13X nömrəli ünvanda yerləşən inzibati binada aşağıdakı gündəlikdə keçiriləcəkdir:

**Gündəlikdəki məsələlər:**

**1.** “Xətai-Rabitə-Tikinti” Açıq Səhmdar Cəmiyyətinin müşahidə şurasının 3 illik vaxtının bitməsi ilə əlaqədar onun sədrinin və üzvlərinin yenidən seçilməsi.

**2.** “Xətai-Rabitə-Tikinti” Açıq Səhmdar Cəmiyyətinin 2025-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.

**3.** Digər məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 18.00-dək, səhmdar cəmiyyətin Bakı şəhəri, Xətai rayonu, M. Hadi küçəsi 13X nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətin idarə heyətinə müraciət etməklə tanış ola bilərlər.

Yığıncaqda iştirak etmək vacibdir.

***“Xətai-Rabitə-Tikinti” ASC-nin Direktorlar (Müşahidə) şurası***

✓ ***Çulaqov Rəşid Yasin oğluna məxsus dəniz skuteri “YAMAHA” markalı HİGH OUTPUT-un US-YAMA 1466 L011 nömrəli texniki pasportu itdiyi üçün etibarsız sayılır.***

✓ ***2025-ci il aprelin 22-də Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Xaçmaz rayonunun Canaxır kənd sakini, Azərbaycan Respublikası FHN-nin Xaçmaz rayon yangından mühafizə hissəsinin yangınsöndürəni Eldarov Babay Nəbi oğlunun adına verilmiş 1039300A nömrəli daxili xidmət çavuşu vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75** **Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02** **Email: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64** **info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3186**
**SİFARİŞ 698**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Səbuhi MƏMMƏDOV**
**Çapa imzalanmışdır 00:00**